Xalqın qəzeti!

# Xalq qəzeti

№ 118 (30522) 6 iyun 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## "Maydan" təhlükəsi", MDB və sabit Azərbaycan amili



Səhifə ⇨ 3

# Azərbaycan qlobal enerji çağırışlarını təşəbbüskarlıqla cavablandırır



**Artıq 30 ildir ki, respublikamızda Bakı Enerji Həftəsi çərçivəsində Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgiləri keçirilir. Bu tədbir enerji sektorunda innovasiya, tərəqqi və əməkdaşlığın təntənəsi kimi qeyd edilir.**

Sərgilərin keçirildiyi günlərdə ötən illər ərzində Azərbaycanın uğurları nümayiş etdirilməklə bərabər, sənaye sektorunun perspektiv inkişafı ilə bağlı prioritetlər də diqqətə çatdırılır. Bütün bunlar isə son nəticədə enerji siyasətinin uğurlu inkişafı ilə, sözügedən sistemdə dayanıqlılıqla nəticələnir, eyni zamanda, beynəlxalq tərəfdaşlığın genişlənməsi daha da sürətlənir.

Qeyd edək ki, 30 il bundan əvvəl əsası qoyulan Bakı Enerji Həftəsi Xəzər Neft və Qaz Sərgisi kimi işə başlayıb və ötən müddətdə bu sahədə əldə olunan müsbət nəticələr beynəlxalq miqyasda yüksək qiymətləndirilib. Məsələn, respublikamızdan Gürcüstanın Qara dənizdəki Supsa limanına gedən birinci neft boru kəmərinin istifadəyə verilməsi Azərbaycanda mühüm hadisə kimi tarixə çevrilib. Bunun nəticəsində Azərbaycan ixrac fəaliyyətinə başlayıb və bununla da bir sıra ölkələrin tələbatı ödənilib. Eyni zamanda, respublikamızda tərəfdaşları ilə birgə qaz mənbələrinin, xüsusən də, dünyada ən iri qaz yataqlarından sayılan "Şahdəniz"in kəşfiyyatına başlanılıb.

*(ardı 5-ci səhifədə)*

# Azərbaycan İranla dostluq və qonşuluq münasibətlərinə sadiqdir

**İyunun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə İran İslam Respublikasının Prezidenti vəzifəsini icra edən, Birinci vitse-prezident Məhəmməd Moxber arasında telefon danışığı olub.**



Telefon danışığı əsnasında dövlətlərimiz arasında tarixi dostluq, qonşuluq və xalqlarımız arasında qardaşlıq münasibətlərinin mövcud olduğu bir daha vurğulanıb.

Söhbət zamanı Prezident İlham Əliyev ilə İran İslam Respublikasının mərhum Prezidenti Seyid İbrahim Rəisinin Azərbaycan-İran sərhədində keçirilmiş görüşü, aparılmış müzakirələrin və əldə edilmiş razılaşmaların əhəmiyyətinə toxunulub. Qeyd edilib ki, bir çox önəmli məsələlərin müzakirə edildiyi həmin görüşdə əlaqələrimizin inkişafının gələcək istiqamətləri və hər iki tərəfin güclü siyasi iradəsi bir daha təsdiqlənib. Azərbaycanın bu görüşdə əldə edilmiş razılaşmalara tam şəkildə sadiq olduğunu deyən dövlətimizin başçısı bildirib ki, ölkəmiz onların icrası istiqamətində İran İslam Respublikası ilə birlikdə fəaliyyətini davam etdirəcək.

Azərbaycan Prezidenti İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın və digər müşayiət edən şəxslərin helikopter qəzasında faciəli surətdə həlak olmaları ilə bağlı İran dövlətinə və xalqına bir daha başsağlığı verib.

Başsağlığına görə təşəkkürünü bildirən Məhəmməd Moxber də öz növbəsində İran tərəfindən Prezident İlham Əliyev ilə İranın mərhum Prezidenti Seyid İbrahim Rəisinin görüşü zamanı əldə edilmiş razılaşmaların ölkələrimizin maraqlarına uyğun olaraq həyata keçiriləcəyini qeyd edib.

Telefon danışığı zamanı İran ərazisindən keçməklə Azərbaycanın Zəngilan rayonunu Naxçıvan ilə birləşdirən yol-nəqliyyat xəttinin yaradılması istiqamətində aparılan işlər də müzakirə olunub.

***Prezidentin Mətbuat Xidməti***

## İrəvan–Moskva ziddiyyəti və Qaluzinə qarşı "süngü ritorikası"



Səhifə ⇨ 4

# Ermənistan indi də "paritet" oyununa başlayıb

**Opponentin qarşısındakının sualına məntiqsiz cavabı kənar müşahidəçilərdə nə qədər ironik gülüş doğurursa, onun təqsirini qondarma arqumentlərlə, yəni yalanla ört-basdır etmək cəhdləri də bir o qədər ikrah hissi yaradır.**

Həmin subyektin özünü haqlı tərəflə eyni tərəziyə qoymağa çalışması isə hüquqi və siyası baxımdan savadsızlıq, ya da "tutsa qatıq, tutmasa ayran" məntiqi ilə izah oluna bilər. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Milli Assambleyadakı çıxışında irəli sürdüyü utopik müddəa hüquqi savadsızlıq nümunəsi kimi yalnız siyasi sarkazmla müşayiət olunmağa layiqdir.

*(ardı 3-cü səhifədə)*



## Paşinyanı devirmək niyə çətindir?



Səhifə ⇨ 4

## "Xan qızı"nın azadlıq arzusu çin oldu



Səhifə ⇨ 12

# Türkiyənin BRICS-ə qoşulması Anadoluya nə vəd edir?




**Türkiyənin Xarici işlər naziri Hakan Fidan Çin Xalq Respublikasına səfəri zamanı qardaş ölkənin bu il ərzində BRICS təşkilatına üzv olmaq niyyətini açıqlayıb. "Əlbəttə, biz BRICS-ə üzv olmaq istərdik. Görək, bu il nəyə nail ola bilirik" – deyə, o, Pekindəki Çin və Qloballaşma Mərkəzində keçirilən tədbirdə bildirib.**

Nazir qeyd edib ki, məsələ quruma üzv dövlətlərin xarici işlər nazirlərinin iyunun 10-11-də Rusiyanın Nijni Novqorod şəhərində keçiriləcək iclasında müzakirə olunacaq. H.Fidan, həmçinin BRICS ölkələrindən olan həmkarlarının Rusiyada keçiriləcək görüşündə iştirak etmək niyyətini də açıqlayıb: "Biz gələn həftə Nijni Novqorodda keçiriləcək BRICS toplantısında iştirak etməyi səbirsizliklə gözləyirik. Orada xüsusi nümayəndlərin və xarici işlər nazirlərinin (BRICS+ formatında) görüşü keçiriləcək".

H.Fidan qeyd edib ki, BRICS Türkiyənin 1999-cu ildən üzv olmağa can atdığı Avropa İttifaqına yaxşı alternativdir. Xarici işlər naziri Türkiyənin müxtəlif platformalarda, o cümlədən BRICS-də müxtəlif tərəfdaşlarla əməkdaşlıq üçün yeni imkanlar axtarmağa davam etdiyini bildirib. Onu da bildirək ki, H.Fidan fevral ayında Ankaranın Aİ-nin qapısında sonsuzluğadək gözləməyəcəyini və başqa tarixi yollar axtaracağını demişdi.

Türkiyənin təşəbbüsünə BRICS-in aparıcı ölkələrindən olan Rusiyanın reaksiyası özünü çox gözlətməyib. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov Türkiyənin təşkilata marağını alqışladığını bildirib. O, bu məsələnin BRICS-in sammitində müzakirə olunacağını söyləyib: "Qonşuların, o cümlədən Türkiyə kimi mühüm tərəfdaşların BRICS-ə marağının artması təqdirəlayiqdir. Təbii ki, bu maraq Rusiyanın sədrliyi ilə keçiriləcək və çox fəal şəkildə hazırlaşdığımız BRICS sammitinin gündəmində olacaq". D.Peskov qeyd edib ki, təşkilat bütün maraqlı tərəflərlə əlaqələrin qurulmasında maraqlıdır. Onun sözlərinə görə, bu məqsədlə müxtəlif formatlar nəzərdən keçirilir.

*(ardı 5-ci səhifədə)*

## “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 46 (Cild I) dəyişikliklər təsdiq edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 iyun 2024-cü il**

## Su təsərrüfatı və meliorasiya işçilərinin təltif edilməsi haqqında

## Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Su təsərrüfatı və meliorasiya sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

### “Şöhrət” ordeni ilə

Aslanov Rafiq Sabir oğlu

### 3-cü dərəcəli “Əmək” ordeni ilə

Babayev Ədalət Rəşid oğlu
Əhmədov Sabir Niyazı oğlu
Qasımov Qasım Əlibala oğlu

### “Tərəqqi” medalı ilə

Abbasov Əliqulu Şöyüb oğlu
Babayev Atakişi Abbasəli oğlu
Babayev Eyvaz Əvəz oğlu
Bayramov Abid Xalid oğlu
Cabbarov Anar Ramiz oğlu
Cəfərov Qalib Qaraş oğlu
Dərgahov Məzahir Həbib oğlu
Əhmədov Fazil Mayıl oğlu
Əliyev Araz İsbal oğlu
Əliyev Fazil Hatəm oğlu
Əliyev Lətif Mehdi oğlu
Əsgərov Ədalət Həzrətqulu oğlu
Əşrəfov Zakir Əli oğlu
Həsənov Məlik Həsən oğlu
Həsənov Məmmədhəsən Hüseynağa oğlu
Hüseynov Elşən Rəşid oğlu
Hüseynov Ramiz Mikayıl oğlu
Hüseynova Kəmalə Məhəmmədəli qızı
Xalıqov Elman İmanalı oğlu
İmanov Asif Adil oğlu
Qarayev Qabil Musa oğlu
Qədirov Fuad Akif oğlu
Qurbanov Daşqın Lətif oğlu
Mehnətov Pənah Sabir oğlu
Məmmədov Mübariz Ramiz oğlu
Məmmədov Nazim Məmmədağa oğlu
Məmmədov Rüfət Bayram oğlu
Minibayeva Tatyana Sabitovna
Mirzəcanov Nasir Bəydulla oğlu
Muxtarov Nizam Mirzəbala oğlu
Nağıyev Nazim Bülbül oğlu
Nağıyev Zahid Abbasqulu oğlu
Nəbiyeva Aidə Fərəc qızı
Rüstəmov Elşən Nəsrəddin oğlu
Rüstəmov Rüstəm Rafiq oğlu
Salmanov Sədrəddin Tapdıq oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 iyun 2024-cü il**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Əlamətdar bayram - Müstəqillik Günü münasibətilə Sizə və qardaş Azərbaycan xalqına ən səmimi təbriklərimizi çatdırmaqdan böyük məmnunluq duyuram. Müstəqillik Günü Azərbaycanın qurucularının ölkənin taleyini formalaşdırmaq əzmini və uzaqgörənliyini nümayiş etdirir.

Pakistan Azərbaycanla ortaq inanca, dəyərlərə və səylərə əsaslanan güclü qardaşlıq əlaqələrini yüksək qiymətləndirir. Qarşılıqlı faydalı əməkdaşlığımızın inkişaf etməsi böyük məmnunluq doğurur. Ölkələrimiz əsl qardaşlar kimi beynəlxalq forumlarda əsas maraq doğuran bütün məsələlərdə bir-birini dəstəkləyib və bundan sonra da dəstəkləyəcək.

Bakının bu ilin noyabrında COP29-a ev sahibliyi edəcək şəhər seçilməsi münasibətilə Azərbaycanı bir daha təbrik edirəm. Mən Sizin dəvətinizi almışam və COP29 Sammitində iştirak etməyi səbirsizliklə gözləyirəm. Pakistanın hərtərəfli dəstəyinə əmin ola bilərsiniz və bu mühüm tədbirin təşkilində Azərbaycana uğurlar arzulayıram. Əminəm ki, Sizin müdrik rəhbərliyinizlə COP29 Azərbaycan üçün daha bir parlaq diplomatik nailiyyət olacaqdır.

2023-cü ilin iyun ayında gözəl Bakı şəhərinə səfərim zamanı apardığımız məhsuldar müzakirələri, eləcə də bu yaxınlarda Ramazan bayramı ilə əlaqədar telefon danışığımızı böyük məmnunluqla xatırlayıram. Zati-alinizin qardaşlıq əlaqələrimizi daha yüksək zirvələrə qaldırmaqla bağlı mövqeyi məni həmişə ruhlandırıb.

Zati-aliləri, məhz bu ruhda Sizə münasib olan ən yaxın zamanda Pakistana rəsmi səfər etmək barədə dəvətimi bir daha bildirirəm. Bu səfər bizim zamanla sınanmış və davamlı dostluq əlaqələrimizə təkan verməklə yanaşı, həm də münasibətlərdə yeni və şərəfli bir səhifə açacaqdır.

Zati-alinizə möhkəm cansağlığı, rifah, qardaş Azərbaycan xalqına isə davamlı firavanlıq və tərəqqi arzulayıram.

Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Məhəmməd Şahbaz ŞƏRİF,***
***Pakistan İslam Respublikasının Baş naziri***

## Prezident İlham Əliyevin xarici siyasətinin uğurları






**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində (BMTM) “Prezident İlham Əliyev: Xarici siyasət uğurları – 2003-2023” mövzusunda yazılmış broşürün təqdimatı keçirilib.**

Mərasimdə çıxış edən BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev yeni nəşrdə Prezident İlham Əliyevin rəhbərliyi ilə 20 il ərzində aparılan xarici siyasət, səfərlər, görüşlər və reallaşdırılan beynəlxalq layihələrin, bir sıra məsələlərin sistemli formada əksini tapdığını bildirib. Qeyd edib ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasəti Prezident İlham uğurla davam etdirir.

BMTM-in aparıcı məsləhətçisi Mətin Məmmədli “Tarixi zəfərə gedən yol - Azərbaycan xarici siyasətinin ən böyük uğuru” mövzusunda çıxış edib. Mərkəzin şöbə müdiri Vasif Hüseynov “Azərbaycanın çoxvektorlu xarici siyasəti və beynəlxalq münasibətlər sisteminə uğurlu inteqrasiyası” mövzusunda təqdimatında qeyd edib ki, ölkəmiz uğurlu balanslı, çoxvektorlu xarici siyasət yürüdür. Xarici siyasətimizdə neytrallıq və qoşulmama prinsipləri təməl prinsiplər kimi nəzərdə tutulub.

BMTM-in baş məsləhətçisi Şahmar Hacıyev “Azərbaycanın uğurlu enerji strategiyası və yaşıl iqtisadiyyata keçid” mövzusunda çıxışında bildirib ki, 2024-cü ildə Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu siyasət və imzalanan enerji müqavilələri enerji siyasətində yeni mərhələdən xəbər verir.

Təqdimatda vurğulanıb ki, broşür 2003-2023-cü illər ərzində Azərbaycanın beynəlxalq münasibətlər sisteminə inteqrasiyası, regional və qlobal təşəbbüslər və donor ictimaiyyətinin üzvü kimi rolu, enerji strategiyası, nəqliyyat layihələri, İkinci Qarabağ müharibəsi və Azərbaycanın sülh təşəbbüsləri istiqamətləri üzrə sistemli məlumatları özündə birləşdirir.

**XQ**

## Türkiyə Böyük Millət Məclisinin sədri Bakıda



**Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş onu müşayiət edən parlament nümayəndə heyəti ilə Bakıya gəlib.**

Numan Kurtulmuş sabah Bakıda Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) 13-cü Baş Assambleyası və Assambleya Şurasının 13-cü iclasında iştirak edəcək.

TBMM sədri və nümayəndə heyətini Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Milli Məclis sədrinin müavini Fəzail İbrahimli, Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun sədri Əhliman Əmiraslanov, Türkiyə səfiri Cahit Bağcı və digər rəsmi şəxslər qarşılayıblar.

**XQ**

## Ölkəmizin BƏƏ ilə tərəfdaşlığı dinamik inkişaf edir



**İyunun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyana zəng edib.**

Dövlətimizin başçısı iyunun 4-də Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkətinin iştirakı ilə Neftçala, Biləsuvar Günəş elektrik stansiyalarının və Abşeron-Qaradağ Külək Elektrik Stansiyasının təməlinin qoyulmasının əhəmiyyətinə toxunaraq, bu sahədə ölkələrimiz arasında mövcud əməkdaşlıqdan məmnunluğunu bildirib.

Telefon danışığı zamanı Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında dostluq, qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərinin bütün sahələrdə dinamik inkişaf etdiyi vurğulanıb.

COP28-in sədri olaraq Birləşmiş Ərəb Əmirlikləri və COP29-un sədri olaraq Azərbaycan arasında həyata keçirilən əməkdaşlıq və təcrübə mübadiləsindən məmnunluq ifadə olunub. Prezident İlham Əliyev Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanı COP29 Zirvə toplantısında iştirak etmək üçün Azərbaycana dəvət edib.

Dövlətimizin başçısı ölkəmizin üzləşdiyi mina probleminin aradan qaldırılması istiqamətində verdiyi maliyyə töhfəsinə və Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur regionunda humanitar əsaslı tikinti layihələrinə töhfə vermək niyyətinə görə Birləşmiş Ərəb Əmirliklərinə minnətdarlığını bildirib.

Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ölkələrimiz arasında münasibətlərin dostluq, qardaşlıq və strateji tərəfdaşlıq xarakteri daşıdığını bir daha vurğulayıb.

Telefon danışığı əsnasında dövlət başçıları əlaqələrimizin inkişaf perspektivləri barədə fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

## Bakı Enerji Həftəsi dünya mediasında

**Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - “Caspian Oil&Gas” və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - “Caspian Power” sərgiləri dünya mediasının diqqət mərkəzindədir.**

Birləşmiş Ərəb Əmirliklərinin “Emirates” rəsmi informasiya agentliyi, “24 ae.”, “Əl İttihad”, “Şarjah 24”, “Mediaoffice. Abu-Dabi”, “Əl Xalic”, “uae.barq” qəzet və portalları, habelə “CNN arabic”, “Abu Dabi1” telekanalları, Səudiyyə Ərəbistanının “Saudigulffprojetcts” nəşri Bakı Enerji Həftəsi çərçivəsində Prezident İlham Əliyevin BƏƏ-nin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan bin Əhməd Əl-Cabiri qəbul etməsi, habelə Azərbaycanın dövlət başçısının və Əmirliklərin nazirinin bu mötəbər tədbirdə çıxışının əsas məqamları barədə məlumat veriblər.



BƏƏ və Səudiyyə Ərəbistanı mediası, həmçinin Azərbaycan Prezidenti İlham Əliyev və BƏƏ-nin sənaye və qabaqcıl texnologiyalar naziri, COP28-in sədri Sultan bin Əhməd Əl-Cabirin iki günəş və bir külək enerjisi layihəsinin təməlqoyma mərasimində iştirakı haqqında geniş məqalələr dərc edib. Ərəb ölkələri ictimaiyyətinin diqqətinə çatdırılıb ki, bu layihələr təmiz enerji sahəsində dünya lideri olan “Masdar” tərəfindən Azərbaycanın



milli neft şirkəti SOCAR ilə birgə işlənib hazırlanacaq.

Məqalələrdə diqqətə çatdırılıb ki, Sultan bin Əhməd Əl-Cabir Azərbaycanın COP29-a ev sahibliyi etməyə hazırlaşdığını, hazırkı COP prezidenti Birləşmiş Ərəb Əmirliyinin COP29-un sədrliyi ilə sıx əməkdaşlıq etməyə davam edəcəyini bildirib.

Bakı Enerji Həftəsinin açılış mərasimi haqqında Qazaxıstanın “Kazinform” agentliyi, Çinin “Siamnews”, “Chinamoneynerqork” portalları, Avstraliyanın AAP informasiya agentliyi, Tailandın “Thailand business” nəşri, Almaniyanın “Finanznachritchen”, Kanadanın “Newswire”, İtaliyanın “İnarmazione”, İngiltərənin “Morningstar”, Tayvanın “Taiwannews” elektron qəzetləri geniş məqalələr dərc ediblər.

Məqalələrdə qeyd edilib ki, qlobal enerji böhranı dövründə Azərbaycanın ev sahibliyi etdiyi bu mötəbər tədbir 30-dan çox ölkədən 300-dək şirkəti bir araya gətirib. Dünya mediası Prezident İlham Əliyevin çıxışında Qarabağ və Şərqi Zəngəzurun azad olunmuş ərazilərinin nəhəng hidroelektrik potensialı, həmin ərazilərin azad edilməsindən sonra orada 270 meqavat həcmində hidroelektrik stansiyaların istifadəyə verilməsi və 3-5 il ərzində bu rəqəmin 500 meqavata çatacağı barədə fikirlərinə də yer ayırıb.

Qlobal miqyasda investorların əsas media orqanı olan “Investor Observer” nəşri, Fransanın “Le Lezard” elektron qəzeti, Asiya ölkələri sahibkarlarının media orqanı “Enterpise Asia”, ABŞ-ın “Central Charts”, “Street Insider” portalları, Səudiyyə Ərəbistanın ingilis dilində nəşr olunan “GoalFore Advisory” analitik iqtisadi jurnalı, İraqın “Əl Ayn”, Pakistanın “Press Release Hub” saytlarında da jurnalistlərin qlobal enerji təhlükəsizliyinin barometri adlandırdıqları Bakı Enerji Həftəsinin açılışında Azərbaycanın dövlət başçısının çıxışından əsas məqamlar dərc edilib. Oxucuların diqqətinə çatdırılıb ki, Prezident İlham Əliyev 4 iyun tarixinin sadəcə iyirmi il bundan əvvəl neft və qaz sərgisində “Şahdəniz” müqaviləsinin imzalanması ilə yadda qalmayacağını, həmçinin qardaş BƏƏ-dən olan “Masdar” şirkəti tərəfindən inşa ediləcək üç günəş və külək enerjisi elektrik stansiyalarının təməlqoyma mərasiminin keçirilməsi ilə də əlamətdar olduğunu deyib.

Məqalələrdə diqqətə çatdırılıb ki, “Şahdəniz” qaz yatağının əhəmiyyətindən danışan Prezident İlham Əliyev hazırda Azərbaycanın təbii qaz ixracının artdığını, bu il ixracatın 24 milyard kubmetrdən artıq olacağını bildirib. O əlavə edib ki, səkkiz ölkə Azərbaycandan qaz alır, bir neçə ay bundan öncə keçirilmiş Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının toplantısında Avropa Komissiyası Azərbaycanı ümum-Avropa qaz təchizatçısı adlandırıb və bu, həqiqətdir.

Məqalələrdə, həmçinin Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin Enerji Ehtiyatları Bürosunun çoxtərəfli enerji diplomatiyası üzrə baş müşaviri Harri Kemian, Avropa Komissiyasının Energetika üzrə Baş İdarəsinin direktoru xanım Kristina Lobillo Borrero, Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi Haysam Əl-Qays, Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin (IRENA) Baş direktoru Françesko La Kameranın da Bakı Enerji Həftəsinin açılışında çıxış etdikləri, habelə bu mötəbər tədbirə dünyanın nəhəng enerji şirkətlərinin rəhbərlərinin qatıldıqları qeyd olunur.

Eyni zamanda, diqqətə çatdırılıb ki, 37 ölkədən 300-dək şirkətin iştirak etdiyi Bakı Enerji Həftəsinə İsveç, Hindistan və Sloveniyadan olan şirkətlər ilk dəfədir qatılırlar. Builki sərginin tərkibi iştirakçıların ümumi sayının 15 faizini təşkil edən yeni şirkətlər hesabına yenilənib. Onların əksəriyyəti Azərbaycanın yaşıl enerji sahəsinə yüksək maraq göstərən iştirakçılardır. Sərgi sahəsinin 40 faizi isə tanınmış şirkətlərə, bu mühüm tədbirin daimi iştirakçılarına məxsusdur.

**XQ**

# "Maydan" təhlükəsi", MDB və sabit Azərbaycan amili

## Yaxud Cənubi Qafqazda "rəngli inqilab" ssenarisi və Bakının sığorta formulu



**Qərb Rusiyanın sərhədləri yaxınlığında gərginlik mənbəyi yaratmaq üçün oktyabr ayına qədər Gürcüstanda yeni "Maydan" ssenarisini həyata keçirməyə çalışır. Bunu Rusiya Xarici işlər nazirinin müavini Mixail Qaluzin deyib. Əslində, Qaluzinin bildirdiyi məqamlar bir müddət əvvəl onun təmsil olunduğu komandanın digər üzvləri tərəfindən də dilə gətirilmişdi. Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin direktoru Aleksandr Bortnikov, ardınca Müdafiə naziri Andrey Belousov qlobal təhlükə ilə bağlı "həyəcan təbili" çalmış və Gürcüstanda yaşanan proseslər üzərində dayanmışdılar.**

A.Bortnikov Müstəqil Dövlətlər Birliyi məkanında "rəngli inqilab" dalğası haqqında söz açmışdı. O, Qərbi ittiham etmiş və bildirmişdi ki, Qərb mərkəzləri MDB ölkələrində vəziyyətin pisləşdiyi və kütləvi iğtişaşlar baş verəcəyi təqdirdə, hakimiyyəti ələ keçirmək üçün "mühacirətdə olan hökumətlər" formalaşdırırlar. Rusiyanın baş kəşfiyyatçısı onu da vurğulamışdı ki, nəzərdə tutulan ssenarinin gerçəkləşdirilməsi naminə daxili böhranlara şərait yaratmaq əsas götürülür, bu məqsədlə təsir agentləri, nəzarət edilən müxalifət partiyaları və hərəkatları, qeyri-kommersiya təşkilatları və psevdo-müstəqil mediadan istifadə olunur.

A.Belousov Bortnikovun "rəngli inqilab" məntiqini inkişaf etdirərək, bilavasitə Gürcüstanda yaşanan proseslərdən danışmışdı. Rusiyanın MN rəhbəri sırf həmin proseslər fonundakı təhlükəni qabartmış və vurğulamışdı ki, Gürcüstanda aktiv anti-Rusiya hərəkətləri axtarılır. Bunun üçün Qərb ölkədəki etirazları maliyyələşdirir və vəziyyəti qeyri-sabit saxlamağa çalışır. Əlbəttə ki, rusiyalı rəsmi Gürcüstanda xarici agentlər haqqında qanunun qəbulu məsələsində yaranmış etiraz dalğasını nəzərdə tutmuşdu.

M.Qaluzinə gəldikdə isə o bildirib ki, bu ilin oktyabrında keçiriləcək parlament seçkiləri kontekstində qərblilərin Gürcüstanda vəziyyəti gərginləşdirmək cəhdləri nəzərə çarpmaqdadır. "İstisna etmirik ki, məqsəd Rusiya sərhədləri yaxınlığında daha bir gərginlik ocağı yaratmaq ümidi ilə hakimiyyət dəyişikliyinin "Maydan" ssenarisini həyata keçirməyə çalışmaqdır", – deyən rusiyalı diplomatın sözlərinə görə, ABŞ və Avropa İttifaqı ölkələri bir çox suveren dövlətlərə təzyiqlər göstərirlər.

Təzyiqdən söz düşmüşkən, A.Belousovun üzərində dayandığı və bizim üçün vacib olan başlıca məsələ Azərbaycan və Ermənistan arasındakı sülh müqaviləsi olmuşdu. O demişdi ki, Qərb Azərbaycana və Ermənistana yekun sülh sazişi xüsusunda təzyiq göstərir. Nazir konkret şəkildə vurğulamışdı ki, Bakıya və İrəvana yalnız Qərb platformalarında sülh müqaviləsi imzalamaq, habelə, vasitəçilik xidmətləri təklif və tətbiq edilir.

***

Haşiyəyə çıxaq ki, Azərbaycan və Ermənistan arasında vasitəçilik dövrü geridə qalıb. Yəni hazırda ölkələr delimitasiya və demarkasiya xüsusunda qarşılıqlı razılıq əsasında hərəkət edirlər. Ancaq Bortnikov Qərbin yeni "rəngli inqilab" ssenarisi barədə səbəbsiz danışmadığı kimi, Belousov da əbəs yerə vasitəçilik məsələsini gündəmə gətirməmişdi. Hər halda, birinci kimi ikinci də kifayət qədər məlumatlıdır və onun sözlərindən belə qənaətə gəlmək mümkündür ki, delimitasiya və demarkasiya prosesləri əsasında Bakı – İrəvan təmasları ilə yekun sülh müqaviləsi tamam başqa-başqa mövzulardır. Daha dəqiq desək, ikinci məsələ Qərb – Rusiya rəqabəti baxımından aktuallığını qoruyur.

***

Bəli, Qaluzinin fikirləri də Rusiyanın Cənubi Qafqaz siyasi akvatoriyasına həssas yanaşmasının növbəti göstəricisidir. O, Litva, Latviya, Estoniya və İslandiyanın xarici işlər nazirlərinin mayın ortalarında Tbilisidə keçirilən küçə etirazlarında iştirakına da diqqət çəkib. "Bunu müstəqil dövlətin daxili işlərinə açıq-aşkar müdaxilədən başqa bir şey kimi xarakterizə etmək çətindir. Bütün bunlar suverenliyini məhdudlaşdırmağa çalışdıqları ölkələrə öz iradələrini tətbiq edən neokolonial təcrübələrin iyrənc nümunələridir", – deyə Rusiya XİN başçısının müavini vurğulayıb.

Qeyd edək ki, Qaluzinin açıqlaması ilə Gürcüstan Baş naziri İrakli Kobaxidzenin bildirdiklərinin zaman və müəyyən qədər ifadə tərzi baxımından üst-üstə düşməsi maraq doğurmaya bilməz. Əlbəttə, niyyətimiz heç də onu demək deyil ki, bu iki açıqlama bir-biri ilə razılaşdırılmış şəkildə verilib. Başlıca məqam "rəngli inqilab" ssenarisinin işə salınmasının eyni qaydada dərk edilməsindədir.

Bəli, İ.Kobaxidze əmindir ki, kənar təsirlər nəticəsində Gürcüstanda nəyəsə nail olmaq mümkünsüzdür. O, hətta, deyib ki, ölkəsində inqilab təşkil etməyin qeyri-mümkün olduğunu hər kəs gördü. Hökumət başçısı Gürcüstanın stabil qalacağını, orada sülhün qorunub saxlanılacağını vurğulayıb. Kobaxidze onu da deyib ki, təmsil olunduğu hökumət ölkədə sülhün pozulmasına imkan verməyəcək.

İrakli Kobaxidze Gürcüstana sanksiyaların tətbiqi ilə bağlı Qərbdən gələn bəyanatlara da toxunub. O, belə bəyanatları "qeyri-ciddi" və "qeyri-məhsuldar" adlandırıb. "Sanksiyalarla bağlı söhbətlər bizim üçün qeyri-ciddidir. Bununla bağlı kim bəyanat verirsə, qeyri-ciddidir və bu, qeyri-məhsuldardır", – deyən Baş nazir ölkəsində xarici təsir agentləri ilə əlaqədar qanununun qəbuluna görə gürcü deputatlara sanksiyaların tətbiqinə dair bildiriş emaillərinin göndərilməsini də "yalan" adlandırıb.

***

Sonda onu da deyək ki, Rusiya rəsmilərinin son zamanlar "rəngli inqilab" məsələsini gündəmə gətirmələri Qərbin MDB məkanında, o cümlədən Cənubi Qafqaz regionunda böyük dəyişikliklər planladığının sübutudur. Belə bir durumda Azərbaycanın hadisə və proseslərə baxışının necə olacağı məsələsi aktuallaşır. Məlumdur ki, ölkəmiz hər zaman müstəqil xarici kurs həyata keçirib. Bu kurs dünya miqyasında qəbul edilir. Kollektiv Qərbin ən mühüm aktoru sayılan ABŞ-nin dövlət başçısı Co Baydenin Azərbaycana göndərdiyi məktubda ifadə olunmuş yanaşma tərzi də bunun bariz göstəricisidir.

Deməli, belə nəticəyə gəlmək mümkündür ki, Azərbaycan düzgün müəyyənləşdirilmiş balanslı xarici siyasətinə sadiq qalmaqla, daxili siyasətində produktivliyi qorumaqla, ən əsası isə qalib dövlət obrazı ilə özündə "rəngli inqilab" ssenarilərinə qarşı ciddi müqavimət formalaşdırıb. Bunu ölkəmizdəki sabitlik və əmin-amanlıq mühiti də təsdiqləyir. Bu təsdiqlənmə həm də Azərbaycanı Cənubi Qafqazın başlıca söz sahibinə və əlbəttə ki, başlıca inkişaf və tərəqqi faktoruna çevirir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Ermənistan indi də "paritet" oyununa başlayıb

## Bakının haqlı tələblərinə İrəvanın məntiqsiz dirəniş cəhdləri

**(əvvəli 1-ci səhifədə)**

Hayların baş diplomatının kürsüdən üfürdüyü bəyanatına diqqət yetirin: "Həm Ermənistan, həm də Azərbaycanın konstitusiyalarında iki ölkə arasında uzunmüddətli sülhün bərqərar olmasına maneələr törədən maddələr var. Amma hazırda əsas qanunda dəyişiklik edilməsi məsələsi gündəmdə deyil. Bunu Ermənistan–Azərbaycan danışıqlarının son raunduna saxlamışıq".

Əvvəla, aşkar görünən odur ki, rəsmi İrəvan sülh sazişi üzrə danışıqlarda Bakının hüquqi və siyasi cəhətdən əsaslandırılmış arqumentinə qarşı "əks-arqument" axtarışlarını davam etdirir. Yəni Bakının öz konstitusiyalarında yer alan ərazi iddialarının aradan qaldırılması tələbinə "paritet yaratmaq", problemi "balanslaşdırmaq" üçün cəhd göstərilir. Guya, bu halda Bakı İrəvandan qanunvericiliyini "çirkabdan" təmizləmək tələbindən əl çəkə bilər. Mirzoyanın parlament "jestinin" arxasında gizlənən digər vacib məqam Paşinyan iqtidarını üzləşdiyi hakimiyyət böhranından çıxarmaq, siyasi hərarəti qalxmış daxili ictimai rəyin üzərinə "sərin su çiləməkdir". Onların ikinci niyyətlərinə nə dərəcədə çatdıqları ilə işimiz yoxdur, amma birinci məqsədlərinin üstündən birdəfəlik xətt çəkməlidirlər. Çünki həm Azərbaycana, həm də qardaş Türkiyəyə qarşı ərazi iddialarının yazıldığı konstitusiyasını dəyişmədən Ermənistanın iki yaxın qonşusu ilə arzuladığı münasibətlərin nizamlanması müşkül və mümkünsüz məsələdir.



***

Elmi dildə tərkibində heç bir elementi olmayan çoxluğa boş çoxluq deyilir. Əgər bu postulatı riyazi nəzəriyyədən diplomatik leksikona tranformasiya etsək, onda məzmunu elementar arqument və məntiqdən uzaq siyasi bəyanatların da qarşısına boş çoxluq işarəsi (Ø) qoymaq mümkündür. Ermənistan XİN başçısı Ararat Mirzoyanın Azərbaycan Konstitusiyası ilə bağlı bəyan etdiyi mülahizə həmin "boş çoxluq" seriyasındandır.

Deməli, rəsmi İrəvan məmləkəti bürümüş kütləvi etirazlar fonunda yuxarıda qeyd etdiyimiz məqsədlə yanaşı, həm də Azərbaycana qarşı şərtlər irəli sürməyə qadir olduğunu potensial elektorata göstərmək niyyətini güdür. Bununla da Paşinyan və onun komandası, sanki, "bir güllə ilə iki dovşan vurmaq" xəyalına düşüblər.

İntəhası, Mirzoyanın Azərbaycan Konstitusiyası ilə bağlı səsləndirdiyi fikirlər, sadəcə, gülüş doğurur. Belə bir utopik iddianı İrəvan keçmişdə də dövriyyəyə buraxmağa cəhd göstərmişdi. Ermənistan rəsmiləri Azərbaycan Konstitusiyasının preambulasını problemli adlandırır və bu zaman bizim dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına (18 oktyabr 1991-ci il) istinad edirlər. Həmin preambulada 1918-ci il mayın 28-də müstəqilliyini elan etmiş Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisliyi qeyd olunur. Dövlət Müstəqilliyi haqqında Aktın 2-ci maddəsində deyilir: "Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisidir".

Aydın məsələdir ki, rəsmi İrəvan canının qorxusundan belə avantürist addımları atır. A.Mirzoyan özü də yaxşı bilir ki, bu müddəanın nə üst, nə də alt qatında Azərbaycanın Ermənistana ərazi iddiaları əks olunmur. Bu reallığı kənara qoyan hayların baş diplomatı 1918-ci ildəki AXC-nin ərazisinə müasir Ermənistanın böyük bir hissəsinin daxil olduğunu, amma İrəvanın bu faktı tanımayacağını ictimaiyyətin qulağına üfürür. Əlbəttə, İrəvanın ortaya atdığı bu yeni tezis başdan–ayağa cəfəngiyyatdır. Azərbaycanın nə Müstəqillik aktında, nə də Konstitusiyasında ərazi iddiası ilə bağlı bənd var. Ana Qanunumuzun 2-ci maddəsində söhbət ancaq dövlətçilik ənənələrinin varisliyindən gedir. Əgər əsas qanunlarda səhv axtarmağa qalsa, onda qarşılıqlı iddialar zənciri boş sonsuzluğa qədər uzana bilər.

***

Ermənistan-Azərbaycan münasibətlərin nizamlanması kontekstində, əslində, biz bir-birimizə qarşı birbaşa ərazi iddialarının aradan qaldırılmasında maraqlı olmalıyıq. Göründüyü kimi, Azərbaycan qanunvericiliyində belə iddialar yoxdur. Ermənistanın Müstəqillik bəyannaməsində isə açıq mətnlə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistanın tərkib hissəsi olduğu göstərilir.

Bundan başqa, Ermənistan parlamenti Müstəqillik Bəyannaməsinə və Konstitusiyanın müvafiq müddəalarına əsaslanaraq, 1992-ci il iyulun 8-də "Dağlıq Qarabağ Respublikası" adının hər hansı beynəlxalq və ya daxili sənədin bir hissəsi kimi göstərildiyi barədə qərar qəbul edib. Ermənistan parlamentariləri və hakimləri bu müddəaların spekulyativ deyil, real fəaliyyətdə olduğunu praktikada sübut ediblər. Axı, bundan savayı, Ermənistanın Müstəqillik bəyannaməsində qardaş Türkiyəyə qarşı da ərazi iddiaları yer alır. Mətn təxminən bu cür tərcümə olunur: "Ermənistan Respublikası Osmanlı Türkiyəsi və Qərbi Ermənistanda 1915-ci il erməni soyqırımının beynəlxalq səviyyədə tanınmasını dəstəkləyir".

Qondarma "erməni soyqırımı" məsələsini bir kənara qoyub, məsələnin hüquqi tərəfinə, bu çərçivəyə "Qərbi Ermənistan"ın daxil edilməsinə diqqət edək. Beyinlərinə şovinizm toxumları səpilmiş haylar Şərqi Anadolunun geniş ərazisini məhz "Qərbi Ermənistan" adlandırırlar. Ermənistan qanunvericiliyi baxımından tamamilə qanuni şəkildə həyata keçirilən sərhədin delimitasiyasına qarşı etirazlar onu göstərdi ki, daşnak–revanşist qüvvələr Azərbaycanla heç bir sülh sazişini qəbul etməyəcəklər. Hadisələr Paşinyan və onun komandası üçün arzuolunmaz məcrada davam edərsə, Ermənistan konstitusiya məhkəməsi hakimlərinin imzalanacaq sülh sazişini də etibarsız saymağa məcbur olma ehtimalı yüksəkdir. İndi Bakının Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının təkrarlanmayacağına zəmanəti olmalıdır. Bu səbəbdən Bakı İrəvan qarşısında qanunvericiliyə dəyişiklik edilməsi ilə bağlı ədalətli tələb irəli sürür. Belə bir dəyişikliyi zəmanət kimi qəbul edə bilər. Əslində, baş nazir Paşinyan bunların hamısını yaxşı anlayır. Məgər mifik-tarixi yox, real Ermənistan ideyasını qaldıran onun özü deyilmi? Üstəlik, ölkə qanunvericiliyində qonşulara qarşı ərazi iddialarını özündə əks etdirən müddəaların dağıdıcı rolundan ilk danışan da Paşinyan olub.

Üzləşdiyi daxili və xarici təzyiqlər qarşısında İrəvanın ictimai rəylə, hətta kütləvi etirazlar fonunda riskli oyunlara girişmək istəyini başa düşmək mümkündür. Fəqət, belə oyunlar geriyə dönüşün olmayacağı risklə doludur. O da aydındır ki, Paşinyan hökumətinə köklü konstitusiya islahatını həyata keçirmək üçün böyük iradə lazımdır. İnanmaq istərdik ki, Ermənistanın yaxın qonşuları ilə düşmənçiliyinə son qoyan məhz bu komanda olacaq.

Ararat Mirzoyanın Bakının ədalətli tələbinə "ayna tutmaq" cəhdi isə təəssüf ki, tərəflər arasında yaranmağa başlayan qarşılıqlı inam və çətinliklə qurulan normallaşma prosesinə xoşagəlməz ab-hava gətirə bilər...

***İmran BƏDİRXANLI***
***XQ***

**Ekspert rəyi**



**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri, politoloq**

– Bəli, hüquqi baxımdan müstəqil Azərbaycan 1918–1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Eyni zamanda, Azərbaycan Konstitusiyasında nəinki Ermənistana, eləcə də dünyanın heç bir ölkəsinə qarşı ərazi iddiamız yoxdur. Beynəlxalq hüquq da bunu təsdiqləyir. Amma Ermənistan konstitusiyasında müstəqillik haqqında bəyannaməyə istinad yer alır. Orada 1989-cu ilin dekabrında "Dağlıq Qarabağ"la bağlı qeyd var. Əslində, burada söhbət təkcə Ermənistan konstitusiyasından getmir. Bu ölkənin parlamenti də 1992-ci il tarixli qərarı ilə Azərbaycanın ərazi bütövlüyünü tanımır.

Alma-Ata Bəyannaməsini ratifikasiya edərkən bu müddəaların hüquqi qüvvəsini qəbul etmədiklərini bildiriblər. Hətta orada bəyannamənin "Dağlıq Qarabağ"a şamil olunmadığına dair əlavə qeyd var. Doğrudur, baş nazir Nikol Paşinyan həmin əlavələrin heç yerə təqdim edilmədiyini bildirib. Fəqət, erməniləri tanıyırıq. Onlar sabah bu gün dediklərinin tərsini söyləyə bilərlər.

Digər bir məsələni xatırladaq ki, Robert Koçaryan 1998-ci ildə prezident seçilərkən, konstitusiyaya görə, onun beş il Ermənistanda yaşaması tələb olunurdu. Amma konstutisiya məhkəməsi Koçaryanın "Dağlıq Qarabağ"da Ermənistan vətəndaşı kimi yaşaması barədə qərar qəbul etmişdi. Yəni Ermənistanın hüquq sistemində, o cümlədən konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları var. Amma bizim 1995-ci ildə qəbul etdiyimiz (sonra bəzi əlavələr edilməklə) mövcud Konstitusiyamızda Ermənistan ərazisinə iddiamızla bağlı heç nə yoxdur.

Rəsmi İrəvan bu üsulla beynəlxalq ictimaiyyətə özlərini sülh danışıqlarında eyni statusda göstərməyə çalışır, guya, oxşar problem hər iki tərəfdə var. Bu, tamamilə yanlış və əsassız iddiadır.

**Ekspert rəyi**



**Elxan ŞAHİNOĞLU,**
**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi**

– Ermənistan konstitusiyasının dəyişdirilməsi yalnız Azərbaycanın tələbi deyil. Onların əsas qanununda həm də Türkiyəyə qarşı ərazi iddiaları var. Əgər rəsmi İrəvan səmimi şəkildə Azərbaycan və Türkiyə ilə münasibətlərini normallaşdırmaq istəyirsə, bütün hallarda konstitusiyasını dəyişməlidir. Bunu baş nazir Nikol Paşinyan da yaxşı anlayır və çıxışlarında dəfələrlə bəyan edib ki, reallığa uyğun hərəkət etməlidirlər. Baş nazir, doğrudan da, tarixi Ermənistanı real Ermənistandan ayrılması ilə razılaşırsa, bu halda konstitusiyaya dəyişiklik etməlidir.

Bildiyimiz kimi, Bakı hələlik bunu sülh sazişinin kəskin tələbi kimi irəli sürmür. Amma çərçivə sazişi imzalandıqdan sonra bu məsələyə qayıtmaq mümkündür. İndi Ermənistandakı iqtidar partiyası öz məntiqinə görə, eyni iddianı Azərbaycana qarşı irəli sürməyə başlayıb. Guya, Azərbaycan Konstitusiyasında da Ermənistana qarşı ərazi iddiaları yer alır. Bu, mümkün olan şey deyil. Çünki bizim kimi, Ermənistan və Gürcüstan da özlərini 1918-ci ildəki respublikalarının varisləri elan ediblər. Məsələnin digər tərəfinə gəldikdə, rəsmi İrəvanın bu məsələni xarici işlər naziri Ararat Mirzoyanın dili ilə qaldırmaqda məqsədi ictimaiyyəti bu yolla sakitləşdirməkdir. Yəni, görürsünüz, bizim də Azərbaycana qarşı iddia qaldırmağa cəsarətimiz çatır. Faydasız cəhdlərdir.

Hesab edirəm ki, sonda Nikol Paşinyan nəinki mövcud konstitusiyanı dəyişməyə, hətta yenisini qəbul etdirmək məcburiyyətində qalacaq. Azərbaycan Konstitusiyasında isə dəyişilməli heç bir müddəa yoxdur.

# İrəvan–Moskva ziddiyyəti və Qaluzinə qarşı “süngü ritorikası”

## Rusiya XİN başçısının müavini nələrdən danışdı və hansı cavabı aldı?

**Əslində, Rusiyanın Xarici işlər nazirinin müavini Mixail Qaluzinin TASS-a müsahibəsində Ermənistanla bağlı səsləndirdiyi fikirlər heç də yeni deyil. Qaluzin, ümumən, rus rəsmilərinin son vaxtlar dilə gətirdiklərini təkrarlayıb. Başlıca məqam bu təkrarlanmanın nə üçün indi səsləndirilməsindədir. Səbəb çox sadədir. Çünki Ermənistanda anti-Rusiya ovqatı hər gün daha çox güclənməkdədir.**



Baş nazir Nikol Paşinyan iqtidarı ölkədə davam edən “Vətən naminə Tavuş” hərəkatı fonunda Kremlə diş qıcadır. Ermənistan hakimiyyəti arxiyepiskop Baqrat Qalstanyanın başladığı hərəkatda, belə demək mümkünsə, şimal motivlərini qabardaraq, antipatiyanı dərinləşdirir. Elə Qaluzinin söylədiklərinin erməni hakim siyasi dairələrində süngü ilə qarşılanması da antipatiyanı diri saxlamaqdır. Bununla əlaqədar yazımızın sonunda. Hələlik isə...

M.Qaluzin bildirib ki, 2022-ci ildə rəsmi İrəvan Azərbaycanla sərhəddə vəziyyəti sabitləşdirmək üçün Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) vasitəsilə tədbirlər kompleksinin həyata keçirilməsi təklifinə razılaşsaydı, Ermənistanın bu gün üzləşdiyi risklərin bir çoxu azala bilərdi. Rusiya rəsmisinin nə demək istədiyi ortadadır. O, Ermənistan–KTMT ziddiyyətlərinin kəskinləşməyə başladığı zamandan danışır. Nəzərə alaq ki, 2022-ci ildə rəsmi İrəvan quruma rotasiya qaydasında sədrliyi həyata keçirmişdi. Baş nazir N.Paşinyan isə bu üstünlükdən istifadəyə can atmışdı, özü də cidd-cəhdlə.

Bəli, erməni hökumət rəhbəri KTMT-nin dövlət başçılarının 2022-ci ilin noyabrında İrəvanda keçirilmiş və Rusiya Prezidenti Vladimir Putinin də qatıldığı zirvə toplantısında qurumun Azərbaycana qarşı siyasi qərar çıxarmasına çalışmışdı. Daha doğrusu, Nikol Azərbaycan–Ermənistan şərti sərhədində sentyabrda yaşanmış eskalasiyaya münasibət bildirilməsini və Bakının hərəkətlərinin işğalçılıq kimi qiymətləndirilməsini tələb etmişdi.

Qeyd edək ki, Ermənistanın baş nazirinin istəyi KTMT üzvləri tərəfindən mənfi qarşılanmışdı. Məsələn, Belarus Prezidenti Aleksandr Lukaşenko söz alaraq Paşinyanı qurumun dövlət başçılarını uşaq yerinə qoymamağa çağırmışdı. Belarus lideri, həmçinin tam aydın şəkildə mesaj vermişdi ki, Azərbaycan–Ermənistan münasibətləri KTMT müstəvisində dəyərləndirilə bilməz, rəsmi İrəvan özü Bakı ilə dil tapmalıdır. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev isə bildirmişdi ki, Azərbaycanla Ermənistan arasında sərhəd dəqiqləşmədiyindən, KTMT-nin məsuliyyət zonası qeyri-müəyyəndir.

Ancaq sözügedən toplantı çərçivəsində İrəvana kömək məqsədilə addımların atılmasına cəhd göstərildiyini də yaddan çıxarmayaq. Bu baxımdan KTMT-nin hərbi missiyasının Azərbaycan–Ermənistan şərti sərhədində yerləşdirilməsi gündəliyi vurğulana bilər. Rusiya rəsmilərinin, o cümlədən, Xarici işlər naziri Sergey Lavrovun bu yaxınlaradək verdiyi açıqlamalardan belə qənaətə gəlmək mümkündür ki, İrəvan sammitində mövcud istiqamətdə XİN rəhbərləri səviyyəsində razılıq olub. Lakin sonradan baş nazir Paşinyan məsələyə etirazını bildirib. Qaluzin TASS-a müsahibəsində məhz həmin etirazdan da söz açıb.

Rusiya XİN rəhbərinin müavini vurğulayıb ki, Ermənistan KTMT-nin deyil, Avropa İttifaqının missiyasını üstün tutdu. Onun söylədiyində həqiqət payı var. Məsələ ondadır ki, 2022-ci ilin dekabrında Azərbaycan–Ermənistan şərti sərhədində Aİ-nin mülki müşahidə missiyası yerləşdirildi və hələ də fəaliyyətdədir. Əvvəl missiyanın qısamüddətli olacağı bildirilsə də, hazırda müşahidəçilərin ərazidə lövbər salmasının nə zaman başa çatacağı məlum deyil. Üstəlik, fəaliyyətə başlayanda cəmi 20 nəfərlik sayın 200-ü keçdiyi nəzərə alınmalıdır. Hələ müşahidəçilərin tərkibində fransız jandarmları və pensiyada olan alman polisləri də var. Habelə, hazırda müşahidəçilərin tərkibinə Skandinaviya ölkələrindən və Kanadadan da təmsilçilərin qatıldığı deyilir. Rusiya XİN rəhbəri S.Lavrov elə buna görə Aİ-nin missiyasını “NATO missiyası” adlandırmışdı. Qaluzin isə müsahibəsində Ermənistan rəhbərliyinin dövlətin sərhədlərini qorumayan, qeyri-ciddi müşahidəçiliyə üstünlük verdiyini qabardır. XİN rəsmisi deyir ki, KTMT məsələsində söhbət ciddi təşəbbüslərdən, o cümlədən, Ermənistana hərbi-texniki yardımdan, monitorinq missiyasının göndərilməsindən, sərhəd qoşunlarının hazırlanmasına köməkdən gedirdi.

Qeyd edək ki, Qaluzunin mövcud xüsusda vurğuladıqlarında ittiham motivi də var. O bildirir ki, Aİ-nin mülki missiyası monitorinq adı altında Azərbaycan, İran və Rusiyaya qarşı kəşfiyyat məlumatlarını toplamaqla məşğuldur. Hesab edirik ki, Rusiya rəsmisinin bu açıqlamasından sonra Aİ-nin müşahidə missiyasının fəaliyyətinə fərqli şəkildə nəzər salmaq lazımdır və şübhəsiz, nəzər salınacaq. Çünki Qaluzin, hər halda, havadan danışmır.



Əslində, Rusiya XİN rəhbərinin müavininin digər fikirlərinə də həssas yanaşılmalıdır. Məsələn, o bildirir ki, Ermənistanın addımları Moskva və KTMT-nin digər ölkələri ilə ümumi müdafiə məkanının yaradılması üzrə birgə fəaliyyətə qayıdılmasını mümkünsüzləşdirə bilər. Onun sözlərinə görə, İrəvan Qərbin təhlükəsizliyə daha çox maraq göstərdiyi şəraitdə onunla qarşılıqlı işbirliyini gücləndirmək fürsətindən yararlanır və bu, açıq-aydın duyulan reallıqdır. Qaluzinin fikrincə, Ermənistan hakimiyyətinin Qərbin milli məlumat bazalarına və təhlükəsizliyə dair həssas məlumatlara tam çıxışını təmin edəcək tələsik qərarları son nəticədə erməni dövlətinin suverenliyini təhdid altına alır. Nazir müavini, həmçinin rəsmi İrəvanın KTMT-nin işində tam şəkildə iştirakının, ilk növbədə, erməni xalqının maraqlarına cavab verdiyinə və Cənubi Qafqaz regionunda sülhün və sabitliyin qorunmasına xidmət etdiyinə əminliyini dilə gətirib: “İrəvanla getdikcə daha çox maraqlanan qərblilər nə vəd etsələr də, bu gün Ermənistanın təhlükəsizliyini təmin edən mexanizm kimi KTMT-yə effektiv alternativ yoxdur”.

KTMT-yə üzvlüyün, eləcə də Rusiya ilə hərbi sahədə sıx əlaqələrin son onilliklərdə müstəqil Ermənistanın mütərəqqi inkişafında əsas amilə çevrildiyini deyən Qaluzin onu da bildirib ki, Moskva Cənubi Qafqazda qonşuları arasında davamlı sülhün bərqərar olmasında maraqlı olsa da, Qərbin məqsədi tam əks niyyəti gerçəkləşdirməyə hesablanıb: “Əsas vəzifələrdən biri Avrasiyadakı inteqrasiya proseslərinə, bizim ümumi inteqrasiya layihələrimizə, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına, Müstəqil Dövlətlər Birliyinə, Avrasiya İqtisadi İttifaqına xələl gətirməkdir. Bunlar boğazda qalmış sümük kimidir”. Rusiya XİN rəhbərinin müavini vurğulayıb ki, həm Vaşinqton, həm də onun müttəfiqləri Qərbin öz məqsədlərinə çatması naminə istənilən addımı atmağa, o cümlədən, Rusiya və qonşu dövlətlərdə daxili siyasi və sosial-iqtisadi vəziyyətin sabitliyini pozmağa hazırdırlar.

M.Qaluzinin müsahibəsində dilə gətirdiyi bir məqam da var. O deyib ki, Ermənistan dövləti xarici işlər nazirliyi və müdafiə nazirliyi çərçivəsində Rusiya ilə əlaqələrə maraq göstərməyi dayandırıb və bu, Qərbin təzyiqinin nəticəsidir. “2023-cü ilin noyabrından bəri xarici işlər nazirlərinin görüşü olmayıb. Xarici işlər nazirlikləri arasında məsləhətləşmələr üçün başqa planın işlənib hazırlanması təklifimizə tərəfdaşlar (Ermənistan rəsmiləri – red.) maraq göstərmədilər. Müdafiə idarələri arasında əlaqələrin dinamikasının nəzərəçarpacaq dərəcədə azalması bizim günahımız deyil. Hərbi-texniki əməkdaşlıq da geriləyib. Biz bunu İrəvanı ölkəmizlə əlaqələri minimuma endirməyə məcbur etməyə çalışan qərblilərin təzyiqinin nəticəsi kimi görürük”, – deyən Rusiya rəsmisi əlavə edib ki, ölkəsi Ermənistan hakimiyyətinin problemli məsələlərin və qıcıqlandırıcı amillərin aradan qaldırılması istiqamətində işləmək barədə ictimaiyyətə açıqladığı niyyəti əməli tədbirlər ilə reallaşdırmaq naminə addımlar atacağına inanır.

M.Qaluzin, eyni zamanda, Moskva ilə İrəvan arasında ikitərəfli təmasların tam kəsilmədiyini də vurğulayıb. Bu baxımdan mayın 8-də Ali Avrasiya İqtisadi Şurasının növbəti iclası çərçivəsində Rusiya Prezidenti Vladimir Putinlə baş nazir Nikol Paşinyan arasındakı görüşü, Rusiyanın hazırkı baş naziri, o zamankı baş nazir müavini Mixail Mişustinin fevral ayında erməni həmkarı ilə təmasını xatırladıb. “Bizim ən mühüm nəticələrimiz ticarət-iqtisadi sahədədir”, – deyən Qaluzinin iqtisadi əməkdaşlıq üzrə ikitərəfli hökumətlərarası komissiyanın məhsuldar işlədiyini deməsi, Avrasiya İqtisadi İttifaqı çərçivəsindəki işbirliyindən söz açması Rusiyanın Ermənistanla körpüləri tam yandırmamaq istəmədiyinin göstəricisidir. Ancaq bu, qarşı tərəfdə adekvat qarşılanırmı? Ümumən, Kreml rəsmisinin söylədiklərinə İrəvanda münasibət necədir?

Əvvəldə bildirdik ki, M.Qaluzinin TASS-a müsahibəsində Ermənistanla bağlı səsləndirdiyi fikirlər ikinci tərəfindən süngü ilə qarşılanıb. Doğrudur, süngü ritorikasına üstünlük verənlər erməni rəsmiləri deyillər. Hərçənd, onların da vaxtilə hazırda Qaluzinin sadaladıqları məqamlar ilə əlaqədar əks– mövqe tutduqları məlumdur. Məsələn, ikincilər təxminən belə bir ritorik və ironik sual səsləndirirlər: Qaluzin Ermənistanın üzləşdiyi çoxsaylı risklər dedikdə, ölkəsinin Ermənistanda dövlət çevrilişi gerçəkləşdirmək və onu suverenlikdən məhrum etmək üçün daimi cəhdlərini nəzərdə tuturmu?

Bəli, Rusiya XİN başçısının müavininin dilə gətirdikləri Ermənistanda açıq şantaj kimi qiymətləndirilir. Mövcud xüsusda baş nazir Paşinyana yaxın “Telegram” kanalları pafosa üstünlük verərək yazırlar ki, erməni xalqı belə şantajların da öhdəsindən gələcək: “Rusiya rəhbərliyi başa düşmür ki, Ermənistanda hakimiyyət kriminal klanlara deyil, xalqa məxsusdur və xalq Rusiyanın öz marionetlərini lider kimi göndərməsi planı artıq işləməyəcək. Ermənistanda kimin hakimiyyətdə olub-olmamasına xalq qərar verir”.

Erməni “Telegram” kanalları Qaluzinin müsahibəsinə münasibət baxımından onu da bildirirlər ki, Rusiya rəhbərliyi hələ də Ermənistana xəyanət edəcəyinə, xalqı vətənindən məhrum salacağına və mövcud müstəvidə dividend qazana biləcəyinə inanır, təzyiq, şantaj, yalan və təhqirlər yaymaqla, özünü xilaskar kimi göstərməyə, minnətdarlıq və müttəfiqlik tələb etməyə çalışır. Erməni blogerlər, habelə, təkcə KTMT-nin deyil, Rusiyanın özünün də Ermənistan qarşısında götürdüyü müqavilə öhdəliklərini yerinə yetirməkdən imtinası ritorikasını qabardırlar. “Avropa İttifaqının müşahidəçilərinə gəlincə, onların sizdən fərqli olaraq, Ermənistan qarşısında heç bir öhdəliyi yoxdur” kimi fikirlər səsləndirən erməni hakim “Telegram” şəbəkəsi Rusiyaya xain damğası da vurmağı yaddan çıxarmır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

**Ermənistanda davam edən “Vətən naminə Tovuş” etiraz hərəkatının lideri Baqrat Qalstanyan artıq baş nazir Nikol Paşinyan hakimiyyətini siyasi səhnədən uzaqlaşdırıbmış kimi danışır. O, öz aləmində, keçid hökuməti də yaradıb və onun funksiyalarını açıqlayıb. Sən demə, bu hökumət cəmiyyətdə barışıq yaratmalı, xarici aləmlə münasibətləri tənzimləməli, ölkənin geosiyasətdəki durumunu möhkəmləndirməli və növbədənkənar seçkilərin təşkilini təmin etməlidir. B.Qalstanyanın fikirlərinə nəzər salanda, yada bir deyim düşür: qız evində toydur, oğlan evinin xəbəri yoxdur.**

# Paşinyanı devirmək niyə çətindir?

## Erməni müxalifətinin gücsüzlüyü

Çox güman ki, Tavuş arxiyepiskopu yaradacağı hakimiyyətdə vəzifələri də bölüşdürüb. Nə isə, məqsədimiz heç də din pərdəsi altında gizlənmiş şovinist Baqratın nə sərsəmlədiyinə diqqət yetirmək deyil. Ancaq fakt budur ki, onun başladığı hərəkat 2020-ci ilin 44 günlük müharibəsindən sonra Ermənistan iqtidarına qarşı yönəlmiş ən böyük etiraz aksiyasıdır. Hiss olunur ki, Paşinyana əks qüvvələr son güclərini ortaya qoyublar. Belə bir durumda, istər-istəməz, Ermənistanda hakimiyyət dəyişikliyi ilə bağlı ritorika aktuallaşmaya bilməz. Əlbəttə, məsələyə soyuq başla yanaşılmalıdır.



Nisbətən soyuq yanaşanlardan biri də siyasi ekspert Hovhannes Avetisyandır.

Beləliklə, H.Avetisyan bildirib ki, indiki şəraitdə müxalifətin mitinqlərinə 100 mindən çox insan toplaşsa da bu, Ermənistanda hakimiyyət dəyişikliyinə səbəb olmayacaq. Görəsən, politoloq nəyə görə belə düşünür? Axı 100 minlik say adi məsələ deyil. Həmin sayın, ən azından, üçə və dördə vurulma ehtimalına həssas yanaşılmalıdır.

H.Avetisyan bu ehtimalı inkar edərək bildirir ki, hər bir ölkədə hakimiyyətin bir neçə sütunu var. Bunlar polis və ordu, media, ictimai təşkilatlar və bürokratik sistemdir. Media amilinə diqqət yetirsək, deyə bilərik ki, erməni kütləvi informasiya vasitələrinin bir çoxu Paşinyana qarşıdır. Əlbəttə, baş nazirin əsas gücünün və elektoratının, həmişəki kimi, sosial şəbəkələrdə toplaşdığını nəzərə almalıyıq. Məhz buna görə erməni politoloq ümumən media, o cümlədən, sosial media amilinin Nikolun tərəfində olduğunu vurğulayır.

H.Avetisyan ordunun da Paşinyana qarşı çıxmadığını deyir. Ordunun və polisin. Polislə bağlı məsələ aydındır. Çünki Nikol ümumən hüquq-mühafizə sistemini, belə demək mümkünsə, özününküləşdirməyi bacarıb. Orduya gəlincə isə sahə baş nazirin yaralı yeri sayıla bilər. Çünki bu sistemdə keçmişin qalıqları toplanıblar və iqtidara qarşıdırlar. Ancaq onlar hərəkətə keçə bilmirlər. Sadə bir səbəbdən ki, ordu 44 günlük müharibə zamanı zərərsizləşib. Yəni, müharibədəki məğlubiyyət hərbi birləşmələri o qədər sarsıdıb ki, onların anti-iqtidar dirənişində boy göstərmələri mümkünsüzdür. Çox güman ki, Avetisyan məhz bu səbəbdən Paşinyana qarşı çıxa biləcək ordu amilini kənara qoyur.

İctimai təşkilatlar. Politoloq H.Avetisyan onların da baş nazirin tərəfində olduqlarını vurğulayır. Həqiqətən, Paşinyanın ən güclü olduğu sahələrdən biri ictimai sektordur. Məsələ burasındadır ki, Nikol özü də böyük hesabla həm medianın, həm də bütövlükdə ictimai sektorun doğurduğu siyasi məhsuldur. 2018-ci ildən indiyədək baş nazir sözügedən kəsimə münasibətdə səxavətli davranıb, onun fəaliyyətinin genişlənməsinə şərait yaradıb. Ən əsası isə beynəlxalq fondlar vasitəsilə ictimai sektorun maliyyələşməsinə əngəl törətməyib. Deməli, arxayın olmalıdır.

Digər tərəfdən, Ermənistanda ictimai təşkilatların xaricdən maliyyələşməsi, məsələn, Gürcüstanda olduğu kimi, hakimiyyətə qarşı çıxmaq məqsədi ilə aparılmır. Yəni, Nikol onsuz da Qərbin fiqurudur və Qərb öz adamını, eyni zamanda, ictimai sektoru güclü saxlamaqla qoruyub və mövcud tendensiya aktuallığını saxlayır.

Qalır H.Avetisyanın barəsində söz açdığı bürokratik sistem amili. Ermənistanda 2018-ci ilədək mövcud olan bürokratik sistem yalnız xalqı əzmək üzərində qurulmuşdu. Yəni, onun hansısa işlək mexanizmi yox idi. Buna ehtiyac duyulmurdu. Çünki sabiq xunta rejimi Rusiya tərəfindən dəstəklənirdi.

Paşinyanın hakimiyyətə gəlməsi ilə nəticələnmiş inqilab keçmiş prezident Serj Sarkisyanın rəhbərlik etdiyi bürokratiyanın özünün fərdi müqavimətinin olmadığını üzə çıxardı. Yəni, Sarkisyan kənardan dəstəyə arxalandı. Onun sisteminin Nikola qarşı müqavimət gücü olmadığından, iqtidar kənar dəstəyi tutarlı təsir alətinə çevirməyi bacarmadı. Yəni, kənar təsir mexanizmini hansısa adla işə salmaq mümkünsüzə çevrildi. Nəzərə alaq ki, Rusiya Sarksiyanı hakimiyyətdə saxlamaq üçün Ermənistana qoşun yeridəcək deyildi.

Bəli, indiki durumda Paşinyan, sanki, yenidən bürökratik sistem yaradıb. Daha doğrusu, otuz il ərzində faktiki mövcud olmayan idarəçilk vərdişlərini pis-yaxşı formalaşdırıb. 2018-ci ildən başlayaraq Ermənistanda monolit iqtidar komandası qurulub. Bu komanda çətinliklərə adekvat reaksiya verməyi öyrənib. Hətta, çətinliyi öz xeyrinə çevirmək kimi xüsusiyyət qazanıb.

Əlbəttə, mövcud durumda Nikola etirazını bildirən müxalifətin gücsüzlüyü üzərində də dayanmaq lazımdır ki, bunu politoloq H.Avetisyan edir. Ermənistandakı hazırkı əks– cinah təmsilçilərinin fəaliyyətlərində N.Paşinyana qarşı layiqli şəkildə çıxmaq potensialının istisna təşkil etdiyini vurğulayan siyasi ekspert nəticədə hakimiyyət daxilində parçalanmanın yaranmadığını diqqətə çatdırır. Yəni, o, demək istəyir ki, müxalifət güclü olmalıdır ki, hakim komanda pərən-pərən düşsün və bu yolla bürokratik sistem işləməsin. Reallıq budur ki, sistem zəif olsa da işləkdir.

Əlbəttə, erməni siyasi industriyasının bütün düşüncə subyektləri kimi H.Avetisyan da ifrata varmaqla məşğuldur. Məsələn, o bildirir ki, Ermənistandakı hazırkı iqtidarın siyasi səhnədə qalma bacarığındakı yenilik onun özünə kənardan dəstəkçi tapa bilməsidir. Kimlərdir həmin dəstəkçilər? Qəribədir ki, siyasi ekspert bu mənada Azərbaycan və Türkiyəni misal çəkir. “Biz toqquşan maraqların kəsişməsində yerləşən kiçik ölkə olduğumuzdan, regional güclərin də Ermənistana böyük təsiri var. Nikol Paşinyan Ermənistanda indiyədək müşahidə olunmayan bir şeyə nail ola bildi – Türkiyə və Azərbaycan onun dayağına çevrildi”, – deyən Avetisyan bunu nəzərə alaraq, müxalifətin fəaliyyətinin ikiqat yetərli olmadığı qənaətinə gəlir.

Nəhayət, H.Avetisyan onu da bildirir ki, Ermənistanda hakimiyyət dəyişikliyi N.Paşinyan iqtidarının güclü olduğuna yox, müxalifətin çox zəif duruma düşdüyünə görə mümkün deyil. Müxalifət isə əsasən keçmişin qalıqlarından formalaşıb. Xalq kütlələrində həmin qalıqlara münasibətdə ciddi antipatiya var. Böyük ölçüdə yanaşsaq, B.Qalstanyanın özü də rəğbət bəslənilməyən şəxsdir. Onun tapındığı dəyər olan erməni kilsəsi nüfuzdan düşmüş durumdadır.

Sonda bir məqamı da nəzərə almağa ehtiyac var. Məsələ ondadır ki, Ermənistan cəmiyyətindəki hazırkı siyasi təbəddülatların kökü 2020-ci ilin 44 günlük müharibəsinə gedib çıxır. O müharibəyə ki, orada Ermənistan acınacaqlı məğlubiyyətə uğradı. Məğlubiyyətin acısını bütün cəmiyyət çəkdi. İndi isə ölkədəki etiraz Azərbaycanla sülh prosesi üzərindədir. Yəni, etirazçılar sərhədlərin delimitasiyanın və demarkasiyasının ədalətli şəkildə aparılmadığını vurğulayırlar və mövcud səbəbdən hazırkı iqtidarın siyasi səhnəni tərk etməsinin zəruriliyini bildirirlər. Nəzərə alaq ki, Azərbaycanla sülhə qarşı çıxmaq Ermənistan üçün fəlakət perspektivi vəd edir. Bunu 44 günlük müharibənin acısını hələ də çiyinlərində daşıyan xalq yaxşı bilir. Nəticədə Paşinyan hakimiyyətinin devrilməsinə yönələn çağırışlara adekvat yanaşmır.

***R.ƏVƏZ***
***XQ***

# Azərbaycan qlobal enerji çağırışlarını təşəbbüskarlıqla cavablandırır

(əvvəli 1-ci səhifədə)

Yeri gəlmişkən, Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri 2007-ci ildə istismara verildi. Azərbaycan qazı, ilk dəfə olaraq, Türkiyənin və Gürcüstanın regional bazarlarına nəql edilməyə başladı. Bundan bir il əvvəl – 2006-cı ildə isə Xəzəri Aralıq dənizi ilə birləşdirən Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin tikintisi reallaşdı. Bütün bunlar neft-qazın beynəlxalq bazarlara çıxarılmasında yeni marşrut və mənbə kimi mühüm əhəmiyyətə malik idi.

Həmin vaxtdan etibarən, Bakı– Tbilisi–Ceyhan, ümumiyyətlə, Azərbaycanın bütün digər enerjinin nəql olunması infrastrukturu hər hansı bir fasilə olmadan istismar edilir. Bu, əlbəttə, proqnozlaşdırmanın, etibarlılığın və bu cür nəhəng, texniki və maliyyə baxımından çətin infrastruktur layihələrin icrasında ölkəmizin gücünün, bu sahədə qazanılan bilik və bacarığın təzahürüdür. Həmçinin bu layihələrin çox mürəkkəb siyasi mühitdə həyata keçirilməsi də xüsusi diqqət çəkir.

Prezident İlham Əliyev belə bir tarixi məqamla bağlı iyunun 4-də Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən sərgilərinin rəsmi açılış mərasimindəki çıxışında deyib: "Xəzər Neft və Qaz Sərgisi otuz il bundan əvvəl 1994-cü ildə fəaliyyətə başlayaraq, Azərbaycanın enerji sektoruna birbaşa xarici investisiyaların cəlb edilməsində mühüm rol oynamışdır. O vaxtdan bəri bu tədbir daha böyük tədbirə çevrilib və enerji siyasətinin bütün əsas seqmentlərini - neft, qaz, kəşfiyyat və hasilat, emal və nəqliyyatı və əlbəttə ki, yaşıl enerjini əhatə etdiyinə görə indi onun adı Bakı Enerji Həftəsidir".

Dövlətimizin başçısının vurğuladığı kimi, Bakı Enerji Həftəsi 30 il bundan əvvəl çox ağır bir ictimai-siyasi şəraitdə fəaliyyətə başladı. O zaman Azərbaycan müstəqillik yolunda ilk addımlarını atırdı və bu, çətinliklər, çağırışlar və faciəvi hadisələrlə dolu olan bir dövr idi. Bu, həm də elə bir zaman idi ki, Ermənistanın Azərbaycan torpaqlarına təcavüzü davam edirdi. Respublikamız doğma yurdundan qovulan məcburi köçkün seli ilə humanitar fəlakətlə üzləşmişdi. Əlbəttə, belə bir acınacaqlı siyasi, sosial-iqtisadi şəraitdən çıxmaq üçün ümid yalnız investisiyaların cəlb edilməsinə qalırdı. Prezident İlham Əliyevin yuxarıda sözü-




gedən çıxışında vurğuladığı kimi, həmin dövrdə investisiyaların cəlbi Azərbaycan üçün çox riskli hesab olunurdu. Bu, təkcə Birinci Qarabağ müharibəsi və işğalla bağlı deyil, həm də daxili münaqişələrdən irəli gəlirdi.

Bəli, həm vaxt ölkəmizdə dözülməz iqtisadi problemlər yaşanırdı, inflyasiya min faiz səviyyəsinə qalxmışdı, sənayedə dərin böhran yaşanırdı, təbii ki, bu enerji resurslarının (elektrik enerjisi və təbii qaz) çatışmazlığında da özünü göstərirdi.

Ümummilli lider Heydər Əliyevin yenidən Azərbaycan rəhbərliyinə dönüşü ilə vəziyyət tədricən dəyişməyə başladı. Həyatın bütün sahələrində dərin islahatlara start verildi, iqtisadiyyatın ən cəlbedici sektoru olan enerji sektoruna investisiyaların qoyuluşu diqqət mərkəzində saxlanıldı.

İnvestisiyaların qoyuluşundan bəhs edərkən Prezident İlham Əliyevin Bakı Enerji Həftəsi çərçivəsində keçirilən sərgilərin rəsmi açılış mərasimindəki çıxışından bir məqamı xatırlatmaq yerinə düşərdi: "Birinci Xəzər Neft və Qaz Sərgisinin keçirilməsindən bir neçə ay sonra – 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Bu da ölkənin transformasiyasında dönüş nöqtəsi oldu. Biz investorlarımızla çox məhsuldar münasibətlər qura bildik. Məhz bunun nəticəsidir ki, BP şirkəti otuz ildir bizim strateji tərəfdaşımızdır və bundan sonra da ən azından otuz il ərzində strateji tərəfdaşımız olaraq qalacaq. 1994-cü ildə Birləşmiş Krallıqdan BP və ABŞ-dan "Amoco" beynəlxalq neft şirkətləri konsorsiumuna rəhbərlik edirdilər və onlar bizə etibar etdilər".

Beləliklə, həmin vaxt investorların Azərbaycana ciddi maraq göstərmələri, əslində, mövcud siyasi rəhbərliyə və xalqa olan etibarından irəli gəlirdi. SOCAR və yaradılmış konsorsium arasında çox etibarlı əməkdaşlın mövcudluğu da bunun bariz ifadəsi idi.

Qeyd edək ki, o zaman 3 il müddətində "Çıraq" platformasından ilk neft hasil olundu. Daha sonra Qara dəniz limanlarına gedən iki boru xətti istismara verildi. 1999-cu ildə onların hər ikisi artıq işlək idi. Sonra çox çətin relyef şəraitində və region ölkələrinin və şirkətlərinin güclü əməkdaşlığı ilə uzunluğu 1700 kilometrdən artıq olan Bakıdan Ceyhana gedən əsas neft ixrac boru kəməri ərsəyə gəldi.

Xatırladaq ki, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Dərinsulu Günəşli" (AÇG) yataqlar blokunda yerləşən "Çıraq" platforması istismara verilərdən indiyədək burada 100 milyon tondan artıq neft və 20 milyard kubmetrdən çox qaz hasil olunub.

AÇG blokundan ilk neft 1997-ci ilin noyabrında "Çıraq" yatağından əldə edilib. Bakıdan təxminən 100 kilometr şərqdə yerləşən "Azəri-Çıraq-Dərinsulu Günəşli" Xəzər dənizinin Azərbaycan sektorunda ən iri neft-qaz yataqlar bloku hesab olunur. 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanan zaman buradakı ehtiyatlar 511 milyon ton həcmində təxmin edilirdisə, sonradan bu göstərici 1 milyard 72 milyon ton proqnozlaşdırılıb.

Bax, "Çıraq" platformasından ilk neft hasil olunması, Bakıdan Ceyhana gedən əsas neft ixrac boru kəmərinin ərsəyə gəlməsi Azərbaycan iqtisadiyyatını dirçəltdi, Azərbaycan özünü artıq etibarlı tərəfdaş kimi sübut etməyə başladı və iqtisadiyyatın müxtəlif sahələrinə, eləcə də enerji sektoruna əlavə investisiyalar yatırıldı.

"Əsrin müqaviləsi" imzalanandan sonra reallaşdırılan bir sıra neft və qaz layihələri bu gün bərpaolunan "yaşıl enerji" təşəbbüsləri ilə uğurla davam etdirilir. BƏƏ-nin "Masdar" şirkəti tərəfindən inşa ediləcək üç günəş və külək enerjisi elektrik stansiyalarının təməlqoyma mərasiminin keçirilməsi də bunun bariz ifadəsidir. Bu, Azərbaycanın və onun beynəlxalq tərəfdaşlarının qazıntı yanacağından bərpaolunan enerji resurslarına transformasiyasını nümayiş etdirir və qazıntı yanacağının uzun illər ərzində təkcə ölkəmiz üçün yox, həm də respublikamızın tərəfdaşları üçün mühüm önəm daşıyır.

Prezident İlham Əliyev Bakı Enerji Həftəsi çərçivəsində keçirilən tədbirdəki çıxışında deyib: "Bu gün həqiqətən də əlamətdar gündür. Bakı Neft və Qaz Sərgisində qaz müqaviləsinin imzalanmasından 28 il sonra, 1 qiqavat həcmində bərpaolunan enerji ilə bağlı artıq imzaladığımız müqavilələr nəticəsində bu gün təməlqoyma mərasimi baş tutacaqdır. Artıq qeyd etdiyim kimi, bu, sadəcə, başlanğıcdır, çünki potensialımız nəhəngdir. Bizim tərəfdaşlarımız qlobal səviyyədə aparıcı şirkətlərdir və dediyim ki, "Masdar" yaşıl enerjiyə keçid sahəsində ən öndə gedən şirkətdir.

Hesab edirəm ki, BƏƏ-dən bir il sonra Azərbaycanın COP29-a ev sahibliyi etməsi heç də təsadüf deyil. BƏƏ-nin bizə ötürdüyü miras olduqca dəyərlidir. Birincisi, mən dostum nazir Sultan əl-Cabiri təbrik etmək istəyirəm və salamlarımı qardaşım, BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zahid Əl-Nəhyana çatdırmağı xahiş edirəm. Həmçinin COP istiqamətində irəlilədiyimiz bu mürəkkəb yolda qardaşımın dostluğuna, tərəfdaşlığına və dəyərli tövsiyələrinə görə təşəkkürümü bildirirəm".

Yeri gəlmişkən, ötən ilin oktyabrında "Masdar" şirkəti 230 meqavat gücündə günəş elektrik stansiyasını istifadəyə verib. İndi isə daha 1 qiqavat enerji həcmi əlavə edilib. Hazırda iki layihə işlənilməkdədir, onlardan biri inşaat mərhələsindədir, digərinin tikintisi isə tezliklə başlanacaq. Bununla da Azərbaycanın bərpaolunan enerji potensialı 2 qiqavata yaxın olacaqdır. Bura təkcə günəş və külək enerjisi daxildir. Qarabağ və Şərqi Zəngəzurda hidroelektrik stansiyalarla bağlı görülən işlər də əlavə olunarsa, 2027-ci ilədək 2 qiqavat həcmində bərpaolunan enerjinin əldə edilməsinin tamamilə real hədəf olduğu bir daha təsdiqlənir.

Prezident İlham Əliyev çıxışlarında enerji təhlükəsizliyinin Azərbaycanın milli təhlükəsizliyinin ayrılmaz hissəsi olduğunu dəfələrlə vurğulayıb. Bakı Enerji Həftəsi çərçivəsində keçirilən tədbirdəki çıxışında isə bu fikrə əlavə olaraq bildirib ki, idxaldan asılı olan ölkələr, əlbəttə ki, ən etibarlı və uzunmüddətli tərəfdaşlar və müqavilələr axtarır. Onlar Azərbaycanın simasında məhz bunu əldə edirlər. Bizim sözümüz imzamız qədər dəyərlidir. Son 30 il ərzində imzalanmış bütün müqavilələr tam şəkildə icra olunub. Onların hamısı parlament tərəfindən ratifikasiya olunub və qanun şəklində imzalanıb. Orada bir söz belə dəyişilməyib. Bu etibar onilliklər ərzində qazanılıb. Bunun nəticəsidir ki, biz bu gün bərpaolunan enerji sahəsində növbəti sürətli inkişafın şahidiyik.

**Vaqif BAYRAMOV**
**XQ**

---

(əvvəli 1-ci səhifədə)

# Türkiyənin BRICS-ə qoşulması Anadoluya nə vəd edir?

Qeyd edək ki, BRICS təşkilatı 2006-cı ilin iyununda Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu çərçivəsində Braziliya, Rusiya, Hindistan və Çinin iqtisadiyyat nazirləri tərəfindən yaradılıb. Sonradan onun sıralarına Cənubi Afrika Respublikası da qoşulub. Təşkilatın abbreviaturası özündə Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika Respublikası sözlərinin ingiliscə yazılışının baş hərflərini ehtiva edir.

BRICS ölkələri arasında ikitərəfli münasibətlər əsasən bir-birinin daxili işlərinə müdaxilə etməmək, bərabərlik və qarşılıqlı faydalılıq əsasında qurulub. 2009-cu ildən etibarən BRICS ölkələrinin hökumətləri hər il rəsmi sammitlərdə görüşürlər. Sayca 15-ci olan sonuncu sammit 2023-cü il avqustun 22-24-də Cənubi Afrika Respublikasında baş tutub. Zirvə görüşləri ilə yanaşı, xarici işlər, maliyyə nazirləri və digərləri səviyyəsində də görüşlər keçirilir.

Uzun müddət ərzində qurumun üzvlərinin sayı sabit qalıb. Sonradan isə dünyanın müxtəlif qitələrində yerləşən ölkələrin təşkilata marağı artmağa başlayıb. 2023-cü ilin avqust ayına olan məlumata görə, 40 ölkə BRICS-ə qoşulmaqda maraqlı olduğunu bildirib, onlardan 20-yə yaxını rəsmi olaraq qəbul üçün müraciət edib. 2023-cü ilin avqustunda keçirilən sammitdə İran, Səudiyyə Ərəbistanı, Misir, Argentina, Efiopiya və Birləşmiş Ərəb Əmirliklərinin 2024-cü il yanvarın 1-dən etibarən BRICS-ə tamhüquqlu üzv kimi qoşulmağa dəvət olunduğu elan edilib. Ancaq Xavyer Miley Argentinada hakimiyyətə gəldikdən sonra Buenos-Ayres BRICS-ə qoşulmaqdan imtina edib. Beləliklə, 2024-cü il yanvarın 1-də dəvət olunmuş beş ölkə BRICS-ə qoşulub. Ancaq 2024-cü il yanvarın 16-da Səudiyyə Ərəbistanının hələlik rəsmən təşkilata üzv olmadığı məlum olub. Bu isə o deməkdir ki, hazırda təşkilatın təsisçiləri ilə birlikdə 9 üzvü var.

Birliyin yaradıcıları olan dörd dövlət – Rusiya, Çin, Hindistan və Braziliya əhali, ərazi və ümumi daxili məhsulunun həcmi baxımından dünyanın on ən böyük ölkəsi sırasındadır. BRICS ölkələrinin ümumi ərazisi 45 milyon 726 min kvadratkilometr və ümumi əhalisi təqribən 3,41 milyard nəfərdir. Bu isə dünyanın quru səthinin təxminən 26,7 faizi və dünya əhalisinin 41,6 faizi deməkdir. BRICS üzvləri dəfələrlə ən sürətlə böyüyən böyük ölkələr kimi səciyyələndirilib. Dün-



ya iqtisadiyyatının 25 faizi təşkil edən, dünya üzrə faydalı qazıntı yataqlarının 60 faizinə sahib olan və planetin taxıl istehsalının 40 faizini öz əlində cəmləşdirən BRICS ölkələri son illərdə dünya iqtisadiyyatının nizamını dəyişmək üçün müəyyən cəhdlər ediblər. Bu addımların ən mühümü 2015-ci ildə Şanxayda Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika Respublikasının birgə təsis etdiyi Yeni İnkişaf Bankının (NDB) işə salınması olub.

Türkiyənin təşkilata qoşulmaq niyyətinə gəldikdə isə qeyd etmək lazımdır ki, bu məsələ xeyli vaxtdır gündəmdədir. Hələ 2018-ci il iyulun 25-27-də təşkilatın Cənubi Afrika Respublikasının İohannesburq şəhərində keçirilən X Zirvə görüşünün xüsusi dəvət edilmiş qonağı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan olmuşdu. Zirvə görüşündə çıxış edən Türkiyə Prezidenti ölkəsinin BRICS-ə üzv olmaq istəyindən danışmış və birliyin adının dəyişdirilməsini təklif etmişdi: "Əgər bizi üzvlüyə qəbul etsəniz, qrup BRICST adlanacaq". O, həmçinin əlavə etmişdi ki, Çin xüsusilə qrupun genişləndirilməsinin tərəfdarıdır.

Rusiya Prezidenti Vladimir Putin isə həmin vaxt bildirmişdi ki, Ankara 2022-ci ildə BRICS-ə qoşula bilər. Bu mənada güman etmək olar ki, BRICS üzvləri Türkiyənin təşkilata qoşulmasına etiraz etməyəcəklər. Bölgədə əhəmiyyətli rola malik Türkiyənin BRICS-ə üzvlüyü isə təşkilatın gücünü artıracaq. Əlbəttə, ABŞ və Aİ bu zaman Ankaranın qərarından narazı qalacaqlar. Ancaq buna görə onların Türkiyəni qınamağa mənəvi haqları yoxdur. Əgər Türkiyə Aİ-yə üzvlüyə qəbul olunsaydı, Ankaranın başqa təşkilatlara üzvlük üçün müraciət etməsinə ehtiyac qalmazdı. Türkiyə hazırda xarici siyasətini şaxələndirməyə çalışır. Bu baxımdan Ankaranın BRICS-ə qoşulması da Qərbdə anlayışla qarşılanmalıdır.

Eyni zamanda, BRICS-ə üzvlük Türkiyənin Qərblə əməkdaşlıqdan imtina etməsi anlamına gəlmir. Aydındır ki, BRICS üzvlərindən Rusiya və Çin təşkilat çərçivəsində ABŞ və Avropa ilə mübarizə aparmaq istəyirlər. Ancaq BRICS-in digər üzvləri olan Hindistan, Cənubi Afrika Respublikası və Braziliya Moskva və Pekinin siyasətindən asılı deyillər. Onlar Vaşinqton və Brüssellə əməkdaşlığa davam edirlər. Türkiyə də BRICS çərçivəsində çoxtərəfli xarici siyasətində manevr imkanlarını artırmağa çalışacaq.

**Türkiyəli politoloq, Ankara Universitetinin professoru Toğrul İsmayıl** qardaş ölkənin BRICS-ə üzv olmaq niyyəti ilə bağlı deyib ki, iqtisadiyyatı ildən-ilə sürətlə inkişaf edən dövlətlərin bir araya gəlib alternativ yaratması baxımından BRICS böyük əhəmiyyət kəsb edir. Onun sözlərinə görə, son illərdə sürətlə inkişaf edən Türkiyəyə BRICS-ə üzvlük təklifi çox təbii və gözlənilən idi: "Türkiyə dünya miqyasında söz sahibi olan ölkələr arasında olmaq üçün ciddi səy göstərir. Digər tərəfdən xarici siyasətin şaxələndirilməsi sahəsində alternativlər ortaya qoymağa çalışır. Üstəlik, Türkiyə BRICS-ə üzv olan hər bir ölkə ilə yaxşı əlaqələr qurmaq üçün fəaliyyət göstərir".

T.İsmayıl onu da qeyd edib ki, Türkiyə artıq müxtəlif ölkələrlə öz valyutaları ilə ticarət etməyə çalışır. Rusiya ilə də rubl və ya türk lirəsi ilə ticarət etmək üçün danışıqlar aparır. Çinin də yerli valyuta ilə ticarət etmək istəyi var. Bu təşəbbüslər



Türkiyənin əlini daha da gücləndirir. Politoloq hesab edir ki, Türkiyənin bu alternativləri qiymətləndirməsi doğru addımdır.

Türkiyənin maraq göstərdiyi təşkilata Azərbaycanda da münasibət müsbətdir. BRICS təşkilatının elan etdiyi prinsiplər ölkəmizin xarici siyasət kursu ilə üst-üstə düşür. Azərbaycan da dünya ölkələri ilə münasibətlərini ərazi bütövlüyünə, suverenliyə hörmət, bir-birinin daxili işlərinə qarışmamaq kimi beynəlxalq hüququn əsas prinsipləri üzərində qurur. Ölkəmiz qlobal sülh və təhlükəsizliyə daim öz töhfəsini verib. Xarici siyasətimizin humanitar ölçüsünə baxdıqda isə son illərdə keçirilmiş tədbirlərin böyük əhəmiyyət kəsb etdiyini görmək olar. Azərbaycan indiyədək 30-dan çox ölkəyə 330 milyon dəyərində humanitar yardım göstərib. Bu gün isə iqlim dəyişikliyi ilə mübarizədə aktiv iştirak edir. Bütün bunlar BRICS təşkilatının elan etdiyi dəyərlərlə üst-üstə düşən məqamlardır.

Onu da bildirək ki, 2024-cü il aprelin 8-də Bakıda "Azərbaycan və BRICS: imkanlar və perspektivlər" adlı tədbir keçirilmişdi. Tədbirdə "Azərbaycan xarici siyasətində BRICS-in yeri" mövzusunda çıxış edən Xarici İşlər Nazirliyinin təhlil və strateji araşdırmalar idarəsinin rəisi Mahir Qasımov bildirmişdi ki, ölkəmiz BRICS-in fəaliyyətini yaxından izləyir. Onun sözlərinə görə, biz BRICS üzvləri ilə fəal əməkdaşlıq edirik. BRICS-in üzv dövlətləri böyük əmək bazarına, təbii resurslara malikdirlər. BRICS üzvləri BMT Təhlükəsizlik Şurası, G20 və Şanxay Əməkdaşlıq Təşkilatı kimi böyük təşkilatların da üzvləridir. Bu gün bir sıra dövlətlər BRICS üzvlüyünə maraq göstərirlər. Bunlar təşkilatın beynəlxalq münasibətlər sistemindəki çəkisindən xəbər verir. 2009-cu ildə BRICS-in ilk zirvə toplantısı keçiriləndə qəbul edilən birgə bəyanatda göstərilmişdi ki, beynəlxalq təhdidlərlə mübarizədə çoxtərəfli diplomatiyaya üstünlük verilir. BRICS sənədlərində həmrəylik, qarşılıqlı hörmət çərçivəsində əməkdaşlıq təşviq olunur. Ərazi bütövlüyü, suverenliyin toxunulmazlığı kimi məsələlər BRICS sənədlərində xüsusi vurğulanır. Siyasi və təhlükəsizlik, maliyyə və iqtisadiyyat, eləcə də mədəni və xalqlar arasında münasibətlər kimi üç istiqamət BRICS çərçivəsində əsas istiqamətlərdir.

Həmçinin, bildirək ki, 2024-cü ildə BRICS-ə üzv olmaq üçün daha bir qardaş ölkə – Pakistan da müraciət edib. Pakistanın Moskvadakı səfiri Məhəmməd Xalid Camal bildirib ki, İslamabad hazırda bu məsələdə Rusiyanın dəstəyinə ümid edir. Beləliklə, həm strateji müttəfiqimiz Türkiyənin, həm də Pakistanın üzvlüklə bağlı müraciətləri müsbət həllini tapdıqdan, onların əldə edəcəyi faydaları gördükdən sonra ölkəmizin də təşkilatla əməkdaşlığı daha üstün səviyyəyə qalxa bilər.

**Səxavət HƏMİD**
**XQ**

# Regional təhlükəsizlik Azərbaycan multilateralizmi kontekstində



VI MƏQALƏ

### II Dünya müharibəsi və II Qarabağ savaşı

Azərbaycan çox həssas və tarixən mürəkkəb və bir neçə güclü dövlətin rəqabət məkanı olan Cənubi Qafqaz dövləti kimi uğurlu multilateral model müəyyən edə bilmişdir. Əvvəlki məqalələrdə vurğuladığımız kimi, onun bir sıra müəyyənedici faktoru olmuşdur. Bu sırada enerji strategiyası və onun ilk layihəsi olan "Əsrin müqaviləsi", düzgün milli ideyanın müəyyənləşməsi, daxili "multilateralizm" (multikulturalizm – azərbaycançılıq + sosial-hüquqi dövlət), əməkdaşlıq formatlarının qarşılıqlı əlaqəsi, milli-regional-regionlararası miqyaslarda faydalı əməkdaşlığın milli təhlükəsizliklə üzvi bağlanması, geniş geosiyasi məkanda konstruktiv fəaliyyət (həm ayrıca müstəqil dövlət, həm də regional təşkilatlanma çərçivəsində) xüsusi rol oynamışdır.

Son illər bu proses özünün yeni keyfiyyət səviyyəsinə yüksəlmişdir. Onun başlıca təkanverici və istiqamətverici faktoru isə II Qarabağ savaşındakı möhtəşəm Qələbə olmuşdur. Məhz bu hadisə həm Azərbaycanı müstəqil dövlət kimi vacib geosiyasi mövqeyə çıxarmış, həm də Cənubi Qafqazın geosiyasi anatomiyasını yeniləmişdir. Bunun əsas əlaməti isə faktiki olaraq postmüharibə dövrünün başlamasıdır.

Deməli, Azərbaycan multilaterallığının reallığı, işlək olması və müsbət nəticələr verməsi prosesində II Qarabağ savaşının ayrıca yeri və rolu vardır. Bu hadisə Azərbaycanda və xaricdə siyasi, elm və KİV dairələrində müxtəlif aspektlərdən araşdırılır. Müşahidələr göstərir ki, dünya miqyasında II Qarabağ savaşının geosiyasi, siyasi, energetik, iqtisadi, hərbi, təhlükəsizlik və çoxaspektli əlaqələrin inkişafı baxımından əhəmiyyəti xüsusi vurğulanır.

Əlbəttə, 44 gün davam edən ərazi bütövlüyünü bərpaetmə əməliyyatının qlobal miqyasda bu dərəcədə güclü təsirə malik olması sadə izah oluna bilən məsələ deyildir. Deyək ki, II Dünya müharibəsi dünyanın ən güclü dövlətlərini də əhatə edirdi və o bitəndən sonra dünyanın geosiyasi siması dəyişdi. Və yaxud sovetlərin dağılması ilə eyni zamanda, bir neçə dövlət müstəqil oldu və bununla dünyanın geosiyasi dinamikası ciddi yeniləşməyə məruz qaldı.

Miqyaslarındakı fərqə baxmayaraq, II Dünya müharibəsi ilə II Qarabağ savaşının hərbi hadisə kimi məqsədi oxşardır – hər iki müharibə ərazilərin işğaldan azad olunması uğrunda aparılmışdır. II Dünya müharibəsi SSRİ və Avropanı faşizm işğalından xilas etdi. II Qarabağ savaşı Azərbaycanın Qarabağ bölgəsini erməni işğalından qurtardı. Ancaq II Qarabağ savaşında Ermənistanın arxasında dünyanın bir sıra güclü dövlətləri də dayanmışdılar və bu mənada genişmiqyaslı idi. Ermənistana dəstək kimi, həmin savaşa Rusiya, Almaniya, Fransa, İran, ABŞ və digər dövlətlər müxtəlif aspektlərdə feili olaraq qatılmışdılar. Azərbaycana siyasi, mənəvi, diplomatik və geosiyasi dəstəyi Türkiyə, Pakistan və İsrail verirdi. Yəni II Dünya müharibəsi miqyasında olmasa da, müəyyən mənada II Qarabağ savaşı qlobal gücləri cəlb etmişdi.

Bundan başqa, II Qarabağ savaşının geosiyasi, energetik, geoiqtisadi və təhlükəsizlik təsirləri bütün dünyada hiss olundu. Buna görə də II Qarabağ savaşı da və onun nəticələri hələ uzun müddət fəlsəfi və siyasi-nəzəri tədqiqatların aktual mövzularından olacaqdır. Biz indi bu müharibənin Azərbaycan multilaterallığına verdiyi töhfənin fəlsəfəsi üzərində dayanacağıq.

### Ərazi bütövlüyü və suverenlik multilateral faktorlar kimi

Müstəqil dövlətin real olaraq multilateral siyasət yeritməsi üçün hər şeydən öncə, buna resurları olmalıdır. O sırada müasir dövlətçilikdə ərazi bütövlüyü və suverenlik ön plandadır. Çünki multilaterallıq çoxaspektli və faydalı beynəlxalq əlaqələri nəzərdə tutursa, təşəbbüskar həqiqi anlamda müstəqilliyin bütün kriteriyalarına cavab verən və konkret gücü olan dövlət olmalıdır. 2020-ci ilin sentyabrına qədər Azərbaycanın torpaqları işğal altında olduğundan regional və qlobal miqyasda onun nəticəverici çoxaspektli əlaqələr qura bilmək qüdrətində olmasına əminlik yox idi.

Daha doğrusu, rəsmi Bakının müxtəlif istiqamətlərdə həyata keçirdiyi uğurlu layihələrin beynəlxalq miqyasda etibarlılıq və qətiyyətlilik təsdiqi gərək idi. Yəni dövlətlər əmin olmalı idilər ki, bu qədər uğurlar əldə edən bir Cənubi Qafqaz ölkəsi regional və qlobal sülh, əməkdaşlıq və təhlükəsizliyə təsirli dəstək verəcək. Bundan başqa, həmin dövlət bütün bu geosiyasi-təhlükəsizlik xarakterli mənzərənin yaradıcısı və təminatçısı olacaq! Məhz bu mənada ərazi bütövlüyü və tam suverenlik həlledici multilateral faktorlar rolunu oynadılar!

Asiya multilaterallığından Azərbaycan nümunəsinin başlıca fərqi bundan ibarətdir. Azərbaycan II Qarabağ savaşında ərazisini işğalçıdan təmizləməklə sübut etdi ki, regionda sülhü, ədaləti və təhlükəsizliyi təmin etməyə qadirdir. Bura təbii ki, iqtisadi, energetik, nəqliyyat, loqistika üzrə əməkdaşlıq təminatı da daxildir. Müharibənin gedişi zamanında belə, Azərbaycan Prezidenti müxtəlif əməkdaşlıqların perspektivini izah edirdi və aparılan hərbi əməliyyatların əsl amacının həmin istiqamətdə imkanlara yol açılmasından ibarət olduğunu vurğulayıdı. Bununla da II Qarabağ savaşı başa çatanda artıq dünya dövlətləri Azərbaycanın real multilateral fəaliyyət göstərə biləcəyinə əmin oldular. Həm də həmin müddətdə Azərbaycanın müxtəlif əməkdaşlıq formatları və layihələri bir an olsa belə dayanmadı, işlək oldu.

Bu prosesə ən çox müqavimət göstərməyə çalışan Qərbin inkişaf etmiş dövlətləri oldular. Onlar inkarçılıqdan təzyiqlər mərhələsinə keçməyə cəhd etdilər. Yəni faktiki olaraq Azərbaycan həm işğalçı ilə hərb meydanında savaşırdı, həm də multilateral fəaliyyətin əsas istiqaməti olan Qərb dövlətləri ilə informasiya mücadiləsi verərək, baş verənlərin bütövlükdə dünyanın xeyrinə olduğuna inandırmağa çalışırdı. Əlbəttə, bu, Azərbaycan Prezidenti üçün asan mübarizə deyildi. Lakin İlham Əliyev məharətlə bu vəzifənin öhdəsindən gəldi və bununla obrazlı desək, həm də Azərbaycanın çoxaspektli beynəlxalq əməkdaşlıq kursunu xilas etdi. Çünki Azərbaycan heç bir Avropa ölkəsi ilə təxribatlara baxmayaraq, əməkdaşlığı dayandırmadı. Yalnız Fransa müharibədən sonra çox canfəşanlıq etdiyindən onunla sərt danışıldı. Bunun fonunda ABŞ və Avropadan olan əsassız ittihamlara görə rəsmi Bakı seçdiyi əməkdaşlıq və multilaterallıq yolundan dönmədi. Bu da liderdən güclü zəka və siyasi iradə tələb edirdi. Hadisələri strateji olaraq düzgün proznozlaşdırmaq qabiliyyəti lazım idi.

Belə çıxır ki, geniş anlamda Azərbaycan multilaterallıq kursu II Qarabağ savaşında yeni bir ciddi sınaqdan keçmişdir. Sonrakı proseslər göstərdi ki, məsələ bununla bitməmişdir. Çünki postmüharibə mərhələsində fərqli formada Azərbaycanın fəaliyyətinə kölgə salmağa çalışanlar dinc durmadılar. Bəlkə də müharibə dövrü qədər postmüharibə dövrü üçün çoxtərəfli əlaqələrin inkişafı əhəmiyyətlidir. Çünki postmüharibə dövrü o zaman tam səmərəlidir ki, keyfiyyətcə yeni geosiyasi nizam yaranması istiqamətində ardıcıl fəaliyyət olur. Bu baxımdan Azərbaycan multilateralizminin postmüharibə mərhələsi ayrıca əhəmiyyət daşıyır.

### Postmüharibə mərhələsində multilaterallıq

Əgər Ermənistanla birbaşa hərb meydanında savaş zamanı böyük dövlətlər gizli formada və çox da geniş olmayan miqyasda təcavüzkara dəstək verirdilərsə, postmüharibə mərhələsində situasiya köklü olaraq dəyişdi. Belə ki, bir sıra güclü dövlətlər açıq şəkildə və təxribatçı formada Azərbaycanın qarşısını kəsməyə girişdilər. Fransanın canfəşanlığını yuxarıda vurğulamışıq.

Bundan başqa, ABŞ, Almaniya, İran, Hindistan və digər böyük dövlətlər hiyləgər formada və diplomatik üsullarla rəsmi Bakının haqsız olduğu görüntüsünü yaratmağa başladılar. Onlar bu mübarizəyə özlərindən razı və Azərbaycandan qat-qat güclü dövlət olmalarına tam əminliklə başladılar. Buna görə də işğalçı Ermənistana böyük vədlər verməklə Azərbaycana barmaq silkələməyi uyğunlaşdırırdılar.

Xüsusilə İran sərhədlərimizin yaxınlığına hərbi texnika yığır və təlimlər keçirirdi. Fransa və Almaniya isə avropasayağı "sülhpərvər" kimi "mülki missiya", "insan haqları", "kommunikasiyaların açılması", "ermənilərin sərbəst gediş-gəlişləri"nin təmini, "humanitarlıq" və s. kimi təmtəraqlı cümlələr qururdular. Onlara elə gəlirdi ki, Azərbaycan bu cür böhtanlara baş əyəcək və təzyiqlər qarşısında mövqeyindən çəkiləcək. Lakin Azərbaycan Qarabağda təbii rersurslardan qanunsuz və ekoloji qaydalara əməl etmədən istismarla məşğul olanları ifşa edəndə anladılar ki, yanılmışlar. Azərbaycan uzun sürən mübarizədə bu məsələdən də qalib ayrıldı. Paralel olaraq, digər istiqamətlərdə uğurlu proseslər getdi.

Azərbaycan qısa müddətdə – bir sutkada, ərazisini işğalçılardan təmizlədi və tam suverenliyə qovuşdu. Bu hadisə multilaterallıqda tarixi dönüş nöqtəsi idi. İlk dəfə anladılar ki, Azərbaycanla siyasi-diplomatik sferada da bacara bilmirlər. Prezident İlham Əliyev tam haqlı və çox güclüdür. Çox maraqlıdır ki, Azərbaycan Avropadan təzyiq görəndə də enerji, nəqliyyat və logistika istiqamətlərində Aİ ilə əməkdaşlığı inkişaf etdirdi. Bu, əsl multilateral yanaşma idi. Azərbaycan tam əmindir ki, yalnız qarşılıqlı faydalı" qazan-qazan" prinsipi real olaraq sülh, barış, əməkdaşlıq və təhlükəsizlik yarada bilər. İlham Əliyev bu məsələdə də haqlı çıxdı və qalib gəldi!

### Yekun

Əslində, multilaterallığın yekunu yoxdur – o, davamlı prosesdir. Biz burada II Qarabağ savaşı ilə postmüharibə dövrünün Azərbaycanın multilateral xarici siyasət kursunun iki mühüm faktoru olması ilə bağlı sübutlarımızın yekunundan bəhs edirik. Və təhlilin başlıca tezisinə gəlib çıxırıq. Yəni Azərbayan multilateral xəttinin uğurlu olmasında II Qarabağ savaşı ilə postmüharibə dövrünün geosiyasi, siyasi, hərbi və ideoloji ruhunun vəhdət təşkil etməsi xüsusi rol oynamışdır. Bu uğur başqa regionlarda kimsəyə müyəssər olmamışdır. O cümlədən, Asiya multilateralizminin ən zəif cəhəti məhz bu kimi faktorlara bağlıdır.

Azərbaycan Prezidenti beynəlxalq əlaqələrin çox geniş spektri üzrə real multilateral xətti davam etdirir. Eyni zamanda, rəsmi Bakı bu prosesi daha geniş geosiyasi məkanda həyata keçirmək mərhələsinə qədəm qoymuşdur. Onun başlıca əlaməti Azərbaycanın TDT və Qoşulmama Hərəkatının fəal üzvü kimi geosiyasi oyunçu olaraq regional, regionlararası və qlobal miqyaslarda sinxron aktivlik göstərməsindədir. Tarixində ilk dəfə olaraq Azərbaycan Respublikası Cənubi Qafqazın lideri kimi qlobal miqyasda təsiri olan güclü oyunçu statusuna yüksəlmişdir. ABŞ Prezidenti C.Baydenin Azərbaycan Prezidentinə ünvanladığı məktubda dünya miqyasında təsiri olan tezislər ifadə etməsi bunu sübut edən faktlardandır. C.Bayden inanır ki, Azərbaycan – Ermənistan sülh müqaviləsi imzalanandan sonra həm Cənubi Qafqazın geosiyasi siması dəyişəcək, həm də Azərbaycanın regionda rolu daha əhəmiyyətli olacaqdır.

Həqiqətdir! İndi etiraf edirlərsə, bu da başadüşüləndir. Çünki Azərbaycanın regionun tarixini dəyişdiyini tədricən qəbul edəcəklər!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 293** **Bakı şəhəri, 3 iyun 2024-cü il**

**"Ərzaqlıq buğda istehsalı ilə bağlı öhdəlik götürərək Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə müqavilə bağlamış sahibkarlıq subyektlərinə müasir suvarma sistemlərinin alınması üçün kredit təşkilatlarının öz vəsaitləri hesabına veriləcək kreditlər üzrə dövlət zəmanətinin verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanında dəyişiklik edilməsi və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə ilə bağlı bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 noyabr tarixli 2367 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Ərzaqlıq buğda istehsalı ilə bağlı öhdəlik götürərək Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə müqavilə bağlamış sahibkarlıq subyektlərinə müasir suvarma sistemlərinin alınması üçün kredit təşkilatlarının öz vəsaitləri hesabına veriləcək kreditlər üzrə dövlət zəmanətinin verilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** Müəyyən edilsin ki:

2.1. bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Qaydaya uyğun olaraq sahibkarlıq subyektlərinə veriləcək 280 (iki yüz səksən) milyon manat kredit portfeli 168 (yüz altmış səkkiz) milyon manat məbləğinədək dövlət zəmanəti ilə təmin edilir;

2.2. bu Qərarın 2.1-ci bəndində nəzərdə tutulan dövlət zəmanəti Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi arasında bağlanılan, bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən Qaydaya əlavə - "Ərzaqlıq buğda istehsalı ilə bağlı öhdəlik götürərərək fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi barədə Çərçivə Zəmanət Sazişi" əsasında verilir.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi "Dövlət borcu haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla, sahibkarlıq subyektlərinin dövlət zəmanəti verilmiş, lakin icra edilməmiş borc öhdəliyini Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunun vəsaiti hesabına yerinə yetirsin.

**4.** Bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən Qaydaya uyğun olaraq verilən dövlət zəmanəti 2028-ci il yanvarın 1-dək dövlət zəmanəti verilərək bağlanılmış bütün kredit müqavilələrinə şamil edilir.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 294** **Bakı şəhəri, 3 iyun 2024-cü il**

**"Standartlaşdırma üzrə texniki komitələrin yaradılması və fəaliyyətinin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında**

"Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1587-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 iyul tarixli 780 nömrəli Fərmanının 1.1.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Standartlaşdırma üzrə texniki komitələrin yaradılması və fəaliyyətinin təşkili Qaydaları" təsdiq edilsin (əlavə olunur).

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan–Macarıstan: ikinci strateji dialoq



**İyunun 5-də xarici işlər naziri Ceyhun Bayramov ölkəmizə səfəri çərçivəsində Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ilə görüşüb.**

Nazirlər arasında keçirilən təkbətək görüşdən sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə strateji dialoqun ikinci iclası keçirilib.

İclas zamanı ikitərəfli əsasda Azərbaycan və Macarıstan arasında iqtisadiyyat, ticarət, investisiyalar, enerji təhlükəsizliyi, bərpaolunan enerji ehtiyatları, humanitar, təhsil, mədəniyyət və sair istiqamətlər üzrə çoxşaxəli əməkdaşlıq gündəliyində duran məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Xüsusilə iqtisadi əlaqələrin daha da gücləndirilməsi baxımından potensialın mövcudluğu, bu istiqamətdə perspektivlərin müzakirəsi istiqamətində Azərbaycan və Macarıstan hökumətləri arasında İqtisadi əməkdaşlıq üzrə birgə Komissiyanın rolu vurğulanıb.

Görüşdə bərpaolunan enerji sahəsinin inkişafı və ötürülməsi istiqamətinin strateji tərəfdaşlıq münasibətlərimizin vacib komponentlərindən biri olduğu, bu istiqamətdə Qara dəniz sualtı kabel/Yaşıl Orta Dəhliz təşəbbüsünün irəlilədilməsi fəaliyyətinin davam etdirilməsinin zəruriliyinə diqqət çəkilib.

Qarşı tərəf, həmçinin postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma, minatəmizləmə fəaliyyəti, Azərbaycan və Ermənistan arasında normallaşma prosesinin hazırkı vəziyyəti barədə ətraflı məlumatlandırılıb.

Macarıstanın aparılan quruculuq işlərinə töhfəsi, regional sülh səylərinə göstərdiyi dəstəyi, habelə prosesə töhfə verməyən addımlara qarşı sərgilədiyi mövqe minnətdarlıqla qeyd olunub.

Daha sonra nazirlər Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Macarıstan Xarici İşlər və Ticarət Nazirliyi arasında Konsulluq məsələləri üzrə Əməkdaşlığa dair Anlaşma Memorandumu, habelə Azərbaycan-Macarıstan Strateji Dialoqunun 2-ci iclasının protokolunu imzalayıblar.

***

Həmin gün xarici işlər naziri Ceyhun Bayramov Polşanın Xarici İşlər Nazirliyinin dövlət katibi (nazir müavini) Marek Pravda ilə də görüşüb.

Görüşdə Azərbaycan və Polşa arasında əməkdaşlıq məsələləri, habelə postmünaqişə dövründə mövcud regional vəziyyət barədə fikir mübadiləsi aparılıb.

Ceyhun Bayramov iki ölkə arasında tərəfdaşlıq münasibətlərinin, xüsusilə iqtisadi, ticarət, investisiyalar, enerji təhlükəsizliyi, bağlantılar, təhsil, humanitar sahələr üzrə əməkdaşlığın inkişafında bu kimi səfərlərin, o cümlədən siyasi məsləhətləşmələr mexanizminin vacib rolu olduğunu vurğulayıb.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyimiz çərçivəsində görülən işlər və gələcək planlar barədə qarşı tərəfi ətraflı məlumatlandıran Ceyhun Bayramov sədrliyimiz çərçivəsində iqlim dəyişikliyi ilə mübarizə sahəsində Polşa tərəfi ilə əməkdaşlıq üçün əlavə imkanlar olduğunu bildirib.

Görüşdən sonra xarici işlər nazirinin müavini Fariz Rzayevin və Polşa nazir müavininin rəhbərlik etdiyi nümayəndə heyətlərinin iştirakı ilə Azərbaycan-Polşa strateji tərəfdaşlığına dair məsləhətləşmələr keçirilib.

***XQ***

# Azərbaycanın beynəlxalq enerji gündəmi

**Dünən Bakı Konqres Mərkəzində Enerji Həftəsi çərçivəsində 29-cu Bakı Enerji Forumu öz işinə başladı. Azərbaycan və Xəzər regionu üçün vacib olan enerji məsələlərinin müzakirə olunduğu forumda 600-dən çox nümayəndə iştirak edirdi. Forumun gündəliyinə ekoloji problemlərin Yer kürəsi üçün yaratdığı təhlükələr, onların qarşısının alınması yolları, eləcə də "yaşıl enerji" kimi mövzular daxil idi.**

"Jamestown Fondation" təşkilatı idarə heyətinin üzvü Metyu Brayza sədrlik etdiyi "Enerji təhlükəsizliyi və dayanıqlığa dair beynəlxalq əməkdaşlıq" mövzusuna həsr olunmuş plenar iclasda Azərbaycanın energetika naziri Pərviz Şahbazov çıxış edərək ölkəmizin 30 il əvvəl Xəzərin neft-qaz resursları vasitəsilə enerji təhlükəsizliyinə, regionda sabitliyə və inkişafa nail olmaq siyasətinin bu gün nəhəng bərpaolunan enerji potensialının cəlbi ilə yeni səviyyəyə yüksəldiyini diqqətə çatdırdı. Qeyd olundu ki, ənənəvi enerji təchizatçısı və COP29-a ev sahibliyi edəcək ölkə kimi Azərbaycan bütün növ enerji resurslarını enerji təchizatında etibarlılığın, eyni zamanda, emissiyaların azaldılması və "yaşıl enerji"yə keçidin təmin edilməsi məsuliyyəti ilə inkişaf etdirir.

Nazir hazırda dünyada fossil yanacağın maliyyələşdirilməsi ilə bağlı məhdudiyyətlərə və uzunmüddətli tələbata dair zəmanətin yoxluğuna baxmayaraq, Azərbaycanın hazırda tərəfdaşlarını qazla təchiz etmək missiyasına sadiq olduğunu və bu il proqnozlaşdırılan 24,3 milyard kubmetr qaz ixracının yarısının Avropaya tədarük ediləcəyini diqqətə çatdırdı. Qeyd olundu ki, Azərbaycandan və üçüncü ölkələrdən qazın Türkiyə və Avropaya təchizatı ilə bağlı Sazişin, SOCAR və BOTAŞ arasında sənədlərin imzalanması ölkələrimizin qaz ixracı və tranzitində mövqeyini gücləndirən perspektivlər kimi dəyərləndirilib.

Nazir Pərviz Şahbazov, həmçinin bildirdi ki, bu onillik Azərbaycan Prezidenti cənab İlham Əliyevin "yaşıl enerji" və iqlim məqsədlərinin həyata keçirilməsi, ənənəvi və bərpaolunan enerji arasında sinerjinin yaradılması üzrə baxış və təşəbbüslərinə əsaslanan "yaşıl enerjiyə keçid"də ölkəmizin regional liderliyi ilə əlamətdar olacaq. Eyni zamanda 1 milyard dollara yaxın investisiya dəyərinə malik 1000 meqavat gücündə günəş və külək elektrik stansiyalarından əlavə yaxın vaxtlarda Şərqi Zəngəzurda BP və "Nobel Energy" şirkətləri ilə daha iki günəş stansiyasının təməlinin qoyulacağı, 100 meqavatlıq Qobustan Günəş Elektrik Stansiyası üzrə ilk hərracın nəticəsinin isə COP zamanı elan ediləcəyi diqqətə çatdırıldı. "2027-ci ilin sonunadək reallaşacaq 2 qiqavatadək "yaşıl güc"lər hesabına elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerjinin payı 33 faizə yüksələcək. 2 milyard dollardan artıq investisiya, 5,3 milyard kilovat-saat elektrik enerjisinin istehsalı, 1,2 milyard kubmetr qazın sərbəstləşməsi, 2,5 milyon tona qədər emissiyaların azalması bu layihələrin gözlənilən faydalarıdır", – deyə nazir əlavə etdi.

O da bildirildi ki, bərpaolunan enerjinin inkişafına dekarbonizasiya ilə yanaşı, post-konflikt quruculuğu və enerji tədarükü mənbələrinin şaxələndirilməsi kontekstində yanaşma bu gün Azərbaycanı "yaşıl enerji zona"ları və "yaşıl enerji dəhliz"ləri təşəbbüsləri ilə də ön plana çıxarır. Nazir çıxışında "Xəzər–Qara dəniz–Avropa", "Azərbaycan–Türkiyə–Avropa" və "Mərkəzi Asiya–Azərbaycan–Avropa" yaşıl enerji dəhlizlərinin yaradılması sahəsində görülən işlərdən bəhs etdi. Bildirildi ki, ölkəmiz regional "yaşıl enerji" bağlantılarının qurulmasında mühüm rol oynamaqla yanaşı, bu yeni mərhələdə Avropanın enerji təchizatını "yaşıl enerji", hidrogendən əlavə bərpa olunan enerji hesabına sərbəstləşən böyük həcmlərdə təbii qazla da şaxələndirəcək.



Avropa Komissiyası Enerji Platforması İşçi Qrupunun və Beynəlxalq Əlaqələr İdarəsinin enerji üzrə baş direktoru Kristina Lobillo Borrero çıxışında qeyd etdi ki, Azərbaycan Avropa üçün qaz tədarükü və təchizatında etibarlı tərəfdaşdır və bu məsələdə xüsusi olaraq bir nümunədir. 2027-ci ildə Azərbaycanın Avropaya qaz tədarükünü 20 milyard kubmetrə çatdırmağı hədəflədiyini vurğulayan baş direktor təmsil etdiyi qurumun bu istiqamətdə ölkəmizlə yaxından əməkdaşlıq etdiyini diqqətə çatdırdı. hazırda Avropada çox ciddi enerji böhranının yarandığını vurğuladı. Avropanın hər zaman alternativ qaz mənbələrinin və daim Rusiya qazını əvəz edəcək qaz təminatçısını axtardığını vurğulayan K. Borrero ölkəmizin bu məsələdə Avropa üçün qaz tədarükü və təchizatında etibarlı tərəfdaş olduğunu bildirdi.

Mövzu ətrafında çıxış edən Macarıstanın xarici işlər və ticarət naziri Piter Siyatto, Sloveniyanın ətraf mühit, iqlim və energetika nazirinin müavini Tina Sersen, Qaz İxrac edən Ölkələr Forumunun baş katibi Mohamed Hamel, Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin baş direktoru Françesko La Kamera çıxış edərək enerji keçidi dövründə enerji mənbələrinin və yol xəritələrinin imkanları və yeni çağırışları, iqlim dəyişikliyinin qlobal enerji mənzərəsinə və enerji əməkdaşlığına təsiri, eləcə də qlobal və regional enerji təhlükəsizliyinin və dayanıqlılığın möhkəmləndirilməsində Azərbaycan və Xəzər regionunun rolu və potensialı məsələlərindən ətraflı bəhs etdilər.

Sonra "Liderlərin çıxışları: Enerji təhlükəsizliyi 2.0" mövzusunda müzakirələr aparıldı. Mövzu ətrafında Azərbaycanın energetika nazirinin müavinin Kamal Abbasov, GL Group-un baş icraçı direktoru Asif Zeynalov, Səudiyyə Ərəbistanının "Acwa Power" şirkətinin sədr müavini və idarəedici direktoru Raad al Saady, BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz və başqalarının çıxışları dinlənildi.

Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf çıxışında bildirdi ki, SOCAR neft-qaz şirkəti olaraq yaradılsa da, artıq enerji şirkəti kimi fəaliyyət göstərir. Rəhbərlik etdiyi qurumun bərpaolunan enerji layihələrinə investisiya yatırmaq niyyətində olduğunu vurğulayan şirkət prezidentinin sözlərinə görə, bu məqsədlə dünyanın ən tanınmış, böyük enerji qurumları ilə əməkdaşlıq edilir. R.Nəcəf, həmçinin qeyd etdi ki, SOCAR 2050-ci ilə qədər karbon emissiyasının sıfıra endirilməsinə nail olunmasını hədəf götürüb.

Bütövlükdə isə, forumun ilk iş günündə 46 məruzəçi energetikanın müxtəlif sahələrinə aid çıxış etdilər, moderatorun suallarını ətraflı cavablandırdılar.

Forum bu gün öz işini davam etdirəcək.

## Dünya Bankı ilə investisiya əməkdaşlığı



**İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə makroiqtisadiyyat, ticarət və investisiya sahələrində praktika meneceri Antonio Nusifora ilə görüşündə adıçəkilən beynəlxalq maliyyə qurumu ilə səmərəli əməkdaşlığın əhəmiyyəti qeyd edilib.**

İqtisadiyyat Nazirliyinin məlumatında daha sonra bildirilir ki, görüşdə Dünya Bankı ilə Azərbaycan arasında investisiya mühitinin əlverişliliyinin daha da artırılması, dövlət-özəl sektor tərəfdaşlığı, innovasiyalar, idarəetmə texnologiyalarının inkişafı barədə ətraflı danışılıb.

Bütün bunlarla bərabər, ölkəmizdə sosial-iqtisadi inkişaf prioritetlərinə və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verilib. Eyni zamanda respublikada aparılan iqtisadi islahatların beynəlxalq maliyyə qurumları tərəfindən dəstəkləndiyi və Azərbaycanın iştirakçısı olduğu nəhəng layihələrin regionda dayanıqlı inkişafı şərtləndirdiyi diqqətə çatdırılıb.

Tərəflər ticarətin şaxələndirilməsi, "yaşıl" keçid, iqlim, COP29 və digər məsələlərlə bağlı əməkdaşlığın inkişafını müzakirə ediblər.

## İlin hədəfi: 30 milyon ton neft, 48 milyard kubmetr qaz

**Azərbaycanın energetika nazirinin müavini Kamal Abbasov dünən keçirilən Bakı Enerji Forumunda bu il ölkədə 30 milyon ton neft, 48 milyard kubmetr isə təbii qaz hasil ediləcəyini deyib.**



"2023-cü ildə respublikada neft hasilatı 30 milyon ton təşkil edib. Bunun 25 milyon tonu ixrac edilib. 2024-cü ildə Azərbaycanda neft hasilatı isə ötən ilin səviyyəsində qalacaq", – K. Abbasov vurğulayıb.

Nazir müavini qeyd edib ki, 2024-cü ildə ölkədə təbii qaz hasilatı 48 milyard kubmetr təşkil edəcək və bu, ötən ilin göstəricilərinə uyğundur.

## Sığorta tarifləri 50 faiz azaldılacaq

**Azərbaycan Mərkəzi Bankının həyat sığortası ilə bağlı təsdiqlədiyi son qaydaların tətbiqi ilə sığorta tarifləri, təxminən, 50 faiz azalacaq.**

Bunu "Azərbaycan Sığortaçılar Assosiasiyası" (ASA) və "Azərbaycan Banklar Assosiasiyası" (ABA) ictimai birliklərinin birgə təşkilatçılığı ilə keçirilən mətbuat konfransında ölkədəki həyat sığortası şirkətlərindən birinin idarə heyətinin sədri Niyaz İsmayılov bildirib.

"Yeni qaydalar hələlik, istehlak krediti götürən fiziki şəxslərə aiddir, digər kreditlərlə bağlı tətbiq edilmir. "Biza data" analizini banklardakı kreditləşməyə uyğun olaraq aparmışıq", – deyə o qeyd edib.



**Bakı Enerji Həftəsi Azərbaycanın neft və qaz sahəsindəki tarixi irsini və qlobal uğurlarını "yaşıl enerji" sektorunda davam etdirmək əzminin nümayiş etdirilməsi baxımından uyğun beynəlxalq platformadır. Bu platforma respublikamızın "yaşıl enerji" və iqlimlə bağlı hədəflərin reallaşmasına milli səviyyədə töhfə vermək və iqlim fəaliyyəti üzrə qlobal həmrəyliyin hərəkətverici qüvvəsi olmaq niyyətini bir daha gündəmə gətirir. Bundan əlavə, platforma Azərbaycanın "yaşıl artım" ölkəsi kimi imicini və beynəlxalq nüfuzunu yüksəltməklə yanaşı, respublikada müvafiq sahənin inkişafına potensial investorların cəlbini də stimullaşdırır.**

# Bakıda "yaşıl" gələcək axtarışları

Tədbir Dünya İqtisadi Forumunun Enerji Keçid İndeksi Hesabatında Azərbaycanın irəliləyiş baxımından 2022-2023-cü illərdə dünya üzrə ən yaxşı inkişaf edənlər sırasında olduğunu və bir sıra digər uğurlarımızı vurğulamaq üçün fürsət yaradır. Eyni zamanda xarici investisiya hesabına reallaşdırılmış, təməli qoyulan və yaxın gələcəkdə icrası planlaşdırılan "yaşıl enerji" layihələrinin, ümumilikdə, ölkəmizin "yaşıl gündəliy"inin icrasına dair məlumatların Bakı Enerji Forumu çərçivəsində geniş kütləyə çatdırılmasını gerçəkləşdirir.

Bütün bunlarla bərabər, Bakı Enerji Həftəsində reallaşdırılan tədbirlər zamanı ikitərəfli işgüzar görüşlər keçirilir. Bu görüşlərdə yerli və xarici şirkətlərin nümayəndələri tərəfindən üzbəüz formatda əməkdaşlıq və gələcək tərəfdaşlıq yolları müzakirə edilir, habelə respublikamızın "yaşı enerji" istehsalı ilə əlaqədar uğurları diqqətə çatdırılır.

Azərbaycanın energetika naziri Pərviz Şahbazovun Bakı Enerji Forumundakı çıxışında da bu məqamlar xatırladılıb. Nazirin sözlərinə görə, 2027-ci ilin sonunadək Azərbaycanda 2 milyard ABŞ dollarından artıq investisiya sayəsində reallaşacaq 2 QVt-dək "yaşıl güc"lər hesabına elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerjinin payı 33 faizə yüksələcəyi proqnozlaşdırılıb.

Energetika naziri daha sonra deyib ki, 5,3 milyard kilovat/saat elektrik enerjisinin istehsalı, 1,2 milyard kubmetr qazın sərbəstləşməsi, 2,5 milyon tona qədər emissiyaların azalması bu layihələrin gözlənilən faydalarıdır.

Azərbaycan Prezidenti İlham Əliyevin ənənəvi və bərpaolunan enerji arasında sinerjinin yaradılması üzrə baxış və təşəbbüslərinə əsaslanan "yaşıl enerji"yə keçid dövrü ölkəmizin regional liderliyi ilə əlamətdar olacaq. Belə ki, 1 milyard ABŞ dollarına yaxın investisiya dəyərinə malik 1000 MVt gücündə günəş-külək elektrik stansiyalarından əlavə yaxın vaxtlarda Şərqi Zəngəzurda BP və "Nobel Energy" şirkətləri ilə daha 2 günəş stansiyasının təməli atılacaq, 100 MVt gücündə Qobustan Günəş Elektrik Stansiyası üzrə ilk hərracın nəticəsi isə COP29-da elan ediləcək.

P.Şahbazov bildirib ki, bərpaolunan enerjinin inkişafına dekarbonizasiya ilə yanaşı, postkonflikt quruculuğu və enerji tədarükü mənbələrinin şaxələndirilməsi kontekstində yanaşma bu gün Azərbaycanı "yaşıl enerji" zonaları və "yaşıl enerji" dəhlizləri təşəbbüsləri ilə də ön plana çıxarır. "Xəzər–Qara dəniz–Avropa", "Azərbaycan–Türkiyə–Avropa" və "Mərkəzi Asiya–Azərbaycan–Avropa" "yaşıl enerji" dəhlizlərinin yaradılması ilə bağlı atılan addımlar da qeyd edilən fikrin bariz ifadəsidir.

Mütəxəssislərin fikrincə, Azərbaycan dənizdə külək enerjisi üzrə də yüksək potensiala malikdir. Qiymətləndirməyə görə, Xəzər dənizinin respublikamıza məxsus hissəsində külək enerjisinin ümumi texniki potensialı 157 QVt (dayazsulu hövzələrdə 35 QVt və dərinsulu hövzələrdə 122 QVt) səviyyəsindədir. Bu potensialın hərəkətə gətirilməsi baxımından Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" 2019-cu il 29 may tarixli sərəncamı xüsusi diqqət çəkir. Adıçəkilən sərəncamla qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi məqsədilə sahəyə özəl, o cümlədən xarici investisiyaların cəlb edilməsi istiqamətində Dünya Bankı Qrupuna daxil olan Beynəlxalq Maliyyə Korporasiyası ilə "Azərbaycanda dənizdə külək enerjisinin inkişafı üzrə yol xəritəsi" hazırlanması bunun parlaq nümunəsidir.



Bakı Enerji Forumundakı çıxışlarda bildirilib ki, Azərbaycanda enerji keçidi üzrə reallaşdırılan layihələr çərçivəsində, ümumilikdə, 1,5 milyard ABŞ dolları məbləğində investisiya yatırılıb və yatırılmaqdadır. 20–25 il müddətinə hesablanan böyük layihələr ölkəmizin gələcəyinə, dövlət siyasətinə olan inamın göstəricisidir.

Forumda qeyd edilib ki, Azərbaycanda dünyanın ən irimiqyaslı tədbirlərindən biri hesab olunan COP29-un keçirilməsi qərarı veriləndən dərhal sonra ölkəmiz "yaşıl enerji"nin inkişafı istiqamətində reallaşdırılan layihələrin icrasını daha da sürətləndirdi. Qısa müddətdə genişmiqyaslı işlər görüldü. Məsələn, Naxçıvan Muxtar Respublikasında "Yaşıl enerji zonası"nın yaradılması istiqamətində külək və günəş enerjisi üzrə 1500 MVt-lıq istehsal gücləri xarici investisiya hesabına yaradıldı və onun ən azı 1000 MVt-nın Türkiyə və Avropaya ixrac olunması əsas hədəf kimi qarşıya qoyuldu.

Hazırda muxtar respublikada gücü 500 MVt-a qədər olan günəş elektrik stansiyasının tikintisi, eləcə də elektrik enerjisinin Türkiyəyə ixracı üçün ötürücü şəbəkənin qurulması imkanları araşdırılır.

Bakı Enerji Forumunda, eyni zamanda, diqqətə çatdırıldı ki, təkcə Naxçıvan deyil, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur da "yaşıl enerji" mənbələrinin yüksək potensialı ilə fərqlənir. Belə ki, Füzuli, Cəbrayıl, Zəngilan rayonlarında günəş enerjisi potensialı, Laçın və Kəlbəcər rayonlarında külək enerjisi potensialı yüksək qiymətləndirilir. BP şirkəti tərəfindən Cəbrayıl rayonu ərazisində 240 MVt gücündə "Şəfəq" Günəş Elektrik Stansiyası layihəsi həyata keçirilir.

Bundan əlavə, "China Gezhouba Group Overseas Investment" və "Nobel Energy" şirkətləri ilə imzalanan müqavilələr çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda günəş elektrik stansiyalarının tikintisi nəzərdə tutulur.

Forumda bildirilib ki, Azərbaycanın daxili istehlakı, iqtisadiyyatın dekarbonizasiyası və ixracı məqsədilə quruda və dənizdə "yaşıl enerji" planları 2027-ci ilədək olan birinci mərhələdə 2 QVt, 2030-cu ilə qədər növbəti mərhələdə isə 8 QVt-dan çox "yaşıl enerji" güclərinin reallaşdırılmasına hədəflənib. Bununla da, bərpaolunan enerji potensialının ölkəmiz vasitəsilə, təxminən, 2027-ci ildə 2 dəfə, 2030-cu ilə olan dövrdə isə 4 dəfədən çox artımı nəzərdə tutulub. Respublikamızda elektrik enerjisinin qoyuluş gücündə "yaşıl enerji" payını ilkin hədəf göstəricisindən 3 faiz çox və 3 il tez olmaqla 33 faizə yüksəldən bu layihələr Avropa ölkələrində də bərpaolunan enerji potensialının artırılmasının mənbələrindən olacağı göstərilib.

Bakı Enerji Forumunda, həmçinin xatırladılıb ki, "yaşıl enerji"nin dünya bazarlarına nəqli Azərbaycan dövlətinin enerji siyasətində əsas istiqamətlərdən biridir. Azərbaycan 2030-cu ilədək 5 min meqavat bərpaolunan enerji istehsalı potensialına malik olmağı planlaşdırır. 2023-cü ildə respublikamızda Qafqazın və Mərkəzi Asiya regionunun 230 meqavat gücündə ən böyük günəş elektrik stansiyası istifadəyə verilib və bu cür yeni stansiyaların tikintisi davam edir. Xəzər dənizindən Qara dənizə və Avropaya qədər uzanacaq "yaşıl enerji" elektrik kabelinin inşası istiqamətində mühüm işlər görülür.

Forumda söylənilənlərdən bir daha aydın olur ki, "yaşıl enerji"yə keçid qlobal ekoloji problemlərin həllində əhəmiyyətli rol oynayır. Ekoloji fəlsəfədə "yaşıl enerji"nin xüsusiyyətləri insan-təbiət münasibətləri kontekstində öyrənilir. "Yaşıl enerji"yə keçid ekosistemdə dayanıqlığın və insanın tələbatları ilə təbiətin imkanları arasında tarazlığın təmin olunmasında böyük əhəmiyyət daşıyır.

"Yaşıl enerji" mənbələrindən enerji istehsalı iqlim dəyişikliyinin və qlobal istiləşmənin qarşısının alması üçün vacibdir. "Yaşıl enerji" istehsalı enerji təhlükəsizliyinin təmin olunmasında özünəməxsus yer tutur, yeni texnologiyaların və innovasiyaların inkişafına təkan verir. Azərbaycan Respublikası coğrafi baxımdan əlverişli "yaşıl enerji" potensialına malikdir və ondan səmərəli şəkildə istifadə edilməsi istiqamətində məqsədyönlü dövlət siyasəti aparılır.

*Hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# BMT-nin İqlim Konfransı COP29-un "Sülh və iqlim qovşağı" gündəliyini alqışlayıb




**Almaniyanın Bonn şəhərində keçirilən BMT-nin Beynəlxalq İqlim Konfransı çərçivəsində iyunun 5-də Azərbaycanın COP29-un sədri kimi növbəti tədbiri keçirilib.**

Qlobal iqlim dəyişikliyi bir çox sahələrdə olduğu kimi, beynəlxalq təhlükəsizlik üçün də ciddi çağırışlar yaradır. Bu səbəbdən qlobal iqlim dəyişikliyi nəticəsində qida və su təchizatında yaranan böhranların potensial münaqişələrə çevrilməsinin qarşısının alınması kimi vacib məsələ COP gündəliyində əhəmiyyətli yer tutur. Bu mövzuya həsr olunan məclisə sədrlik edən xüsusi tapşırıqlar üzrə səfir Elşad İskəndərov bildirib ki, Azərbaycanın COP29-a sədrliyi zamanı prioritetlərindən biri beynəlxalq sülhə və təhlükəsizliyə dəstək verməkdir. Dövlətimizin başçısının tapşırığı ilə iqlim konfransları tarixində ilk olan COP atəşkəsi çağırışı üzərində beynəlxalq tərəfdaşlarla iş aparılır.

Prezident İlham Əliyevin ən həssas kateqoriya olan kiçik ada dövlətləri üçün xüsusi dəstək fondunun yaradılması təşəbbüsünü də qeyd edən E.İskəndərov dünya əhalisinin getdikcə artan hissəsinin həm iqlim dəyişikliyindən, həm də münaqişələrdən əziyyət çəkdiyini, bu baxımdan daha çox regionların "xüsusilə həssas" kateqoriyaya daxil olduğunu bildirib. O, ölkəmizin COP29 sədri qismində təşkil etdiyi tədbirin bu qəbildən olan dünya xalqları üçün işlək strategiya və əməli dəstəyin təmin olunması məqsədi daşıdığını vurğulayıb.

COP28 prezidentliyini təmsil edən Deyn Mak Kuin çıxışında ötən il Dubayda keçirilmiş COP zamanı qəbul edilmiş "İqlim dəyişikliyi, dayanıqlılıq, sülh və yardım" başlıqlı bəyannamədən söz açıb, Azərbaycanın sədrliyi ilə COP prosesində sülh gündəliyinin irəli sürülməsini yüksək qiymətləndirib, bu məsələnin konkret çalarlar qazanacağına əminliyini bildirib.

Almaniyanın iqlim üzrə danışıqçısı Eliza Ozbek və Uqandanın BMT-dəki daimi nümayəndəsi Adonio Ayebare xüsusilə həssas kateqoriyaya aid dünya əhalisinə beynəlxalq yardımın vacibliyindən, iqlim dəyişikliyinin gələcəkdə təmiz su, hava və münbit torpaqlar uğrunda münaqişələrə yol açmaması üçün qabaqlayıcı tədbirlərin görülməsinin önəmindən danışıblar. "Sülh və iqlim" naminə Bonn kontakt qrupu adından çıxış edən Niderlandın Links-Avropa Fondunun direktoru Dennis Sammut və Almaniyanın Adelphi beyin mərkəzinin rəhbəri Benjamin Pol COP29 zamanı su qıtlığı, qida təhlükəsizliyi və minalarla çirklənmənin ekosistemə zərərləri istiqamətində 50-dən artıq beynəlxalq QHT-nin konkret təkliflər paketi hazırladığını diqqətə çatdırıblar.

İnteraktiv dialoq formatında çıxış edən Braziliya, ABŞ, Avropa İttifaqı, Səudiyyə Ərəbistanı, Macarıstan, Qırğızıstan və digər üzv ölkələrin nümayəndələri COP29 çərçivəsində xüsusilə həssas kateqoriyaya aid bölgələrə göstərilən diqqətə görə Azərbaycana təşəkkür ediblər.

Müzakirələrə yekun vuran səfir E.İskəndərov Azərbaycanın COP29-a sədrliyinə verilən yüksək qiymətə və göstərilən etimada görə təşəkkürünü bildirib.

# "Milli öhdəlik" proqramına start verildi



**İyunun 5-də COP29 Azərbaycan Əməliyyat Şirkəti "COP29 Sponsorluq və Tərəfdaşlıq" strategiyasının ayrılmaz tərkib hissəsi olan dayanıqlılıq və ətraf mühit kriteriyalarının formalaşması üzrə milli səviyyədə ilkin müzakirələrə start verib.**

Şirkət COP29 Sponsorluq proqramını bu ilin mayından etibarən özəl sektora təqdim edib. "Milli öhdəlik" proqramına əsasən, COP29-un Sponsorluq proqramı çərçivəsində xarici və beynəlxalq sponsorlara dayanıqlılıq hədəfləri ilə bağlı könüllü korporativ öhdəliklər tətbiq olunacaq və bu öhdəlikləri yerinə yetirmək üçün onlara müvafiq səriştələr aşılanacaq.

Milli biznes sektorunun əlliyə yaxın rəhbər nümayəndəsinin iştirak etdiyi seminarda COP29 Konfransına dair mövcud layihələr, ümumi hazırlıq tədbirləri və nəhayət milli biznes nümayəndələri üçün eksklüziv olaraq adaptasiya edilmiş Milli öhdəlik kriteriyası barədə təqdimat keçirilib. Şirkətlərin proqram çərçivəsində növbəti 12-24 ay ərzində öz strateji hədəflərini təyin etmələri nəzərdə tutulur.

Qeyd edək ki, bu proqram COP29 Əməliyyat Şirkəti tərəfindən milli özəl COP29 çərçivəsində sponsorluğa və tərəfdaşlığa maraq göstərən şəxslər sponsorship@cop29.az elektron poçt ünvanı vasitəsilə əlaqə saxlaya bilərlər.

**XQ**

# Braziliya da COP29-u dəstəkləyir



**Bu il Azərbaycanda keçiriləcək COP29-u dəstəkləyirik. Bunu Braziliya Federal Hesablar Məhkəməsinin naziri Xorxe Oliveira "Dövlət Borcunun qlobal çağırışlarına cavab" mövzusuna həsr olunan tədbirdə deyib.**

O bildirib ki, INTOSAI-ın platformaya çevrilməsi üçün çox işlər görülüb, əməkdaşlıq əlaqələri qurulub.

"Maliyyə böhranı ilə daha effektiv mübarizə aparmaq üçün dayanıqlı iqtisadiyyat qurmaq önəmlidir və bunun üçün də fiskal bərabərlik yaranmalıdır. Hər bir ölkənin fiskal borclarını düzgün idarə etmələri, düzgün valyuta və fiskal siyasətlərini qurmaları mühüm əhəmiyyət kəsb edir. Fiskal idarəetmə və bizim hər bir üzv dövlətimizin ərazisində fiskal dayanıqlılığın əldə olunması üçün əməkdaşlıq vacibdir və bu sahədə islahatlar həyata keçirilməlidir", - deyə Xorxe Oliveira vurğulayıb.

# Ekoloji könüllülərin qeydiyyatı başa çatıb

**Bu il noyabrın 11-22-də Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) könüllülərin iştirakını təşkil etmək üçün nəzərdə tutulan Könüllülük Proqramına qeydiyyat dünən başa çatıb.**

COP29 Əməliyyat Şirkətinin mətbuat xidmətindən bildiriblər ki, mayın 29-da elan olunan və həmin gündən etibarən fəal şəkildə müraciətləri qəbul edən Könüllülük Proqramına qeydiyyat prosesinə iyunun 5-də saat 23:00-da yekun vurulub. Qeydiyyat prosesi zamanı 16 minə yaxın namizədin müraciəti daxil olub. COP29 Könüllülük Proqramı çərçivəsində qeydiyyat ərizələrini tamamlayan namizədlər yeni istifadəyə verilmiş Könüllülər Mərkəzində iyulun sonuna qədər davam edəcək müsahibə prosesinə dəvət olunacaqlar. Daha sonra isə onlar informativ təlim sessiyalarına, şəbəkələşmə imkanlarına və dayanıqlılıq istiqamətində qlobal hərəkatın bir hissəsinə çevrilmək şansına sahib olacaqlar.

Proqram könüllülərin layihəyə rahat və sistemli şəkildə qoşulmaları üçün "volunteers.cop29.az" portalı üzərindən icra edilir. Ölkəmizin ev sahibliyi edəcəyi bu nüfuzlu iqlim tədbirinin təşkili üçün COP29 Azərbaycan Əməliyyat Şirkəti yerli və xarici vətəndaşlar olmaqla, 3 mindən çox könüllünü prosesə cəlb edəcək.

**XQ**



# Putin: Azərbaycanla münasibətlər uğurla, etibarlı və çox praqmatik şəkildə inkişaf edir

**İyunun 5-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ənənəvi Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu çərçivəsində beynəlxalq informasiya agentliklərinin rəhbərləri ilə görüşüb və onların suallarını cavablandırıb.TASS-ın təşkil etdiyi görüşdə 15-dən çox ölkənin informasiya agentliklərinin rəhbərləri, o cümlədən AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev iştirak edib. Prezident Vladimir Putin AZƏRTAC-ın İdarə Heyəti sədrinin sualını da cavablandırıb.**

**Vüqar Əliyev:** Salam, Vladimir Vladimiroviç. Bu gün bizə vaxt ayırdığınız üçün sağ olun. Bu gün Azərbaycan ilə Rusiya arasında əlaqələr dinamik şəkildə inkişaf edir. Bu yaxınlarda Prezident İlham Əliyevin Moskvaya səfəri nəinki ölkələrimiz üçün əlamətdar olan Baykal-Amur Magistralının 50 illik yubileyini qeyd etmək, həm də ikitərəfli münasibətlərimizi müzakirə etmək imkanı yaratdı. Siz ikitərəfli əməkdaşlığımızın perspektivlərini, xüsusilə, Şimal-Cənub Nəqliyyat Dəhlizi baxımından necə qiymətləndirirsiniz?

**Prezident Vladimir Putin:** Münasibətlərimiz uğurla, etibarlı və çox praqmatik şəkildə inkişaf edir. Biz Azərbaycan rəhbərliyinin dövlətlərarası əlaqələrimizin məhz qarşılıqlı maraq və mən deyərdim ki, bir-birinə müəyyən səviyyədə rəğbət əsasında qurulmasının tərəfdarı olduğunu hiss edirik. Azərbaycanda rus dilində fəaliyyət göstərən və uşaqlara təhsil verən 300 məktəbin mövcudluğunu başqa cür izah etmək mümkün deyil. Mən bilirəm ki, Prezident Əliyev respublikada rus dilinin öyrənilməsini hərtərəfli dəstəkləyir. Bu, bütün vektorlar üzrə müşahidə edilir. Bu, nədən xəbər verir? Bu, ondan xəbər verir ki, Azərbaycan rəhbərliyi Azərbaycan vətəndaşlarına rus dilinin lazım olacağını bilir. Nə üçün? İkitərəfli əlaqələrin inkişafı üçün və bu əlaqələr hazırda inkişaf edir. İndi bizdə ticarət dövriyyəsinin ümumi həcmi, əgər dollarla ifadə etsək, 4,5-4,6 milyard dollar təşkil edir. Temp yaxşıdır. İnkişaf tempi çox yaxşıdır. Münasibətlərimizi getdikcə daha çox şaxələndiririk.

Əminəm ki, hər iki tərəfdən belə əhval-ruhiyyə saxlanılsa, - Rusiyada biz bu əhval-ruhiyyədəyik, - nəticələr də yaxşı olacaq. Bu baxımdan, logistikanın inkişafı baxımından çox iş görmək lazımdır, Siz tamamilə haqlısınız. Bu, yalnız Şimal-Cənuba yox, digər vektorlara - Rusiya və Azərbaycan sərhədində, Dağıstan hissəsində logistika mərkəzlərinin tikintisinə də aiddir. Orada artıq iş gedir. Bu, digər istiqamətlərə də aiddir. Rusiyada Azərbaycandan, o cümlədən Rusiya büdcəsi hesabına təhsil alan tələbələr çoxdur. Biz görürük ki, gənclərin Rusiyada təhsil almağa marağı da kifayət qədər böyükdür.

Şimal-Cənub dəhlizinə gəldikdə, o çox yaxşı, böyük tələbat duyulan beynəlxalq dəhlizə çevrilə bilər. Buradan yüklər sizin və mənim olduğumuz yerdən - Sankt-Peterburq limanından Avropa hissəsi ilə Azərbaycana, sonra isə İrana və Fars körfəzinin sahilinə göndəriləcək. Məncə, bu, Süveyş kanalından təxminən on gün daha tezdir. Pis heç nə demək istəmirik, Süveyş kanalı, əksinə, dünya ticarəti üçün çox gərəklidir. Ancaq bu dəhliz, malların Şimala və Cənuba, əks istiqamətə çatdırılması üçün əlavə və çox səmərəli yol olacaq. Məncə, 10 gün daha tez başa gələcək. Bu, çox qənaətli, səmərəli və sərfəli marşrut olacaq. Ancaq burada hələ çox iş görmək lazımdır. Biz hər iki tərəfdən iş aparırıq. Mən bilirəm ki, Prezident Əliyev bu layihəni dəstəkləyir. Biz bu məsələni onunla dəfələrlə müzakirə etmişik. İran rəhbərliyi də bu layihəni dəstəkləyir. Bu dəhliz çox sərfəli olacağına görə həmin layihəyə xarici investorlar, regional olmayan, lakin yaxın olan ölkələr, o cümlədən suveren ərəb fondları da maraq göstərir. Aydındır, çünki suveren fondlar həmişə etibarlı investisiya sahələri axtarır. Bu layihə etibarlı investisiyalardan biridir, çünki onun gəlirliliyinə təminat və zəmanət var.

Burada əlavə, araşdırma tələb edən məsələlər var. Bu dəhliz hansı ərazilər, o cümlədən Azərbaycanın hansı əraziləri üzrə olacaq və onu necə maliyyələşdirəcəyik? Bu, kredit şəklində olacaq, yoxsa Rusiya tərəfindən birbaşa maliyyələşdiriləcək? Bu dəhliz Azərbaycan ərazisindən Qərbə gedən yollarla necə birləşəcək? Sonra iranlı tərəfdaşlarımızla, dostlarımızla İran ərazisindən keçən bu yolun şaxələndirilmiş hissələrini necə inşa edəcəyimizi, bu şaxələrin dar və ya geniş olacağını müzakirə edərək yekunlaşdırmalıyıq. Ancaq ən başlıcası odur ki, hamı bu layihənin həyata keçirilməsinin tərəfdarıdır. Biz faktiki olaraq bu işə rəhbərlik məsələsini həll etmişik. Bizdə VTB bununla fəal şəkildə məşğul olur. Mən bu layihəni həyata keçirəcəyimizə qətiyyən şübhə etmirəm. Məsələ, əlbəttə ki, müddət və xərclərlə bağlıdır, lakin ümumən bu məsələlər, demək olar ki, işlənərək hazırlanıb. Beləliklə, bu, çox yaxşı bir layihədir, lakin birgə həyata keçirdiyimiz yeganə layihə deyil.

Bundan başqa, Azərbaycan Xəzəryanı dövlətdir, Xəzəryanı dövlətlərin beşliyinə daxildir və burada da, o cümlədən Xəzər dənizinin ekologiyası ilə bağlı məsələlərdə də bizim bir çox ümumi maraqlarımız var.

# Birinci Qarabağ müharibəsinin şəhidi ata yurdunda dəfn edilib

**Birinci Qarabağ müharibəsində naməlum şəhid kimi Tərtərdə şəhidlər qəbiristanlığında dəfn edilən Səbuhi Süleymanovun nəşinin qalıqları dünən Şəkinin Cəfərabad kəndinə gətirilib.**



Ata yurdunda şəhidin ailə üzvləri, qazilər, kənd sakinləri, eləcə də ayrı-ayrı təşkilatların əməkdaşlarının iştirakı ilə vida mərasimi keçirilib. Şəhidin nəşi kənd qəbiristanlığında torpağa tapşırılıb.

Dəfn zamanı hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa olunub, yaylım atəşi açılıb.

Qeyd edək ki, Səbuhi Süleymanov 1972-ci ildə anadan olub. İkiillik hərbi xidmətdən sonra döyüşlərə könüllü qatılıb. Ailədə üç övlad olublar. 1992-ci ildə Ağdərə uğrunda gedən döyüşlərdə itkin düşmüş sayılırdı.

**XQ**

# Azərbaycan Ordusunun hərbi qulluqçusu paraşüt təlimi zamanı həlak olub

**"Azərbaycan Ordusunun hərbi qulluqçusu, gizir Əhmədov Sənan Nürəddin oğlunun iyunun 5-də paraşütdən atlama təlimi zamanı baş vermiş bədbəxt hadisə nəticəsində həlak olması ilə bağlı məlumatı təsdiq edirik".**

Bu barədə Müdafiə Nazirliyinin məlumatında bildirilib.

Nazirliyin rəhbərliyi şəhid olan hərbi qulluqçumuzun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verib, səbir diləyib.

**Allah rəhmət eləsin!**

# Sözün həqiqət istinadgahı

## yaxud ədəbi məkanın estetik cazibəsi

**“Ən çətin, çıxılmaz məqamlarımda – gücümü, həyat enerjimi itirib, ruhdan düşüb geriyə çəkilmək istədiyim an içimdə anlaşılmaz, qəfil təkanlarla hərəkətə gələn möhtəşəm nəyinsə şahə qalxmasından, yolumu kəsənləri otu biçəntək amansız sərtliklə biçib aradan qaldırmasından, bundan da bir nəticə hasil olmayanda mənim özümü sivri qılıncından keçirib əvəzimə yaşamağa davam etməsindən heyrətə gəlirəm...” Bu qənaət mənəvi dünyası ruhunda fərdiləşən, özü bir aləm, yaradıcılığı başqa aləm olan yazıçı-dramaturqun “ədəbi planet”indən qopan kiçik bir “meteoritdir”. Həmsöhbətimiz Xalq yazıçısı, Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət Tərcümə Mərkəzi İdarə Heyətinin sədri Afaq Məsuddur.**



**– Afaq xanım, sizinlə söhbətə hansı mövzudan başlayaq? Xalq yazıçısı, dramaturq, Əməkdar incəsənət xadimi, “Azadlıq”, “Yazı” romanlarının, “Qatarın altına atılan qadın” pyesinin müəllifindən, yoxsa Azərbaycan Dövlət Tərcümə Mərkəzinin rəhbəri Afaq Məsuddan?**

– Sizin daxili ehtiyacınız, marağınız hansı tərəfdəndirsə, oradan başlamaq olar. Amma mən on ildir ki, yaradıcı sahədən bir qədər uzaqlaşmışam. Çünki tərcümə, dil, lüğət, ədəbiyyatımızın xarici ölkələrdə təbliği sahələrində o qədər boşluqlar var idi ki, mərkəzin kollektivi ilə gərgin iş yükünün altına girməli olduq. Açığı, buna görə yaradıcılığa vaxt qalmırdı. Artıq işləri köklü şəkildə relsə sala bilmişik, yük azalıb. Yavaş-yavaş, həm də paralel olaraq, yaradıcı işlərə başlamaq üzrəyəm...

**– Müsahibələrinizin birində bu iki fəaliyyətinizin bir-birinə mane olmadığını demisiniz. Bu ağır yükə ailə qayğılarını da əlavə edəndə çıxış yolunu necə tapırsınız?**

– Şəkinin yüksəkliyində, Alban kilsəsinin də olduğu Kiş kəndində balaca bir evimiz var. Dar məqamda ora qaçıb getməyə imkan olmasa da, Kişi düşünəndə sıxıntıdan azad oluram. İnsan məkanı dəyişmədən də sıxıntıdan qurtula bilir. Artıq buna adət eləmişəm, ən çətin məqamlarda Kişi düşünürəm. Mənim üçün o kənd ayrı bir zaman, sevgi ərazisi, fərqli məkandır. Elə bil, başqa zamana düşürsən. Bu həqiqətən baş verir, xəyal deyil. Dünyada yüksəklik çoxdur, elə Azərbaycanda da, əksəriyyətində də olmuşam. Kiş mental ərazi baxımından yüksəkdir. Ora elə bir ucalıqdır ki, özünü Allahın dərgahına yaxın duyursan. Kişdə göy gurultusu da başqadır. Elə bilirəm onu eşitməyən, görməyən adam, ümumiyyətlə, göy gurultusundan xəbərsizdir...

**– Başqa zamana düşdüyünüz sevimli məkana xəyalən gedə bilirsinizsə, Azərbaycan sizin timsalınızda bir yazıçını itirmirmi?**

– İndiyə qədər yazdıqlarımla yəqin Azərbaycan məni tapıb. Kifayət qədər yazmışam, amma geniş kütlə yaradıcılığımın əksər hissəsini hələ oxumayıb. Pyeslər, romanlar, esselər, hekayələrlə böyük bir yaradıcı ömür yaşamışam. Yarımçıq qalan iki pyesim, bir romanım, böyük bir hekayəm var. İndi yavaş-yavaş yaradıcı tərəfə keçməliyəm. Əslində, lüğətçilik, tərcümə də yaradıcı işdir, amma əsər yazmaq müəllifdən tamam ayrı enerji tələb edir. Elə bil, 220 voltluq işıq yanırsa, müəllif kimi gərək 2020 volta keçəsən. Bunun üçün gərək hər şeydən tam azad olasan.

**– “Azərbaycan dilinin orfoqrafiya lüğəti” ciddi müzakirələrə səbəb olub. Üzərində 10 il işlədiyiniz bu lüğət ideyası necə yarandı?**

– Tərcümə Mərkəzində işə başlayanda rəsmi qurumlardan gələn məktubların hamısında eyni orfoqrafik səhvlərin şahidi olduq. Qızım o qurumlardan birində çalışır. Ondan soruşdum ki, bu necə olur? Dedi ki, bizim hamımızın masası üzərində sarı cildli “Orfoqrafiya lüğəti” var, oradan götürürük. Mən də tapşırdım bizim Elmi ədəbiyyat və lüğət şöbəsinə ki, o lüğəti yoxlayaq və səhvləri aradan qaldıraq. Çox gözəl mütəxəssis Bəhlul Abbasov bir həftə keçəndən sonra dedi ki, orfoqrafik səhvlər bu lüğətdə adi haldır. Başladım onu oxumağa. Orfoqrafiya lüğəti dilin qanunudur, rəsmi təsdiq olunmuş konstitusiyasıdır. 60 min söz çıxardıq, ərəb-fars, rus, ingilis dillərindən gəlmə qeyri-işlək sözlərin hamısını sildik. Dəhşətli söz quramaları vardı. Məsələn, “növbəmələgətirmədənqalma”. Bir sözdə birləşdirilmiş bütöv bir cümlədir, heç bir məna da kəsb etmir. Belə qurama sözlər yüz il bu lüğətdə olub. Yüzlərlə səslər var lüğətdə, heç nə anlaşılmır. Təsnifatı niyə etdik, çünki anladım ki, bu sözləri kütləvi şəkildə lüğətdən çıxarmaq mümkün olmayacaq. Mən də böldüm - yazılışı qüsurlu, mənası yanlış, söz quraması, qeyri-işlək ərəb-fars tərkibli və xarici dillərdən gəlmə sözlər. Dünyadakı yanlış sözlərin hamısı bizim lüğətdədir. Kimin ağlına nə gəlib əlavə ediblər ora. İndi heç kim boynuna götürmür.

Əslində, bu, cinayətdir. Dil bayraq kimi milli atributdur. Onu bu vəziyyətə salmaq nə deməkdir? Oradan çıxardığımız sözlərin əvəzinə, öz dilimizdə işlənən, amma lüğətə düşməyən 40 min qədim Azərbaycan sözü əlavə etdik. Məsələn “şlaqbaum”u “yolbənd”lə, “malyariya”nı “sarıqızdırma” ilə əvəzlədik.

**– Siz belə lüğət tərtib etmisiniz, sabah başqa bir qurum fərqlisini yaradar. Hansı əsas götürülməlidir?**

– İstənilən qurum lüğət tərtib edə bilər. Nazirlər Kabineti qaydaları təsdiq edir, sən o qaydalara uyğun lüğət tərtib edə bilərsən. Biz bu lüğəti təmizləyib, ortaya mükəmməl iş qoyuruq, lakin səhvlərlə dolu lüğəti təkrar nəşr edirlər. İnsanlar da qalır çaşqınlıq içində. Bu iş dövlət səviyyəsində həll olunmalıdır. Biri var tərcümə lüğəti, izahlı lüğət, biri də var, dilin konstitusiyası olan “Orfoqrafiya lüğəti”. Bu, qanun kitabıdır. 2020-ci ildə biz lüğəti nəşr edəndən sonra Dilçilik İnstitutunda neçə min söz çıxardılar ordan. Bütün yaradıcılığımı tərəzinin bir gözünə, lüğəti digər gözünə qoysam, bəlkə də, ikinci ağır gələr. Türk dünyasının ortaq ünsiyyəti üçün Türkiyə də bizim lüğəti çap etdi. Ankara Hacıtəpə Universitetində böyük təqdimatı keçirildi.

Ədəbi dilimizin günün tələblərinə cavab verən, daha mükəmməl orfoqrafiya lügətinin yaradılması ilə bağlı Dilçilik İnstitutu ilə mövqe və fikir ayrılığımız davam edir. Düzdür, müəyyən qeydlərimiz nəzərə alınıb. Amma düşünürəm ki, orfoqrafiya lüğətinin missiyası dilin mənzərəsini verməkdən savayı, sözlərin düzgün yazılış qaydasını da göstərməkdir.

Bizim nizamnamənin birinci cümləsi belədir: “Dövlət dilinin saflığının qorunması, o sahənin təkmilləşdirilməsi, zənginləşdirilməsi və tərcümə”. Dövlət Dil Komissiyası var, rəhbəri də Prezident İlham Əliyevdir, dilə də münasibəti çox ciddidir. Bizim mərkəzin yaradılması onun şəxsi təşəbbüsüdür. Ana dilinin problemlərinin həlli istiqamətində çox işlər var. Hələ bütün sahələrdə düzəldə bilməmişik, amma fundamental işlər görmüşük.

Azərbaycanın ədəbi nümunələrini müxtəlif dillərə tərcümə edilib dünyaya çıxarılması asan iş deyil. Dünyanın 120-dək nüfuzlu ədəbiyyat portalı daim Azərbaycan ədəbiyyatını işıqlandırır. Nizami, Nəsimi, Füzuli, həmçinin müasir Azərbaycan ədəbiyyatı o portallarda çap olunur. İşi yüksək səviyyədə qurmuşuq. Xaricdə də kitablar çap etdiririk, amma virtual aləm daha önəmlidir.

**– Qayıdaq yaradıcılığınıza. İlk hekayəniz “Ulduz” jurnalında çap olunub. 70-80-ci illərin, ədəbiyyatda özünüzü təsdiqlədiyiniz müstəqillik dövrünün hadisələri yaradıcılığınızda öz əksini necə tapıb?**

– İlk hekayələrim özümdən, mühitdən, qadın, onun duyğuları, ailə mövzularından bəhs edir. Sonra bir qədər genişlənib, amma yaradıcılığımda böyük dönüş 90-cı il hadisələrindən sonra oldu. Azadlıq, müstəqillik dönəmi, ölkədə aləm qarışdı, mən o mənzərəni gördüm. 20 Yanvar faciəsi və onun ətrafında yaşadıqlarımızdan sonra yaradıcılığımda kəskin bir dəyişiklik getdi. Ardınca pyeslər yazdıq. Ona görə yazdıq deyirəm ki, məni Vaqif İbrahimoğlu buna təhrik etdi, yanımda oldu. “Can üstə” hekayəm Vaqifin köməkliyi ilə pyes oldu.

Deyirdim ki, Vaqif, mən nasirəm, amma, o, həm izah, həm də isbat edirdi ki, həm də dramaturqsan. Məni məcbur etdi ki, pyes yazım. Dedi bu hekayənin qatları var, orada sirlər, müəmmalar yatır, sən bunu tələsik yazmısan, yenidən pyes kimi işləməlisən, altqatını açmalısan. Gözəl pyes və baxımlı tamaşa alındı.

**– Yazı prosesində hadisələrin axarına düşüb yaşayırsınız. Sonra o mühitdən qopub real həyata qayıtmaq çətin olmur ki?**

– İctimai qurumda çalışanda bəzən iş vaxtı əsərlərim üzərində işləyirdim. Otağa girən kimsə mənə deyirdi ki, ətrafınızda qəribə bir işıq əmələ gəlib. Bunu bir neçə dəfə eşitmişəm. Özüm də hiss etmişəm ki, hansı əsərim olursa-olsun, tutaq ki, “Can üstə”, mən orda zaman axarından çıxıram. Nə qədər çox yazsam, o qədər zamansızlaşıram.

**– “Mən hər gün, hər saat, hər dəqiqə özüm-özümdən, həyatdan yox, məhz özümdən o qədər informasiya alıram ki, ötüb keçənlərə burada yer qalmır. Duyğu sıçrayışlarım məni elə ərazilərə, elə məkanlara salır ki, bəzən onlardan qopub geri qayıda bilmirəm. Qayıdanda isə tamam ayrı adam olduğumu anlayıram” Bu düşüncələr sizi indi haraya gətirib çıxarıb?**

– Bu, beyində gedən proses deyil axı. Süni şəkildə etmirsən. Bəzi yazıçılar deyir ki, sən yazıçısan, hökmən hər gün bir səhifə də olsa yazmalısan. Məndə belə deyil. Heç vaxt beynimdə, şüurumda proqramlaşdırmıram. İstəyirəm yazıram, istəmirəm yazmıram. Daxili tələbatdan irəli gəlir. Deyirsiniz ki, oxucu ayrı zamana və ovqata düşür, çünki mən o ovqata, başqa zamana düşdüyüm vaxt yazıram. Qarşıma məqsəd qoymuram. Birdən elə hala düşürəm ki, çəkilib yazmalıyam. Bəziləri buna ilham deyir, amma o deyil. Son vaxtlar iş prosesində hiss etdim ki, mən istədiyim vaxt bu zamandan fərqli zamanlara keçə bilirəm. Elə bilin, bu kreslodan durub, digərində otururam, yəni, yazmaq artıq həyat tərzimə çevrilib. Həmin əraziyə keçirəm, yazıram, istəyəndə oradan çıxıram. İllər əvvəl ora düşməyim müşkül idi, amma indi istədiyim vaxt o haləyə girib-çıxıram.

**– Xalq yazıçısı Əli Vəliyevin nəvəsinə, görkəmli ədəbiyyatşünas Məsud Əlioğlunun qızına babadan və atadan ötürülənlər ziddiyyət təşkil etmir ki?**

– İlk növbədə, onlardan Azərbaycan dilinin kultunu qəbul etmişəm. Yəni ana dili bizim ailədə həmişə müqəddəs olub. Dildən sonra ədəbiyyat gəlirdi. Gənc yaşlarımda babama köhnəlmiş sovet yazıçısı kimi baxırdım. Sonradan onun əsərlərini yenidən oxuyub anladım ki, çox böyük yazıçıdır. Təkcə “Budağın xatirələri” mənə onu yenidən açdı. Ciddi ədəbiyyat nümunəsidir. Bəşəri ədəbi müstəviyə çıxarılsa çox gözəl qəbul edilər. Hələ çatdırıb əsərlərini tərcümə etməmişəm. Azərbaycan dili nümunəsi kimi böyük ədəbiyyatdır. Əlbəttə ki, mən istəsəm də, istəməsəm də onun əsərlərinin mənim yaradıcılığıma müəyyən təsiri olub. Hərçənd, biz fərqli yazıçılarıq. Babam sovet ədəbiyyatının nümayəndəsi, atam tənqidçi olub. Ondan intuitiv, duyğulu ab-hava götürmüşəm. Elə bilirəm, həmin zaman-məkan anlayışı atamdan keçib mənə. O, da fərqli zamanlara düşə bilib. Onda duyğusal partlayışlar olurdu. Bənzərsiz insan idi. Daim sovet quruluşunun əleyhinə danışır, rus dilini qamçılayırdı. Ona görə də hədsiz təzyiqlərlə qarşılaşırdı. Atamın və Xəlil Rzanın çapı qadağan edilmişdi. Onların hamısını görmüşəm və atamdan əyilməzliyi, düşündüyünü deyə bilməyini mənimsəmişəm. Bilirdi ki, bunu desə altını yalnız özü deyil, ailəsi də çəkəcək, amma deməyə bilmirdi...

**– “Zahirən hamı kimi yaşayıram... Amma bütün bu yeknəsəqliyin alt qatında sonsuz arakəsmələr var ki, onların qapıları daim aralı vəziyyətdədir”. Güman ki, arakəsmələrdə olmaq da genetik koddan gəlir.**

– O arakəsmələr sonsuzdur. Əsas odur ki, ora düşəsən. Gedib qayıdırsan, bəzən sənə elə gəlir ki, elə bir arakəsməyə düşə bilərsən ki, gedərsən və qayıtmazsan.

**– Deməli, ora hamının gedə bilmədiyi, amma gedənlərin qayıtmamaq ehtimalının da olduğu bir yerdir. Elə bir əsəriniz varmı ki, onu ədəbi bioqrafiyanızdan silmək istəmisiniz?**

– İndi düşdüyüm məkandan, zamandan kənarda olduğum vaxtlarda yazdığım bir-iki əsər var. O vaxtlar elə bilirdim ki, odur, amma o deyilmiş. Tələbəlikdən sonrakı illərdə yazmışam onları, kitaba salmamışam. Eləsi də var, işıq üzü görməyib, amma yeni kitablarımda çap etdirmişəm.

**– Yəni əslində, dəyişən siz deyilsiniz, zamandır?**

– Bilmirəm, dəyişən zamandır, yoxsa məkan? Onu necə adlandırmaq olar – zamanmı, yoxsa başqa bir şey? Hər halda, indi istədiyim an gedib oranın sakini oluram. Bunun üçün mənə ilham pərisi lazım deyil. Bu, ilahi sevgidir.

*Söhbətləşdi:*
***Ramilə QURBANLI***
***XQ***



# TDT hüquqşünasları Baş prokurorluqda

**Baş prokuror Kamran Əliyev ölkəmizdə “Türk dövlətlərinin hüquq tətbiqetmə fəaliyyətlərində rəqəmsallaşma və inteqrasiya” mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçıları ilə görüşüb.**

Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Şimali Kipr Türk Respublikasından olan qonaqları salamlayan Baş prokuror tarixi bağları və ortaq dəyərləri olan qardaş və dost türk dövlətlərinin müxtəlif qurumları, o cümlədən prokurorluq orqanları arasında əlaqələrin gücləndirilməsinin önəmli olduğunu bildirib.

Baş prokuror böyük coğrafiyanı əhatə edən türk dünyasının hüquq mühafizə orqanlarının akademik dairələri arasında qarşılıqlı və səmərəli əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırmaqla, keçirilmiş konfransın müasir zamanın tələblərinə uyğun hüquq tətbiqetmə sahəsində rəqəmsallaşma üçün çağırışlara tutarlı cavab verməyə xidmət edəcəyini, mövcud potensialın inkişafında və qarşılıqlı fəaliyyətin əlaqələndirilməsində səmərəli vasitə olacağını bildirib.

Konfrans iştirakçıları göstərilmiş qonaqpərvərliyə görə təşəkkür ifadə edərək dövlətlərimiz və xalqlarımız arasında dostluq və qardaşlıq münasibətlərinə böyük önəm verdiklərini qeyd ediblər.

**XQ**

# TÜRKPA-nın qadın deputatlarının iclası



**İyunun 5-də Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) 13-cü Plenar iclası çərçivəsində Qadın Parlamentarilər Qrupunun 3-cü iclası keçirilib.**

“Qadınlar – TÜRKPA üzv dövlətlərində iqtisadiyyatın onurğa sütunu, sahibkarlığın hərəkətverici qüvvəsi” mövzusuna həsr olunmuş tədbiri TÜRKPA Qadın Parlamentarilər Qrupunun rəhbəri, Türkiyə Böyük Millət Məclisinin üzvü Zeynep Yıldız açaraq, yaradılan şəraitə və qonaqpərvərliyə görə Azərbaycan tərəfinə öz təşəkkürünü ifadə edib.

Zeynep Yıldız çıxışında qadınlar və kişilər üçün bərabər imkanların yaradılması, qadınların səlahiyyətlərinin genişləndirilməsi, hamı üçün davamlı və inklüziv iqtisadi artımın təmin edilməsi, məşğulluğun və layiqli iş mühitini təşviqinin vacibliyindən söhbət açıb. O, qeyd edib ki, iqtisadiyyatın dayağı və sahibkarlığın hərəkətverici qüvvəsi olan qadın sahibkarlığının inkişafı böyük əhəmiyyət kəsb edir.

Sonra iclasda Azərbaycan Milli Məclisinin deputatları Məlahət İbrahimqızı, Sədaqət Vəliyeva, Qırğız Respublikası Joqorku Keneşinin üzvü Çolpon Sultanbekova, Özbəkistan Respublikası Ali Məclisi Senatının üzvü Gülnora Marufova, Özbəkistan Ali Məclisi Qanunvericilik Palatasının üzvü Umidaxon Zakirova, Şimali Kipr Türk Respublikası Məclisinin üzvü İzlem Gürçağ Altuğra çıxış ediblər.

Parlamentarilər müasir dünyada qadınların cəmiyyətin bütün sahələrində təmsil olunduğunu, o cümlədən dövlətin idarəolunmasında fəal iştirak etdiyini, sosial-iqtisadi həyatda gender bərabərliyinin təmin edildiyini bildiriblər. İclas iştirakçıları ictimai-siyasi həyatda qadınların artan rolundan, onların iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyəti üçün uyğun şəraitin yaradılmasının vacibliyindən bəhs ediblər.

**XQ**

# Qırğızıstanın parlament heyəti Füzuli və Şuşada

**Azərbaycanda rəsmi səfərdə olan Qırğız Respublikası Joqorku Keneşinin sədri Nurlanbek Şakiyevin başçılıq etdiyi parlament nümayəndə heyəti iyunun 5-də Füzuli və Şuşa şəhərlərində olub.**

Əvvəlcə nümayəndə heyəti Füzuli Beynəlxalq Hava Limanı ilə tanış olub. Sonra qonaqlar Füzuli şəhərinə gəliblər. Onlara Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılmış Füzulidə törədilən dağıntılar, vandalizm aktları barədə məlumat verilib. Bildirilib ki, erməni vandalları işğal etdikləri digər şəhər və kəndlər kimi, Füzuli şəhərini də talayıb, yer üzündən siliblər. İşğal dövründə bütün evlər, infrastruktur, sosial obyektlər dağıdılıb, təsərrüfatlar məhv edilib.

Qonaqlara rayon işğaldan azad edildikdən sonra Füzuli şəhərində Baş plana uyğun olaraq Azərbaycan dövləti tərəfindən həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri barədə məlumat verilib. Şəhərdə ilk yaşayış məhəlləsinin inşasının yekunlaşdığı və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışının başlandığı bildirilib.

Sonra qırğız nümayəndə heyəti Şuşa şəhərinə yola düşüb.




Qırğızıstan nümayəndə heyətinə Şuşa şəhərinin tarixi, işğal dövründəki vəziyyəti və burada aparılan quruculuq işləri barədə məlumat verilib.

Səfərdə qonaqları Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, Azərbaycan-Qırğızıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Musa Quliyev, ölkəmizin Qırğızıstandakı səfiri Lətif Qəndilov və digər rəsmi şəxslər müşayiət ediblər.

**XQ**

# Peşəkar jurnalist, nüfuzlu ziyalı

**Həm özü mətbuatda formalaşan, həm də mətbuatın zamana görə formalaşmasında xidməti olan ziyalılardan biri də Şərif Kərimlidir. O, hər vaxt təmənnasız çalışıb, iddiadan çox, səmimi ictimai vətəndaş töhfəsinə üstünlük verib.**



Şərif Kərimli 1954-cü ilin iyununda ulu Borçalıda doğulub, 1977-ci ildə BDU-nun jurnalistika fakültəsini bitirib. 47 ildir ki, mətbuatda çalışır. Tələbəliyində Tanrı lütfü ilə ustad müəllimlərdən dərs aldığı kimi, jurnalistikada da Əjdər Xanbabayev, Məmməd İsmayıl, Sabir Rüstəmxanlı kimi ünlü sənətkarlardan öyrənib.

Müstəqillik mücadiləsi dövründə ilk müstəqil mətbuat orqanı olan "Azərbaycan" qəzetində məsul katib, baş redaktor müavini olub. 1992-ci ildə bu qəzet 31 nəfər jurnalistin Milli Məclisə ünvanladığı məktub əsasında cümhuriyyət dövrünün parlament orqanı olan "Azərbaycan" qəzetinin hüquqi varisi olaraq fəaliyyətə başlayıb və Şərif müəllim orada baş redaktor vəzifəsini tutub.

90-cı illərin önlərində ən böyük acımız Qarabağa və Qərbi Azərbaycanda torpaqlarımıza və soydaşlarımıza qarşı erməni təcavüzünün baş qaldırması idi. Bir yandan da Gürcüstanda Qamsaxurdiya dövründə tarixi saxtalaşdırmaq cəhdləri, Borçalıda soydaşlarımızın hüquq və azadlıqlarına sayğısızlıq, milli ayrı-seçkilik özünü göstərirdi. Şərif Kərimli belə bir ziddiyyətli zamanda "Azərbaycan"da qələmdaşları ilə birlikdə əsgər əhval-ruhiyyəsində çalışırdı. Tez-tez qaynar nöqtələrdən reportajlar, ictimai diskussiyalar hazırlayırdı. Qəzetdə Sabir Rüstəmxanlının atdığı irəliçi, demokratik təməl sonradan Şərif Kərimlinin redaktorluğunda özünəməxsus şəkildə davam elədi. Qəzet nəinki günün nəbzini tuturdu, o həm də nəbzi idarə edə bilirdi.

Mən də onunla işləmişəm, yanında təcrübə qazanmışam. Komendant saatlarının qadağası üzündən gecələri nəşriyyat dəhlizlərində birlikdə keçirmişik. Cəbhə bölgələrində gözlərimiz qəhrəmanlıq da, ölüm də görüb...

Şərif Kərimlinin yazar kimliyi haqqında ən etibarlı mənbələr onun araşdırma yazıları, ictimai-siyasi publisistikası, sənədli bədii əsərləridir. O, reportyor, publisist, qəzetçi-yazar kimi zamanında məşhurluğun nə olduğunu görən, amma bundan zərrəcə sui-istifadə etməyən ustad qələm adamıdır. Onun publisistikası mövzusuna, xarakterinə görə bütünlüklə milli, ictimai və mətn texnologiyası etibarilə fərqli mahiyyətə malikdir. Onun yazılarında həm mənbəli xəbər, həm fakt, həm analitik münasibət, həm də bədii təsvir vasitələri iç-içə təzahür edir. Elə bu da Şərif müəllimin publisist kimi orijinallığıdır – "Ötən illərin harayı" adlı dördcildliyi və "8712 nömrəli əsir", "Gürcüstan: ikili standart siyasətinin yeni qurbanı" kimi.

Akademik Nizami Cəfərov "O yaşadıqlarından danışır…" adlı məqaləsində Şərif Kərimlini konkret faktlarla əsl ziyalı kimi xarakterizə edib. İctimai-siyasi hadisələrə heç vaxt birtərəfli şəkildə yanaşmadığını, həmişə problemi tam aydınlığı ilə cəmiyyətə təqdim etdiyini vurğulayıb. "Azərbaycan" qəzetinin ilk baş redaktoru, Xalq şairi Sabir Rüstəmxanlı da onun haqqında qədirbilən və təqdiredici fikirlərini səmimiyyətlə yazıb. Onun Azərbaycan–Gürcüstan dostluğu ideyasını təkcə bu iki ölkənin mətbuatında deyil, eyni zamanda dünyada tanınmış, nüfuzlu, "Novoe russkoe slovo" (ABŞ), "Nezavisimaya qazeta" (Rusiya), "İslami Birlik" (İran), "Sabah" (Turkiyə) kimi qəzetlərdə təbliğ etdiyini göstərib...

Şərif Kərimli idman jurnalisti deyil, amma çağdaş dövrümüzdə el pəhləvanlarından yazan usta yazıçı-publisistdir. "Rəşid Pəhləvan", "Sali Süleyman", "Pəhləvan Müsəllim", "Pəhləvanın taleyi" (Məhəmmədəli Qazaxlı haqqında) kimi əsərləri bunu deyir.

Onun digər yazılarına da doğulduğu yurdun torpağının ətri, insanlarının comərd həyatının ritmi-yaşantısı, təbiətinin rəngi-səfası hopub. "Böyük fəlakətin astanasında", "Bakıdan Borçalıya nə yaxınmış", "Bir köç qayıdır geri", "İflasa uğramış siyasət və gerçəklik", "Hara gedirsən, ay evi yıxılmış?!", "Mən qurban verildim", "Borçalı agrıları", "Gül verdik, güllə aldıq", "Borçalıdan Bakıya bir köç gəlir – qaytarmalıyıq!..", "İtirilən nəslin harayı" əsərləri günün, insan qayğılarının termoanalizi kimidir.

O, 1989-cu ildə qeydiyyatdan keçirdiyi "Borçalı", 1992-ci ildə təsisçisi olduğu "Sabah" qəzetlərində şovinizmi cəsarətlə qamçılayıb. Gürcüstanda millətçi şovinist qrupların içində katalizator rolunda çıxış edən ermənilərə qarşı mətbuatda etiraz səsini qaldıranlardan biri olub. Redaktoru olduğu "Azərbaycan" qəzetində daim Borçalı haqqında silsilə materiallar, vətəndaş məktubları, siyasi icmallar əksini tapıb. Borçalı əsilli ziyalılarla birgə səyləri "Borçalı" cəmiyyətinin yaranmasına gətirib çıxarıb. Bu gün Şərif müəllim "Borçalı" İB-nin sədridir.

Şərif Kərimli jurnalistikanın tədrisi ilə də məşğul olub. 10 ildən artıq pedaqoji fəaliyyət göstərib, gənclərə müasir jurnalistika məsələlərindən dərs verib. Hazırda isə Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin "Əqli Mülkiyyət" jurnalının ədəbi redaktorudur. Bu sistemdə işlədiyi son 5 ildə "Azərbaycan milli musiqi alətlərinin patentlə mühafizəsi", "Azərbaycan brendləri", "Haaqa sistemi" adlı elmi-praktik kitablar nəşr etdirib.

70 yaşında da şövqlə çalışan, yazmaqdan zövq alan yazara daha böyük yaradıcılıq sevincləri arzulayırıq.

***Dəyanət OSMANLI,***
***şair-publisist***

Ağacəfər Həsənli – 70

# Şair ömrünün "Zəng"i və zənginliyi

**Onun yaradıcılığı bütöv bir Vətən nəğməsidir. Şimalından qədim İtil – Volqa, cənubundan Kür–Araz və Rvarud çayları axıb Xəzərə tökülür və Azərbaycanın poeziya nəhrini daha da dolğunlaşdırır. Artıq 50 ildir ki, Ağacəfər Həsənlinin ilham çayları çağlamaqda, oxucunu dalğa-dalğa heyrətləndirməkdədir.**

Ötən əsrin 70-ci illərinin sonunda, "Azərbaycan" jurnalında gənclərə "yaşıl işıq" yandırılan vaxtdan tanıyıram onu. Həmin dərginin bir nömrəsində görkəmli yazıçımız Seyran Səxavətin rəhbərlik etdiyi ədəbi dərnək üzvlərinin poetik nümunələrinə gen-bol yer ayrılmışdı və rubrika məhz Ağacəfərin şeirləri ilə açılırdı. Əl-əl gəzən həmin "Azəbaycan"ın



səhifələrindən başlanan tanışlığımız sonradan əyanilləşdi və bugünə qədər davam edir. İndi artıq 70 yaşı olan şair dostumun dünənki yubiley məclisində özümə oturmağa yer tapmadığımı da indi sevinə-sevinə qeyd edirəm. Ağacəfərin şəxsiyyət və şair kimi heyranlarının sayı elə çoxdur ki, vaxt tapıb yubiley mərasiminə gələnlərin yarısı AYB-nin Natəvan klubuna güclə sığışmışdı.

***Müqəddəs ruhların behişt yeridir,***
***Ocaq Azərbaycan, pir Azərbaycan.***
***Harda baş ucaldan övladı varsa,***
***Orda bərqərardır bir Azərbaycan.***

Ağacəfər Həsənli özü baş ucaldan Vətən övladı olduğuna görədir ki, məclisində bu boyda qələbəlik yaranıb.

Tam bitkin, yetkin şair olan Ağacəfərin təbiətlə bağlı çoxlu gözəl şeirləri var. Özü demişkən, "tələbə bileti"nə aldanıb, açıq təbiət muzeyi olan yurd-yuvasından çıxaraq Bakıya gəlsə də, ürəyi elə oralardadır. AYB-dəki məclisində Xalq yazıçısı Anar, Xalq şairi Sabir Rüstəmxanlı, akademik Rafael Hüseynov, Milli Məclisin deputatı Musa Qasımlı, şair və yazıçılar İlqar Fəhmi, Vaqif Bəhmənli, Hüseynbala Mirələmov, Səlim Babullaoğlu, İslam Qəribli, Xeyrəddin Qoca və başqaları onun yaradıcılıq məziyyətlərindən danışanda təbiət mövzusuna yaxınlığını məxsusi qeyd etdilər. İlk dərnək rəhbəri Seyran Səxavət isə xatırlatdı ki, ruhən təbiətə çox yaxın olduğuna görə, dostları onun adı və soyadının ilk hərflərini calaq edərək şairi "Ağac" da adlandırıblar. Nə yaxşı ki, bu ağac barı, bəhrəsi ilə canlı bir təbiət abidəsi timsallıdır. Təsadüfi deyil ki, Ağacəfərin şeir toplularının biri "O ağacın kölgəsi", biri də "Ağac kitabxanalar" adlanır.

...Şəxsi kitabxanamda onun da əsərləri var. Amma, nədənsə, 1997-ci ildə çıxmış "Ürəyim döyünür, qapım döyülür" kitabını daha çox sevir, vaxtaşırı oxuyub zövq alıram. Onu da deyim ki, orta məktəbdə ədəbiyyat müəllimim olmuş, sonralar "Azərbaycan" jurnalında baş redaktor müavini kimi çalışmış Nadir Cabbarlı Ağacəfər Həsənlinin sağlam bir ağac kimi poetik boyartımına şahidliyini sanballı şəkildə qələmə almışdı: "Vaxtilə başı qarlı Zuvand dağlarının kövrək xatirələrinə, zümrüd rəngli Lerik meşələrinin göynər xiffətinə bələnmiş, dəli-dolu gəncliyin iztirabları ilə dolub-daşan Ağacəfərin şeirinin bu kitabın ("Ürəyim döyünür, qapım döyülür"-V.Y.) səhifələrində dünya kədərinə, "qəmi-aləmə" inadkar həssaslığı ilə qəfil qarşılaşsam da, açığını deyim ki, bu görüşə heyrətlənmədim. Çünki bu şeirlər, bir küll halında sübut edir ki, həmən həssaslıq intiutiv və spontan həssaslıq deyildir. Onda hər hansı bir ədəbi dəbin əlamət və izlərini axtarmaq da əbəsdir. Dünya kədərinə, aləm qəminə dəruni canatma, hər şeydən əvvəl, bu şeirlərin stixiyasından irəli gəlir, gerçəkliyə bədii nüfuzun mahiyyətini əks etdirir".

Elə məclisdə də deyildiyi kimi, "dərd əlindən dağa çıxan" mənəvi babası Məhəmməd Füzulini gözəl bilən, əruzu heyrətamiz bir tərzdə anladan Ağacəfər yazılarında dərd dağını yaylağa çevirə bilən bir qələm sahibidir.

Təsadüfə baxın ki, bu il onun çox sevdiyi Məhəmməd Füzulinin 530 illiyini qeyd edirik. Dünən Mikayıl Müşfiqin doğum günü idi, eyni zamanda, Vaqif Səmədoğlunun 85 yaşı tamam oldu. Bu gün isə həm də Aleksandr Puşkin 225 yaşına çatıb. Belə bir poetik ab-havada Bakıda, AYB-nin Natəvan klubunda şeirsevərlərin Ağacəfər Həsənlinin başına toplaşmasında, bəlkə də, bir qanunauyğunluq var.

Sonda qeyd edim ki, günümüzün sayılıb-seçilən şairinin yenicə çapdan çıxmış "Zəng" kitabının məclis iştirakçılarına poeziya adına ərməğan olunması da fərəhləndirici hadisədir.

***Əli NƏCƏFXANLI***
***XQ***

Dəyərlərə dəyməyək!

# Sənətdə yanlış naxış deyil

**Mahnı tikili evdirsə, sözlər onun gəci, sementidir. Musiqisi məlahətli, axıcı və şaqraq, sözləri mənalı və dəyərli olmalıdır ki, "çat" verməsin, bəyənilib sevilsin, dillərə düşüb yayılsın. Bunlar qoşa qanad kimidir. Ünlü bəstəkarlar həm də sözün mənasına, dəyərinə, mənəvi yükünə önəm verərək, mahnılarının ölməzliyini təmin ediblər.**

Ötənlərin mahnı yaradıcılığında bir önəmli cəhət də məhz peşəkar şairlərin yazdığı mahnı mətnlərindən istifadə olub. Demirik ki, mahnı üçün mətn seçərkən yalnız adlı-sanlı şairlərə müraciət edilməlidir. Ola bilər ki, mətnlərin müəllifi tanınmış şair olmasın, amma sözlərindən dürr tökülməsi, ifa olunan duyğuların müşk-ənbər qoxuması, musiqiyə yatımlı olması vacibdir. Təəssüf ki, indi mahnılar, əsasən, şairsiz, bəzən də bəstəkarsız yaranır, daha doğusu, düzəldilir.

Subyektiv qənaətimizə görə, mahnı janrında çalışan bəstəkar və müğənnilər poeziyanı bilməlidirlər. Yəni ədəbi zövqləri olmalıdır, çoxlu şeir kitabı oxumalıdırlar. Onda hansısa mətni bəyənib seçə və uğurlu nəğməyə çevirə bilərlər. "Balvanka"ya söz pərçimləməyə də ehtiyac qalmaz. Deyəcəksiniz, nə qoyub, nə axtarırsan? İxtisasca filoloq olan İlhamə Quliyevanı, Baloğlan Əşrəfovu indi hardan tapaq?

NADO adlanan bir qrupun mahnısının sözləri adamı lap ağladır: **"Hər bir göz yaşının damlasının axmasına səbəbkar mənəm. İlk öncə Allahın, sonra da sənin qarşında mən günahkaram".** – Əndrəbadi SMS cümlələrinə oxşayır. Bir deyən də yoxdur ki, "Ay NADO, mojet ne nado..."

Ramal İsrafilov potensiallı müğənnidir. Amma o da hərdən, necə deyərlər, ucundan tutub ucuzluğa gedir:

**Zamanımı alma, gedişimi alma (?),**
**Biletini alma, qatarlar getdi, ama getdi, axtarma... (?)**
**Gecələri sənsizlikdən inan tək (?) ağlayıram.**

Qoçaq Əsgərovun ifasında "Barama" xalq mahnısına fikir verək:

**Bərəyə bax, bərəyə,**
**Neyçün baxdın bərəyə?**

Əşi, sən dedin, mən də baxdım da...Göründüyü kimi, aşkar təhrifə yol verilib. Qoçaqsa yenə səhv oxuyur:

**Özüm özünə qurban,**
**Gözlərin gözlərimə...**

– Əlbəttə, "Gözlərim gözlərinə" oxunmalıdır.

Teyyub Aslanov:

**Bu nə sirdi, düşdüm, ana,**
**Eşq oduna düşdüm, ana!**

Şeirdirsə, qafiyəsi hanı? "Eşq oduna bişdim, ana" – desə, yaxşı olmazmı?

Mərhum Ramiz Mirişli ilə Fikrət Qocanın gözəl bir mahnısı var: "Bir xumar baxışla". Çox müğənnilər ifa edib. Ancaq Şövkət Ələkbərova və İlhamə Quliyevadan başqa, bu mahnıya müraciət edənlərin hamısı sözlərdə səhvə yol verib. "Bir xumar baxışla səadət bağışla" kimi gözəl ifadəni "Bir xumar baxışla səadət baxışla" kimi oxuyublar. Hətta çox sevdiyimiz Flora Kərimova da.

Bayağı musiqi, saxta sızıltı, "ay aman" dolu fəryadlar dinləyicini yormaqla bərabər, onun zövqünə də mənfi təsir göstərir. Murad Arif adlı bir bəstəkar-şairin "Bu şəhər ikimizə dar" mahnısı, insafən, ritmik və xoşagələndir. Amma sözlərdəki anlaşılmazlığı heç yerə yozmaq olmur:

**Bu şəhər ikimizə dar (?),**
**Keçilməz küçələrini (?).**
**Gündüzləri özünlə apar,**
**Mənə burax gecələrini (?).**

Kişi, guya, Anadolu ləhcəsində oxuyur. Ədalət Şükürov da özü yoğurub, özü yapır. Bir mahnısında uğursuz biznesmen təsiri bağışlayır:

**Eşqi verdin bada sən,**
**Sevdim səni, nə fayda?..**

Yaxud Natəvan Həbibinin oxuduğu sözlər:

**Sus, gözlərin hər şeyi deyir,**
**Sevgidən bizə nə xeyir?**

Sevgisindən fayda, xeyir güdən aşiqlərin "tacir psixologoyası" təəssüf doğurur. Və sair və ilaxır. Qısası, musiqi sənəti aləmində intellektual səviyyəsi, savadı olanların sayı azdır. Savadsızların isə mətnə münasibəti də qaba olur.



İndi də elə bu yazını çapa hazırlayarkən, necə deyərlər, qulağım çalan daha bir neçə yanlış ifanı misal çəkim. Zalımlar mənasını, məntiqini bilmədikləri sözləri, bəlkə də, elə bilmədən səhv oxuyurlar:

**"Ömür olur şən (tən!) deyir,**
**Vaxt ötür, evlən deyir".**

Yaxud:

**"Gecəni qan (dan!) eyləmə,**
**Zülfünü yan eyləmə".**

Bu isə bir filoloq-alim-şairin sözləridir:

**"Muğam, sənət keşiyisən(?), Abşeronum...**

– Burda qafiyə xatirinə əllaməlik edildiyi göz önündə, qulaq pərdəsindədir.

Bir adıbilinməzsə görün, nə oxuyur:

**"Gülürəm inadına**
**Qaldırıb içirəm gecə adına mey**
**Sıra-sıra dərdləri düzdük, heyif,**
**Boş adamlar bizlik deyil" (?).**

Deməki istəyirsən ki, elə söz qoşmaq da sizlik deyil, ay bala! Böyük bir Xalq artisti isə, görün, necə oxuyur: "Yenə bu səhər Günəş nur yerə əylər"(?) Yəqin, "ələr" və ya da "çilər" demək istəyib, amma söz qəlibə yatmayıb.

Millətin, az qala, yarısının şair olduğu bir məmləkətdə mahnı ifaçılığında belə yanlışlıqlara yol verilməsi məsuliyyətsizlikdən, ən azı, dinləyici auditoriyasına hörmətsizlikdən başqa bir şey deyil. Mənasız söz yığınını sıralamaq, kupletləşdirmək ifaçılıq səviyyəsi sayılmaz.

Nəhayət, milli musiqinin əsas qollarından olan mahnı yaradıcılığına biganəlik estetik zövqün korlanmasına, dilin bərbad hala salınmasına "xidmət" edir ki, bu da yolverilməzdir.

***Ə.DOSTƏLİ***
***XQ***

# Rəssamın xatirə sərgisi

**Rəssamlar İttifaqının Vəcihə Səmədova adlı sərgi qalereyasında mərhum rəssam Kərim Cəlalın fərdi sergisi açılıb. Bu il onun 80 yaşı tamam olur.**



Sərgidə müəllifin müxtəlif rənglərin ahəngindən yaranan, onun daxili aləmini və duyğusunu önə çıxaran "Kötük", "Adəm və həvva", "Ata yurdu", "Ağ at ilində", Elegiya", "Dədə Qorqud", "Bir portretlə iki baxış" və başqa əsərləri nümayiş olunur.

Rəssam Kərim Cəlal da həyatın içindən gələn, Van Qoq, Qogen kimi əsl sənətkar taleyi, ömrü yaşayan bir sənətkar olmuşdur. Elə bunun nəticəsidir ki, onun yaradıcılığında yaşadığı və təxəyyülündə canlandırıb yaşatdığı zamanların izləri, görkəmi, rəngi, ab-havası belə canlı və diridir.

Tanınmış fırça ustasının yaratdığı müxtəlif mövzulu əsərləri ABŞ, Almaniya, İran və Hollandiya muzeylərini və şəxsi kolleksiyaları bəzəyir.

***Fidan SALMANOVA***
***XQ***

# Telli sazın Qərbi Azərbaycan dünyası

**Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin 2024-cü il üçün kiçik qrant müsabiqəsində "Qərbi Azərbaycana qayıdış prosesi" istiqaməti üzrə qalib olan Azərbaycan Aşıqlar Birliyində artıq layihənin həyata keçirilməsi istiqamətində fəal işlərə başlanılıb.**




Bu barədə məlumat verən Birliyin katibi, layihənin rəhbəri, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu bildirib ki, "Çağdaş Qərbi Azərbaycan aşıqlarının musiqi repertuarı" adlanan layihədə əsas məqsəd ulu yurd yerlərimizin aşıq sənətinin əsas beşiklərindən biri olmasına diqqət çəkmək, öz dədə-baba torpaqlarından didərgin salınaraq bu gün Azərbaycanın müxtəlif guşlərində məskunlaşmış aşıqların yaradıcılıq fəaliyyətinə əlavə stimul verməkdir. Əsas diqqət ona yönəldiləcək ki, onlar bu gün ölkəmizin müxtəlif bölgələrində yaşasalar da, Göyçə, İrəvan, Dərələyəz, Zəngəzur, Ağbaba, Loru-Pəmbək aşıq mühitlərinin ənənəsini necə qoruyub yaşada biliblər.

Layihənin icra planına uyğun olaraq, ilkin mərhələdə ifaları diskə daxil ediləcək aşıqlarının müəyyənləşdirilməsinə başlanılıb. Bütün Qərbi Azərbaycan aşıq mühitlərinin təmsil olunmasına diqqət yetirilir, didərginlik taleyi yaşayan aşıqların ifaları dinlənilərək, audiodiskə daxil edilməsi dəqiqləşdirilir. Bundan sonra isə hər aşığın səsinə uyğun olaraq aşıq havası seçiləcək və bölgə ilə bağlı olan havalara üstünlük veriləcək. Mətn seçimində isə Vətən və vətənpərvərlik, Qərbi Azərbaycandakı yurd yerlərimizlə bağlı şeirlər üstünlük təşkil edəcək.

***XQ***

## Azərbaycan Notariat Palatası Mətbuat xidməti üzrə "Mətbuat katibi" vəzifəsinə vakansiya elan edir

Azərbaycan Notariat Palatası notariat xidmətinin inkişafı və təkmilləşdirilməsi məqsədilə notariusların məcburi üzvlüyü əsasında yaradılan, fəaliyyətini özünüidarəetmə prinsipi üzrə həyata keçirən qeyri-kommersiya hüquqi şəxsidir. Notariat Palatası Azərbaycan Respublikasında xüsusi qaydada fəaliyyət göstərən bütün notariusları özündə birləşdirir. Palatanın fəaliyyəti barədə www.aznotary.az saytından ətraflı məlumat əldə edə bilərsiniz.

**Mətbuat katibi**
Əsas vəzifə öhdəlikləri:
• Mətbuat xidmətinin dövri iş planlarını hazırlamaq və Palatanın İdarə Heyətinə təqdim etmək;
• Mətbuat xidmətinin işini təşkil etmək;
• Palatanın fəaliyyətinin əsas istiqamətləri, qəbul etdiyi qərarlar, keçirdiyi tədbirlər, müvafiq dövrləri əks etdirən nəticələr, fəaliyyətin təkmilləşdirilməsi ilə əlaqədar tətbiq edilən layihələr və yeniliklər və s. barədə müvafiq məlumatları ictimaiyyətə çatdırmaq, bununla əlaqədar press-reliz, məlumat bülleteni hazırlamaq, habelə mətbuat konfranslarının və brifinqlərin keçirilməsini, məlumatların mediada yerləşdirilməsini təşkil etmək;
• Palatanın internet saytının və Facebook səhifəsinin səmərəliliyini artırmaq, bunun üçün veb saytda və facebook səhifəsində Palatanın fəaliyyətini əhatəli əks etdirmək;
• Palatanın ictimaiyyətlə və media ilə əlaqələr sahəsində işlərin təşkilini və tənzimlənməsini təmin etmək və bunun üçün Palatanın fəaliyyətinin mediada işıqlandırılmasını və bununla bağlı zəruri tədbirlərin görülməsini təmin etmək;
• Media ilə işgüzar əlaqələr aparmaq;
• Respublikada fəaliyyət göstərən hüquq təsisatlarının hüquqi mövzularda keçirilən tədbirlərini izləmək, zəruri və faydalı məlumatları əldə etmək və ümumiləşdirilmiş təkliflər planı hazırlamaq;
• Fəaliyyət istiqamətləri üzrə fiziki və hüquqi şəxslərdən və dövlət orqanlarından daxil olan müraciətlərə və sorğulara baxılmasında qanunvericiliyə uyğun olaraq iştirak etmək;
• Hüquq və notariat sahəsi üzrə aparılan araşdırmalar, əldə olunan nəticələr, keçirilən tədbirlər haqqında məlumatların ictimaiyyətə və mediaya operativ və sistemli şəkildə ötürülməsini təmin etmək;
• Notariat sahəsi ilə bağlı xarici medianı mütəmadi izləmək, müvafiq informasiyaları qruplaşdırmaq, təhlil etmək və rəhbərliyə arayışlar təqdim etmək;
• Palatanın dövri nəşrlərini hazırlamaq, yerləşdirilən informasiyaların məzmununun əhatəliliyinə və etibarlılığına nəzarət etmək;
• Notariat fəaliyyəti ilə bağlı əhəmiyyət kəsb edən məsələlərə dair sorğular keçirilməsini təşkil etmək, əldə edilən nəticələri təhlil etmək və aidiyyəti üzrə təqdim etmək;
• Mətbuat xidməti üzrə dövri hesabatları hazırlamaq və İdarə Heyətinə təqdim etmək;
• Palata rəhbərliyinin verdiyi digər tapşırıqları icra etmək.

**İş şərtləri:**
Əmək müqaviləsi bağlanılır.
İş vaxtı: 09:00 - 18:00.
İş günü: Bazar ertəsi- Cümə.

**Namizəd üçün tələblər:**
Ali təhsil.
Mətbuat xidməti sahəsində ən azı 5 il iş təcrübəsi.
Ən azı bir xarici dil biliyi (sərbəst səviyyədə).
Microsoft Office (Word, Excel, Power Point) proqramlarında sərbəst işləmək bacarığı.

**Şəxsi keyfiyyətlər:**
Təşkilatçılıq bacarığı, analitik düşüncə qabiliyyəti, intizamlılıq, ünsiyyətcillik.
Yeni bilik və bacarıqları özündə inkişaf etdirmək həvəsi.

**Məlumatlandırıcı qeydlər:**
CV formanızı göndərmədən öncə iş elanı ilə ətraflı tanış olun.
CV formasında əsas məlumatları lokanik və aydın qeyd edin.
Vakansiya üzrə müraciətlər 01 avqust 2024-cü il tarixədək qəbul olunacaqdır.
İşə qəbul prosesinin növbəti mərhələsi ilə bağlı ümumi tələblərə uyğun gələn namizədlərlə müsahibə keçirilməsi üçün əlaqə saxlanılacaqdır.

Vakansiya ilə maraqlanan namizədlərdən CV-lərini (CV formasını Notariat Palatasının aznotary.az saytında "Vakansiya" bölməsindən götürə bilərsiniz) vakansiya@aznotary.az -mail ünvanına göndərmələri və e-mailin mövzu hissəsində mütləq "Vakansiya" qeyd etmələri xahiş olunur.

## Azərbaycan Notariat Palatası Qanunvericilik şöbəsi üzrə "Baş məsləhətçi" vəzifəsinə vakansiya elan edir

Azərbaycan Notariat Palatası notariat xidmətinin inkişafı və təkmilləşdirilməsi məqsədilə notariusların məcburi üzvlüyü əsasında yaradılan, fəaliyyətini özünüidarəetmə prinsipi üzrə həyata keçirən qeyri-kommersiya hüquqi şəxsidir. Notariat Palatası Azərbaycan Respublikasında xüsusi qaydada fəaliyyət göstərən bütün notariusları özündə birləşdirir. Palatanın fəaliyyəti barədə www.aznotary.az saytından ətraflı məlumat əldə edə bilərsiniz.

**Baş məsləhətçi**
**Əsas vəzifə öhdəlikləri:**

• Palatanın iş planına uyğun olaraq müəyyən edilmiş hüquqi mövzularda araşdırmalar aparmaq, təkliflər və rəylər hazırlamaq;
• Palata rəhbərliyinin tapşırığı ilə Palatanın qanunvericilik məsələləri üzrə fəaliyyət istiqamətlərinə aid məsələlərin tənzimlənməsində iştirak etmək;
• Hüquq və notariat sahəsində qanunvericilik aktlarının, metodiki tövsiyələrin və xidməti təlimatların, qaydaların və s. sənədlərin layihələrinin hazırlanmasında iştirak etmək, onların təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək, normativ-hüquqi aktların layihələrinə və digər hüquqi xarakterli sənədlərə dair rəylər hazırlamaq,
• Fiziki və hüquqi şəxslərdən, həmçinin dövlət orqanlarından daxil olan hüquqi xarakterli sorğular və müraciətlər üzrə qanunvericiliklə müəyyən olunmuş qaydada araşdırmalar aparmaq və cavablar hazırlamaq;
• Hüquq və notariat fəaliyyətinin aktual məsələlərini əhatə edən mövzular üzrə Palatanın Şuralarının müzakirəsi üçün təkliflər vermək;
• Hüquq və notariat sahəsində hüquqi təbliğat və maarifləndirmə işinin aparılmasında iştirak etmək;
• Notariat fəaliyyətinin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması üzrə təkliflər vermək;
• Notariat fəaliyyətinin aktual məsələləri barədə hüquqi təbliğat məqsədilə məqalələr və çıxışlar hazırlamaq;
• Palata tərəfindən təşkil olunan tədbirlərdə (seminar, konfrans, təlim, müzakirə, dəyirmi masa və s.) iştirak etmək, müzakirə edilən məsələlər barədə təhlillər aparmaq və təkliflər vermək;
• Notariat fəaliyyəti üzrə beynəlxaq təcrübəni araşdırmaq, notariat sahəsində xarici normativ aktlarla milli qanunvericiliyin müqayisəli təhlilini aparmaq və bu istiqamətdə səmərələşdirici təkliflər vermək;
• Palata rəhbərliyinin verdiyi digər tapşırıqları icra etmək.

**İş şərtləri:**
Əmək müqaviləsi bağlanılır.
İş vaxtı: 09:00 - 18:00.
İş günü: Bazar ertəsi- Cümə.

**Namizəd üçün tələblər:**
Ali təhsil.
Hüquq sahəsində ən azı 5 il iş təcrübəsi.
Ən azı bir xarici dil biliyi (sərbəst səviyyədə).
Microsoft Office (Word, Excel, Power Point) proqramlarında sərbəst işləmək bacarığı.

**Şəxsi keyfiyyətlər:**
Analitik düşüncə qabiliyyəti, intizamlılıq, ünsiyyətcillik.
Yeni bilik və bacarıqları özündə inkişaf etdirmək həvəsi.

**Məlumatlandırıcı qeydlər:**
CV formanızı göndərmədən öncə iş elanı ilə ətraflı tanış olun.
CV formasında əsas məlumatları lokanik və aydın qeyd edin.
Vakansiya üzrə müraciətlər 01 avqust 2024-cü il tarixədək qəbul olunacaqdır.
İşə qəbul prosesinin növbəti mərhələsi ilə bağlı ümumi tələblərə uyğun gələn namizədlərlə müsahibə keçirilməsi üçün əlaqə saxlanılacaqdır.

Vakansiya ilə maraqlanan namizədlərdən CV-lərini (CV formasını Notariat Palatasının aznotary.az saytında "Vakansiya" bölməsindən götürə bilərsiniz) vakansiya@aznotary.az -mail ünvanına göndərmələri və e-mailin mövzu hissəsində mütləq "Vakansiya" qeyd etmələri xahiş olunur.

## Azərbaycan Notariat Palatası Təlim-Tədris Mərkəzi üzrə "Rəis müavini" vəzifəsinə vakansiya elan edir

Azərbaycan Notariat Palatası notariat xidmətinin inkişafı və təkmilləşdirilməsi məqsədilə notariusların məcburi üzvlüyü əsasında yaradılan, fəaliyyətini özünüidarəetmə prinsipi üzrə həyata keçirən qeyri-kommersiya hüquqi şəxsidir. Notariat Palatası Azərbaycan Respublikasında xüsusi qaydada fəaliyyət göstərən bütün notariusları özündə birləşdirir. Palatanın fəaliyyəti barədə www.aznotary.az saytından ətraflı məlumat əldə edə bilərsiniz.

**Təlim - Tədris Mərkəzi üzrə:**
**Rəis müavini**
Əsas vəzifə öhdəlikləri:
• Tədris işinin dövri iş planlarının hazırlanmasında iştirak etmək;
• Tədris məsələləri ilə bağlı işin təşkilində iştirak etmək;
• Notariat sahəsində kadrların hazırlığı prosesinin təkmilləşdirilməsinə dair təkliflər vermək;
• Hüquq və notariat sahəsi üzrə hüquqi və institusional məsələlər, hüququn tətbiqi ilə bağlı araşdırma, ümumi analiz və hüquqi təhlillər aparmaq;
• Notariat Palatasının Elmi-Metodiki Şurasının müzakirəsi üçün Şuranın gündəliyinə çıxarılan təkliflərin və arayışların hazırlanmasında iştirak etmək;
• Notariat sahəsinin təlim-tədris məsələləri üzrə, eləcə də notariat sahəsi ilə əlaqəli sahələrarası hüquqi məsələlər üzrə notariusların, ixtisaslaşmış hüquqşünasların və notariat ofisi əməkdaşlarının iştirakı ilə müzakirələrin aparılmasının təşkilində və zərurət olduqda aktual məsələlər ilə bağlı işçi qruplarının təşkilində iştirak etmək;
• Əlavə təhsilin və təkmilləşdirmənin təmin edilməsi məqsədi ilə tələbatları öyrənmək və müvafiq təkliflər hazırlamaq;
• Ölkədaxili və xarici ölkələrin notariat sahəsində təhsil və tədrislə məşğul olan qurumları ilə əlaqələr qurmaq, əməkdaşlığın həyata keçirilməsi barədə təkliflər vermək və təhsil-təcrübə mübadilələrinin təşkilində iştirak etmək;
• Mərkəzdə keçirilmiş kurslar, iştirakçılar barədə dövri hesabatların tərtib edilməsində iştirak etmək;
• İdarə Heyətinin razılığı ilə notariat xidmətinin inkişaf etdirilməsi məqsədilə beynəlxalq elm nümayəndələrinin, mütəxəssislərin, ekspertlərin, məsləhətçilərin təlim-tədris işinin aparılmasına cəlb edilməsi istiqamətində işləri görmək;
• Notariat fəaliyyətinin aktual məsələləri üzrə araşdırma işlərinin aparılması üçün prioritet istiqamətlərin müəyyən edilməsi istiqamətində layihə və təkliflər vermək;
• Tədris üzrə əlaqəli qurumlarla birgə təlim və tədris kursları proqramlarının, planlarının
hazırlanması və həyata keçirilməsində iştirak etmək;
• Tədrislə bağlı metodiki tövsiyyələrin və vəsaitlərin nəşr edilməsi barədə təkliflər verilməsində iştirak etmək;
• Tədrislə bağlı tədbirləri təşkil etmək və tədbir protokollarının tərtib edilməsini təmin etmək;
• Palatanın İdarə Heyəti ilə razılaşdırmaqla təlimlər, seminarlar, konfranslar, müzakirələr və dəyirmi masalar təşkil etmək və keçirilməsində iştirak etmək;
• Palata rəhbərliyinin verdiyi digər tapşırıqları icra etmək.

**İş şərtləri:**
Əmək müqaviləsi bağlanılır.
İş vaxtı: 09:00 - 18:00.
İş günü: Bazar ertəsi- Cümə.

**Namizəd üçün tələblər:**
Ali təhsil (hüquq təhsilinə üstünlük veriləcəkdir).
Tədris sahəsində ən azı 5 il iş təcrübəsi.
Ən azı bir xarici dil biliyi (sərbəst səviyyədə).
Microsoft Office (Word, Excel, Power Point) proqramlarında sərbəst işləmək bacarığı.

**Şəxsi keyfiyyətlər:**
Təşkilatçılıq bacarığı, analitik düşüncə qabiliyyəti, intizamlılıq, ünsiyyətcillik.
Yeni bilik və bacarıqları özündə inkişaf etdirmək həvəsi.

**Məlumatlandırıcı qeydlər:**
CV formanızı göndərmədən öncə iş elanı ilə ətraflı tanış olun.
CV formasında əsas məlumatları lokanik və aydın qeyd edin.
Vakansiya üzrə müraciətlər 01 avqust 2024-cü il tarixədək qəbul olunacaqdır.
İşə qəbul prosesinin növbəti mərhələsi ilə bağlı ümumi tələblərə uyğun gələn namizədlərlə müsahibə keçirilməsi üçün əlaqə saxlanılacaqdır.

Vakansiya ilə maraqlanan namizədlərdən CV-lərini (CV formasını Notariat Palatasının aznotary.az saytında "Vakansiya" bölməsindən götürə bilərsiniz) vakansiya@aznotary.az -mail ünvanına göndərmələri və e-mailin mövzu hissəsində mütləq "Vakansiya" qeyd etmələri xahiş olunur.

## Bakı Biznes Universiteti

### aşağıda qeyd olunan vakant vəzifələri tutmaq üçün

### MÜSABİQƏ ELAN EDİR

1. "Ali riyaziyyat" kafedrasının müdiri – 1 yer.
2. "Mühasibat uçotu" kafedrasının müdiri – 1 yer.
3. "Dillər" kafedrasının müdiri – 1 yer.
4. "İqtisadiyyat və idarəetmə" fakültəsinin dekanı – 1 yer.

Müsabiqədə iştirak etmək istəyən namizədlərin sənədləri bu elan dərc olunan gündən bir ay müddətində (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat 10.00-dan 17.00-dək Bakı Biznes Universitetinin "İnsan resursları" şöbəsində (ümumi şöbə) qəbul edilir.

Namizəd aşağıdakı sənədləri təqdim etməlidir:
– ərizə;
– kadrlar uçotunun şəxsi vərəqəsi;
– tərcümeyi-hal;
– ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin notarial qaydada təsdiq edilmiş surətləri;
– elmi və elmi-metodiki işlərin siyahısı;
– kafedra müdirinin və fakültə dekanının müvafiq struktur bölmənin inkişafı ilə bağlı 3-5 səhifədən ibarət platforması.

Müsabiqə aşağıdakı ümumi şərtlər əsasında aparılır:
1. Kafedra müdiri vəzifəsinə kafedrada kadr hazırlığı aparılan ixtisaslara uyğun namizədlər müraciət edə bilərlər.
2. Dekan vəzifəsinə fakültədə kadr hazırlığı aparılan ixtisaslara uyğun namizədlər müraciət edə bilərlər.
2. Namizədlərin elmi dərəcə və elmi adları (elmlər doktoru və ya elmlər namizədi (fəlsəfə doktoru) elmi dərəcəsi və professor, dosent elmi adı) olmalıdır.
3. "Dillər" kafedrasının müdiri vəzifəsinə namizədlər IELTS (minimum score 7+) və yaxud TOEFL (score 94+) dərəcəsinə malik olmalıdırlar.

***REKTORLUQ***

## Robert Fitsodan ilk açıqlama



**Mayın 15-də silahlı insident zamanı yaralanan Slovakiyanın Baş naziri Robert Fitso hadisədən sonra yerli mediaya ilk dəfə açıqlama verib.**

O, sui-qəsd nəticəsində sağlamlığına ciddi ziyan dəydiyini bildirib: "Mən həmişə şəxsi həyatımı qorumuşam, ona görə də hücumun sağlamlığıma ciddi ziyan vurduğunu bildirməklə kifayətlənəcəyəm".

Xatırladaq ki, Baş nazir mayın sonunda evə buraxılıb.

Qeyd edək ki, Baş naziri Leviçe şəhərindən olan 71 yaşlı yazıçı Yuray Çintula güllələyib. O, buna səbəb kimi hökumətin siyasətini bəyənmədiyini bildirib. Çintulla hazırda saxlandığı həbsxanadakı xəstəxananın psixiatriya şöbəsinə göndərilib.

## "Kapital Bank" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

8 iyul 2024-cü il, saat 11.00-da, Bakı şəhəri, Badamdar qəsəbəsi, Mikayıl Müşfiq küçəsi 2E nömrəli ünvanda yerləşən bankın ofisində (3-cü mərtəbə, iclas zalı) bankın səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Səhmdarların növbədənkənar ümumi yığıncağının gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir:

I. "Kapital Bank" ASC tərəfindən 2023-cü ilin maliyyə ilinin yekunlarına əsasən səhmdarlara dividend ödənilməsi.
Məruzəçi: Zaur Musayev

II. Bankın müşahidə şurasının sədri Rövşən Allahverdiyev və müşahidə şurasının üzvü Fərid Məmmədovla əmək müqaviləsinin bağlanması.
Məruzəçi: Zaur Məmmədli

III. Digər məsələlər.
Məruzəçi: Yaşar Məmmədov

## "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti

### hüquqi xidmətlərin satın alınması üçün

### AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 13 iyun 2024-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: +994 12 599 00 03 (daxili 3704).

Ünvan– AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

## "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti

### ölkə xaricindən idxal edilən mallar üçün gömrük – broker xidmətinin satın alınması məqsədilə

### AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 27 iyun 2024-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: +994 12 599 00 03 (daxili 3706).

Ünvan– AZ1010. Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 118 (30522) 6 iyun 2024-cü il, cümə axşamı

Yeni tamaşalar

# “Xan qızı”nın azadlıq arzusu çin oldu



**“Xurşidbanu Natəvan” pyesi Xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığında xüsusi yer tutur. Görkəmli ədib bu əsəri yazanda hələ Qarabağımız üzərində qara yellər əsmirdi. Amma məkrli qonşularımızın gizli niyyətləri ara-sıra özünü göstərirdi. Üstəlik, fürsət düşdükcə tarixi şəxsiyyətlərimizə şər, böhtan atmaqdan da çəkinmirdilər. İncə ruhlu şairə Natəvan haqqında da ağlasığmaz iftiralar yağdırırdılar. Natəvan təkcə zərif təranələr ötən şairə deyildi, Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızı, Qarabağ xanlığının banisi İbrahimxəlil xanın nəvəsi idi. İctimai xadim idi. Ona atılan böhtanlar həm də şərəfli tariximizi şübhə altına almaq demək idi.  Belə bir məqamda İlyas müəllim Natəvanın parlaq obrazını Azərbaycan səhnəsinə gətirdi.**

1981-ci ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində nümayiş etdirilən tamaşının quruluşçu rejissoru Xalq artisti Mərahim Fərzəlibəyov idi. Tamaşada Natəvan obrazını unudulmaz aktrisamız, Xalq artisti Amaliya Pənahova yaratmışdı. “Xurşudbanu Natəvan” Azərbaycan teatr tarixinin ən parlaq səhifələrindən biridir. Amaliya xanımın Natəvanı bu gün də yaddaşlarda yaşayır və minnətdar duyğularla xatırlanır. Eyni zamanda, bu obraz Amaliya xanımın səhnə fəaliyyətində mühüm bir mərhələnin başlanğıcı idi. O vaxta qədər lirik-sentimental obrazlarla səhnədə görünən aktrisa ilk dəfə idi ki, tarixi bir şəxsiyyətin obrazını canlandırırdı. Aradan uzun illər keçməsinə baxmayaraq bu gün də həmin tamaşa Akademik Milli Dram Teatrının müstəsna uğurlarından biri kimi xatırlanır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Teatr Xadimləri İttifaqının təşkilatçılığı ilə Bakı Bələdiyyə Teatrının səhnələşdirdiyi “Xan qızı” tamaşasının yeni quruluş müəllifi də Xalq artisti Mərahim Fərzəlibəyovdur. Tamaşa görkəmli nasir, dramaturq İlyas Əfəndiyevin 110 illiyi və Xalq artisti Amaliya Pənahovanın xatirəsinə həsr edilib.

...Abbas Mirzə Şərifzadə adına Aktyorlar Evində sözün əsl mənasında anşlaq idi.  Azərbaycan Teatr Xadimləri İttifaqının sədr əvəzi, Xalq artisti Hacı İsmayılov, sənətşünaslıq doktoru, Əməkdar İncəsənət xadimi Məryəm Əlizadə və tamaşanın quruluşçu rejissoru Mərahim Fərzəlibəyov bu tamaşanın tarixi əhəmiyyəti, İlyas Əfəndiyevin və Amaliya Pənahovanın yaradıcı iş birliyi barədə geniş danışdılar. Hər iki sənətkar ehtiramla anıldı.

Yeni quruluşda Natəvanın həyatından dramatik səhnələr yer alıb. Xüsusən, yazıçının sağlığında tamaşadan çıxarılmış epizodlar rejissor tərəfindən bərpa edilərək təqdim edilir. Məsələn, qızlar məktəbi ilə bağlı səhnələr tamaşaçı üçün yeni idi. Natəvan babası İbrahimxəlil xanın humanistliyindən bəhs edərək ermənilərin Qarabağda yaşamasına icazə verdiyini, bu torpaqlarda bütün millətlərdən olan insanların bərabər hüquqda rifah içində yaşadığını xüsusi olaraq vurğulayır. Bir vacib cəhəti də qeyd edək ki, İlyas müəllim pyesi “Xan qızı” adlandırmışdı. Lakin dövrün ideoloji tələbləri nəzərə alınaraq əsər “Xurşudbanu Natəvan” adı ilə təqdim edilmişdi. Bu dəfə əsərin adı da rejissor tərəfindən bərpa edilib.

Tamaşada şairənin şeirlərinə də geniş yer verilib. Natəvanın  qəzəlləri mütəmadi olaraq özünün və digər obrazların dilindən (vəziyyətə uyğun olaraq) səslənir. Rolları Ülviyyə Rza, Tural Əhməd, İsmayıl Atakişiyev, Əfqan Soltanov, Zülfiyyə Məmmədova, Toğrul Rza, Əhməd Salahov, Zülfiyyə Qurbanova və başqaları ifa edirlər.

Bakı Bələdiyyə Teatrının istedadlı aktrisalarından olan Ülviyyə Rza Natəvanın hiss və həyəcanlarını son dərəcə inandırıcı formada təqdim edir. Amaliya xanım kimi qüdrətli aktrisadan sonra Natəvanı oynamaq böyük cəsarət tələb edir. Ülviyyə xanım bu obraza özünəməxsus cizgilər əlavə edir və biz səhnədə tamamilə fərqli bir Natavanı görürük. Natəvanın dərdi də, həsrəti də, əzabı da, hiddəti də aktrisanın təbii oyununda mükəmməl ifadə olunur və tamaşaçıda dərin, unudulmaz təəssüratlar oyadır. Aktrisanın oyunu hissin dərinliyi, fərdi və ictimai ağrıların təcəssümü ilə səciyyələnir. Bir sözlə, Ülviyyə Rza səhnədə bütün varlığı ilə Natavana çevrilməyi bacarıb.

Tural Əhməd Xasay xanın dramatizmini, sevgisini, tərəddüdlərini inandırıcı formada tamaşaçıya təqdim edir. Tamaşanın dəfələrlə alqışlanması onun uğurlu səhnə həllinin göstəricisidir. Rejissorun hazırladığı bitkin kompozisiya Natəvanın taleyini gözlərimiz önündə sərgiləyir. Sonda ekranlarda böyük sənətkarımız Amaliya xanımın yaratdığı Natəvanı görürük. O unudulmaz səhnə tamaşaçıları ehtizaza gətirir.

“Bu uçurumlu yolların sonunda bizi öz birliyini, öz xoşbəxtliyini tapmış azad Azərbaycan gözləyir!” İlyas Əfəndiyev bu sətirləri böyük inamla yazmışdı və zaman gəldi, həmin sözlər həqiqətə çevrildi. Bu mənada “Xan qızı” tamaşası həm xalqımızın tarixi taleyində, həm teatr tariximizdə, həm görkəmli yazıçımızın, həm də Amaliya xanımın və Mərahim müəllimin sənət taleyində mühüm səhifələrdən birinə çevrildi.

Sonda tamaşanın rejissoru Mərahim Fərzəlibəyov və Xurşidbanu Natəvan obrazının ifaçısı aktrisa Ülviyyə Rza Teatr Xadimləri İttifaqının İlyas Əfəndiyevin adını daşıyan Fəxri fərmanına layiq görüldülər.

***Kənan HACI,***
***yazıçı-publisist***

İDMAN

## Dünya çempionatında gümüş medal



**Azərbaycan idmançısı Elmir Əskərov Macarıstanın Balatonfüred şəhərində atletika üzrə keçirilmiş dünya çempionatında gümüş medal qazanıb.**

Təmsilçimiz 40–44 yaş qrupundan olan atletlər arasında 2-ci yeri tutub. E.Əskərov iki gün davam edən yarışda 327 kilometr nəticə ilə 200 mil məsafəyə beynəlxalq normativi yerinə yetirib.

## Qadın millimizin qələbəsi

**Qadın futbolçulardan ibarət Azərbaycan millisi Avropa çempionatının seçmə mərhələsində növbəti oyununu keçirib.**



Siyasət Əsgərovun rəhbərlik etdiyi kollektiv B Liqasının I qrupunda “Liv Bona Dea Arena”da Türkiyə yığmasını qəbul edib. Qarşılaşma millimizin 1:0 hesablı qələbəsi ilə başa çatıb. Görüşdə yeganə qolu Nigar Mirzəliyeva vurub.

Xatırladaq ki, mayın 31-də səfərdə baş tutan ilk oyunda millimiz qardaş ölkəyə 0:1 hesabı ilə məğlub olmuşdu.

Qrup mərhələsinin ilk 4 turundan sonra Türkiyə yığması 6, Azərbaycan millisi isə 4 xala malikdir.

***L.QURBANOVA***
***XQ***

## Aranda isti, dağlarda yağış və duman...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən iyunun 6-da Bakıda və  Abşeron yarımadasında hava  yağmursuz keçəcək.**

Cənub-qərb küləyi əsəcək, gündüz mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 20-24°, gündüz 31-36°, bəzi yerlərdə 38° isti olacaq. Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu , nisbi rütubət gecə 65-75, gündüz 45-55  faiz  olacaq. Azərbaycanın rayonlarında, əsasən, yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 19-24°, gündüz 35-38°, bəzi yerlərdə 40°, dağlarda gecə 12-17°, gündüz 22-27° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

Futbol tariximizdən

# “Neftçi”nin rekordçusu

### *Sergey Kramarenko 286 oyunun 116-da rəqibə aman verməmişdi*

**Diqqətinizə çatdırdığımız foto düz yarım əsr əvvəl lentə alınmışdır. Onu “Neftçi”–70. Unudulmayan keçmiş. 1937-2007” kitabından (müəlliflər–Səbuhi Səfiyarlı, Elçin Rüstəmov) götürmüşük. Paytaxtımızda 1-ci dəstə komandaları arasında 36-cı SSRİ çempionatının ilk oyununa dəqiqələr qalır. “Neftçi”nin kapitanı Sergey Kramarenko və onun Sverdlovskın “Uralmaş” komandasındakı həmkarı o dövrün ənənəsinə uyğun olaraq, 1974-cü ilin 11 aprel axşamında Respublika stadionunda yeni mövsümün başlandığını bildirən bayrağı qaldırırlar. Tribunalar, gördüyünüz kimi, tamaşaçılarla doludur. Bakıda növbəti ölkə çempionatı starta çıxır.**



Başlanğıc uğurlu oldu. Donetskli hakim B.Streletskinin idarə etdiyi görüşdə azarkeşlər sevimli komandalarının böyük hesablı qələbəsini (3:0) ürəkdən alqışladılar. Hər üç top ikinci hissədə vuruldu. Əvvəlcə Tofiq Abbasov 11 metrlik cərimə zərbəsi ilə hesabı açdı, oyunun son 10 dəqiqəsində isə iki dəfə Əbdülqəni Nurməmmədov fərqləndi.

Həmin mövsümdə “Neftçi” finişdə beşinci yerlə kifayətlənməli olsa da, iki ildən sonra məqsədinə çatıb, 1977-ci ildən yenidən “yüksək cəmiyyətdə” görünməyə başladı.

Bugünkü qeydlərimizin əsas səbəbkarı Sergey Kramarenkoya “Neftçi”nin heyətində SSRİ çempionatlarında ən çox sevinc gətirən oyun isə 1966-cı ilə təsadüf etmişdir. Azərbaycan futbolu tarixində xüsusi yeri olan və həmin il noyabrın 30-da keçirilmiş 28-ci çempionatın şəhərimizdə vida görüşündə Moskvanın “Spartak” kollektivi üzərində mükəmməl oyunla qazanılan parlaq qələbə (3:0) “Neftçi”-nin yekun turnir cədvəlində 3-cü mövqedə yerini möhkəmləndirdi.

Artıq bürünc medalları heç kim bizim əlimizdən ala bilməzdi. Tarixi nailiyyətə şahidlik etmişdik. S. Kramarenko və dostları yenilməz iradə, əsl qələbə əzmi və idman hünəri göstərmişdilər. 58 il əvvəl Azərbaycan paytaxtına gətirilən bürünc medallar Sovet İttifaqı çempionatları tarixində “Neftçi” futbolçularının ilk və yeganə medalları kimi yaşayır.

“Spartak”la oyundan dərhal sonra Kramarenkonun jurnalistlərə verdiyi qısa müsahibədə işlətdiyi iki-üç cümlə də komandanın böyük nailiyyətini aydın ifadə edirdi: “Qorxurdum ki, mənim bir səhvim matçın nəticəsinə həlledici təsir göstərsin. Amma həyəcan heç vaxt oyunçunun müttəfiqi olmamışdır. İndi isə mən oyun ərəfəsində olduğundan daha çox həyəcanlanıram. Təsəvvür edin, biz bürünc medalların sahibiyik”.

Həqiqətən, tarixi zəfər idi, təkcə “Neftçi” və futbol ictimaiyyətimiz yox, bütün respublika özünü xoşbəxt sana bilərdi.

Bunu da ayrıca qeyd etmək olar ki, “Neftçi”nin çempion “Dinamo” Kiyevdən, gümüş mükafatçı OİK Rostovdan sonra üçüncü yerə sahib olduğu həmin 28-ci çempionatda Bakı komandası kiyevlilərdən sonra öz qapısından ən az (28) top buraxan ikinci kollektiv olmuşdur. Bu isə o deməkdir ki, Kramarenko və onun oyundaşları çempionatda keçirdikləri 34 görüşdə qapının təhlükəsizliyini yaxşı təmin etmişlər, bürünc medallar qazanılmasında onların ustalığı, fədakarlığı mühüm rol oynamışdır.

Statistiklər hesablamışlar ki, Kramarenko 1964–71, 1977–79 və 1983–84-cü illərdə SSRİ çempionatının güclülər dəstəsində 286 oyunda “Neftçi”nin şərəfini qorumuş və bu göstəriciyə görə komandanın rekordçusu olmuşdur. Statistika onu da xatırladır ki, qapıçımız 116 görüşdə rəqiblərin qola sevinməsinə imkan verməyib.

Bakılı qapıçının 1976-cı ildə Ukraynanın “Çernomorets” (Odessa) komandası heyətində 26 matçda çıxış etdiyini də nəzərə alsaq, o, ümumilikdə SSRİ çempionatının güclülər dəstəsində 312 oyunun iştirakçısı olmuşdur.

Gəncə futbolunun yetirməsi S.Kramarenko 2008-ci il martın 25-də, 62 yaşında Moskvada vəfat etmişdir.

Azərbaycan futbolunda ən mahir qapıçılardan biri kimi böyük nüfuz qazanmış SSRİ çempionatının bürünc mükafatçısının oğlu Dmitri Kramarenko da bir çox il ərzində atasının yolunu davam etdirmişdir. Onun hazırda Moskvanın ÇSKA klubunda qapıçılarla işləyən məşqçi olduğunu da xatırladıb, “Neftçi”nin o uzaq illərdəki rekordçusu haqqında qeydlərimizi yekunlaşdıraq.

O, futbolumuzun pərəstişkarlarının yadında soyuqqanlı və etibarlı oyunu, cəsarətli tullanışları, rəqib komandanın hücumları zamanı mükəmməl reaksiyaları, hakimin start işarəsindən final fitinədək fədakar mübarizəsi, istənilən anda və şəraitdə komanda yoldaşlarının köməyinə gəlməyə hazır olan futbolçu kimi qalıb. Elə buna görə də qədirbilən azarkeşlər futbolumuza sədaqətlə xidmət etmiş Sergey Sergeyeviç Kramarenkonu heç vaxt unutmur, söhbət zamanı daim onu minnətdarlıqla xatırlayırlar.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

## Süni intellekt avtosürücüdür

**Müasir dünyada texnoloji yeniliklər gündəlik həyatımızın ayrılmaz hissəsinə çevrilib. Avtomobil sənayesi də kənarda qalmayıb. Süni intellekt avtomobil sənayesinə daxil olub, inkişaf üçün yeni zəmin yaradıb və standartları yenidən müəyyənləşdirib.**



Bu yeniliklər sayəsində avtomobil sənayesi də sürətlə inkişaf edir. Artıq sürücüsüz avtomobillər dünyanın bir çox ölkəsinin küçələrində hərəkət edir. Onları radar, GPS, odometr, kompüter kimi müasir texnologiyalar idarə edir. Süni intellekt sayəsində nəqliyyat vasitələri obyektləri tanıyır, bundan sonra nə baş verə biləcəyini təxmin edir, hətta gözlənilməz vəziyyətlərə reaksiya verir. Bunun sayəsində sürücüsüz avtomobillər insan sürücülərə nisbətən da tez qərar verə bilir. Nəticədə, avnonom avtomobillər avtomatik idarə sistemləri sayəsində sürücüyə ehtiyac duymadan yolu, nəqliyyat axınını və ətrafını dərk edərək gedir.

Süni intellekt yol qəzalarını da azaldır. Çünki pilotsuz nəqliyyat vasitəsi qarşıya qoyulan konkret qayda və tələblərlə hərəkət edir. Misal üçün, əgər bu nəqliyyat vasitəsi sağa, sola yaxud geriyə dönəcəksə, qarşıdakı pilotsuz avtomobilin hərəkətinə uyğun davranır. Yəni o, qarşıdakının hərəkətini bilir və ona uyğun əməliyyatı yerinə yetirir. Beləliklə, qabaqcıl texnologiyalar sayəsində avtonom avtomobillər səhv marjasını minimuma endirir və insanlar daha az səhv edirlər.

***PÜNHAN***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının katibi

**RAMİN RAMİZ OĞLU VƏLİZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75  Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02  E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64  info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4047
SİFARİŞ 1229
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00